Xalqın qəzeti!

# Xalq qəzeti

№ 97 (30501) 11 may 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Ümummilli liderin ölməz xatirəsi əbədiyaşarlığın canlı təcəssümüdür

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin Fəxri xiyabanda məzarını ziyarət ediblər





**Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günüdür.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin Fəxri xiyabanda məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli liderin xatirəsini dərin hörmətlə yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

## Ermənistan səmasında qara buludlar



**Aprelin 19-da Qazax rayonunun 4 kəndinin ölkəmizə qaytarılması ilə bağlı Ermənistan hökuməti ilə əldə edilən razılaşma ölkədəki revanşist kəsimin hərəkətə keçməsinə səbəb olub. Onlar elə razılaşmanın ertəsi günündən – aprelin 20-dən başlayaraq, sərhədyanı Tavuş vilayətində lokal etiraz aksiyalarına başlayıblar. Məlum olduğu kimi, aksiyalara rəhbərliyi kilsənin vilayət üzrə yeparxiyasının rəhbəri Baqrat Qalstanyan öz üzərinə götürüb.**

Onun başçılığı altında bir qrup şəxs tərəfindən "Vətən naminə Tavuş" adlı vətəndaş hərəkatı başlanıb. Onlar mayın 4-də Tavuş vilayətinin Azərbaycanla həmsərhəd Kirants kəndindən İrəvana yürüş ediblər. Yürüş iştirakçıları mayın 9-da paytaxta çatıblar. Günün sonuna yaxın onlar İrəvanın mərkəzindəki Respublika meydanında mitinq keçiriblər. Mitinqdə çıxış edən B.Qalstanyan Nikol Paşinyana istefa verməsi üçün bir saat vaxt verdiklərini bildirib.

Baqratın ardınca mitinqdə özünü "Qarabağ hərəkatının pioneri" adlandıran (Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi ilə bağlı 1988-ci ildən başlanan separatizm hərəkatı–S.H.) İrəvan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin sabiq dekanı, 87 yaşlı professor Qurgen Melikyan çıxış edib.

Onun çıxışı başdan-ayağa separatçılığın təbliğindən, erməni və Azərbaycan xalqları arasında nifrəti qızışdırmaqdan ibarət olub. Melikyan deyib: "Üçqat bayramımızı yenidən geri qaytaracağıq. Sizi inandırıram, o gün yaxındır". Qeyd edək ki, Ermənistanda və Qarabağda 1992-ci ildən 2020-ci ilədək "üçqat bayram" deyilən bir ifadə mövcud olub. Əslində, ifadə indi də var. Sadəcə, olaraq üç bayramdan ikisi, necə deyərlər, "gorbagor olub". Haylar "üçqat bayram" deyərkən faşizm üzərində qələbə gününü, 1992-ci il mayın 8-də Şuşanın işğal olunmasını və elə həmin tarixdə qondarma "dqr"in işğalçı ordusunun yaranmasını nəzərdə tuturlar. 44 günlük Vətən müharibəsindəki Qələbəmizdən sonra bu bayramlardan ikisi "erməni təqvimindən" silinib.

Melikyan onu da bildirib ki, əsrlər boyu – dövlətçiliyin yoxluğu zamanında erməni xalqına kilsə dayaq olub və dini mərkəz bu gün bir daha öz missiyasını üzərinə götürüb. "İmanımız, mənəviyyatımız, ləyaqətimiz əlimizdən alınıb. Biz erməni qüvvələrini dəstəkləməyə borcluyuq. Ölkənin sərhədlərindən Ermənistan paytaxtına həqiqət gəldi və bütün erməniləri ayıltdı. Biz sabaha inanırıq. Nəhayət ki, Ermənistanın həyatında ləyaqət, həqiqət, qələbə və əsl sülh dövrü gəlsin".

Mitinqin keçirildiyi zaman meydanda insident yaşanıb. Belə ki, "KAMAZ" markalı yük maşını meydana daxil olub. Yük maşının hərəkəti polislər tərəfindən dayandırılıb və sürücü polis idarəsinə aparılıb. Aparlmış yoxlamalar nəticəsində onun sərxoşluğu məlum olub.

*(ardı 14-cü səhifədə)*

## Almatı təkanı sülh marafonunu finişə çatdıra biləcəkmi?

### Qazaxıstanda keçirilən ikitərəfli görüşdən hamı bu sualın müsbət cavabını gözləyir



**Ermənistan və Azərbaycan arasında sülh danışıqlarının dinamikasında əhəmiyyətli dəyişiklik baş verir. Almatı görüşündə Qazaxıstan vasitəçi kimi deyil, təşkilatçı və platforma kimi çıxış edir. Bu pozitiv fakt Bakı ilə İrəvanın ikitərəfli formatda danışıqlara üstünlük verdiyini bir daha təsdiqləyir.**

Hər iki tərəf Prezident Kasım–Jomart Tokayevin ölkəsindən danışıqlar platforması kimi istifadə etmək təklifi ilə razılaşıb. Bəs, Almatı sülh danışıqlarının dinamikasında sıçrayış məkanına çevriləcəkmi? İndi bu sualın cavabı təkcə münaqişə tərəfləri üçün deyil, eyni zamanda, Cənubi Qafqazda maraqlarını güdən kənar aktorlar üçün də ciddi önəm daşıyır.

*(ardı 13-cü səhifədə)*

## Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar rəsmi X sosial səhifəsində paylaşım edib.**

## Birinci vitse-prezident Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü münasibətilə paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə rəsmi instaqram hesabında paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq".

## Avropanın investisiya qurumunun ölkəmizlə əməkdaşlığı genişlənir

### Bank respublika iqtisadiyyatına 3,6 milyard avro sərmayə yatırıb




**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycana investisiyaları artırmağı qarşıya önəmli vəzifə kimi qoyub. Bunu mediaya müsahibəsində AYİB-in ölkəmizdəki nümayəndəliyinin rəhbəri Natalya Mouravidze bildirib. O, bankın region iqtisadiyyatına verdiyi töhfənin vacibliyini vurğulayaraq ölkəmizdə bu maliyyə qurumunun hazırkı layihələr portfelinin 937 milyon avro təşkil etdiyini qeyd edib.**

*(ardı 15-ci səhifədə)*

## Paşinyanın "Dünyanın kəsişməsi" və AİI-ni şantaj cəhdi

### Yaxud erməni baş nazirin Rusiyanın hakim rol oynadığı təşkilat üçün avantürizm gündəliyi

**Ermənistan baş naziri Nikol Paşinyan əlinə düşən hər fürsətdəcə ölkəsinin Azərbaycanın "Zəngəzur dəhlizi" ideyasına qarşı irəli sürdüyü "Dünyanın kəsişməsi" təşəbbüsünü ortaya atır. Sədrlik etdiyi Avrasiya İqtisadi İttifaqının Ali Şurasının növbəti iclası da bu baxımdan istisna olmadı. Erməni baş nazirin mövcud xüsusda nələrdən danışmasının üzərində dayanacağıq.**

Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin aprelin 23-də ADA Universitetində keçirilmiş "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusundakı beynəlxalq forumda bildirdiklərinə diqqət yetirək: "Sonda nə olacaq? Ermənistan uduzacaq. Onlar qovşaq olmaq istəyirlər, onu "sülh qovşağı" adlandırırlar. Amma sülh qovşağına çevrilmək üçün, ilk növbədə, onlar bizimlə razılaşmalıdırlar. Çünki əgər Azərbaycan buna razılıq verməsə, bu, sadəcə, bir kağız parçası və ya bəyanat olacaq. Bizimlə razılaşma olmadan bu, tamamilə faydasızdır. Əfsuslar olsun ki, onlar bunu regiondan çox uzaqda yerləşən müxtəlif ölkələrlə müzakirə etməyə çalışırlar. İşə gələndə isə bunu bizimlə müzakirə etmək istəmirlər. Bizim mövqeyimiz çox aydındır. Üçtərəfli bəyanata hörmət edilməlidir".

*(ardı 12-ci səhifədə)*

# Azad Qarabağ dirçəlir, boy atır

*Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli, Şuşa və Laçın rayonlarına səfəri*

## Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak edib.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Füzuli rayonu ərazisində, Köndələnçay çayının məcrasında tikilmiş ümumi su tutumu 3,9 milyon kubmetr (faydalı həcmi 3,6 milyon kubmetr), hündürlüyü 14 metr olan Köndələnçay-1 su anbarı 1962-ci ildə istismara verilib. İşğaldan azad olunmuş ərazilərdə kompleks meliorasiya-irriqasiya tədbirləri çərçivəsində su anbarında müvafiq təmir-bərpa işləri həyata keçirilib. Bundan məqsəd bəndin qurğularının və mexaniki avadanlıqlarının sabit iş rejiminə gətirilməsi və bundan sonrakı istismarı üçün normal vəziyyətinin yaradılmasıdır.

Layihəyə torpaq bəndin yuxarı byefində dağıdılmış bermanın və bütün bənd boyu beton üzlüyün, qülləli suburaxıcı-sutullayıcının estakadasının və çıxış hissəsinin, eni 6 metr, uzunluğu 283 metr olan səthi sutullayıcının yenidən bərpası, birmərtəbəli gözətçi evinin və çirkab su quyusunun tikintisi, xarici elektrik təchizatının təmin edilməsi və su anbarı ərazisində abadlıq və yaşıllaşdırma işlərinin görülməsi daxildir.

Xatırladaq ki, 1951-ci ildə istismara verilən Köndələnçay-2 su anbarının ümumi su tutumu 2,1 milyon kubmetr (faydalı həcmi 1,6 milyon kubmetr), hündürlüyü 23,35 metrdir. İşğaldan azad olunmuş ərazilərdə kompleks meliorasiya-irriqasiya tədbirləri çərçivəsində su anbarında müvafiq təmir-bərpa işləri həyata keçirilib. Layihələndirmənin məqsədi bəndin qurğularının və mexaniki avadanlıqlarının sabit iş rejiminə gətirilməsi və bundan sonrakı istismarı üçün normal vəziyyətinin yaradılmasıdır. Daş örtüklü torpaq bəndin yuxarı byefində çökmüş daş örtüyü bərpa olunub, drenaj sistemi və nəzarət ölçü cihazları quraşdırılıb, suburaxıcı borunun çıxış başlığının dağılmış beton hissəsi bərpa edilib, diametri 600 millimetr olan siyirtmələr yenilənib, aparıcı kanal lildən təmizlənib, qurğunun beton konstruksiyası, uzunluğu 177 metr olan səthi sutullayıcının dəmir-beton üzlüyü yenidən qurulub. Həmçinin birmərtəbəli gözətçi evi və çirkab su quyusunun tikintisi, xarici elektrik təchizatının təmin edilməsi, su anbarı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb.

Qeyd olundu ki, ümumi su tutumu 9,5 milyon kubmetr (faydalı həcmi 9 milyon kubmetr), hündürlüyü 25 metr olan Aşağı Köndələnçay su anbarı isə 1980-ci ildə istismara verilib. Burada daş örtüklü torpaq bəndin yuxarı byefində çökmüş daş örtüyü bərpa olunub, drenaj sistemi və nəzarət ölçü cihazları quraşdırılıb, qülləli suburaxıcının yükdaşıyan elementlərinin dəmir-beton konstruksiyaları, dib borusunun bütün mexaniki və qaldırıcı avadanlıqları, qurğunun estakadası metal və beton konstruksiyaları, eni 6 metr, uzunluğu 780 metr olan səthi sutullayıcının bütün beton konstruksiyaları, binanın mexaniki və hidromexaniki avadanlıqları yenidən qurulub, yarımstansiya və elektrik xətti bərpa olunub, Quruçay üzərində suqəbuledici qurğu tikilib. Quruçaydan gələn sular su anbarına yönəldiləcək.

Dövlətimizin başçısı Köndələnçay su anbarları kompleksini işə saldı.

## Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunda birinci tunelin açılışı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda aparılan işlərlə tanış olub, bu yolda inşa edilmiş birinci tunelin açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol 19,3 kilometr qısadır. Birinci texniki dərəcəli yolun 4-6 hərəkət zolağı var. Yolboyu müxtəlif diametrli 194 suötürücü boru, 38 yeraltı keçid, 11 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 1557 metr, viadukların uzunluğu 1965 metr, tunellərin ümumi uzunluğu isə bir istiqamət üzrə 6450 metrə yaxındır.

Diqqətə çatdırıldı ki, yolun tikintisi layihəsi üzrə nəzərdə tutulmuş və ümumi uzunluqları (sağ və sol istiqamət) 12,7 kilometr təşkil edən 7 avtomobil tunelindən 6-sında qazma işləri artıq yekunlaşıb. Hazırda tuneldaxili işlər həyata keçirilir. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə, işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirir.

Sonra dövlətimizin başçısı ümumi uzunluğu 6747 metr olan birinci tunelin açılışını etdi.

Prezident İlham Əliyev işçilərlə birgə foto çəkdirdi.

Daha sonra Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda dördüncü tunelin giriş və çıxış hissələrinə baxış keçirildi.

Məlumat verildi ki, yolun 73,7-ci kilometrliyindəki tunelin sol hissəsi 679,8 metr, sağ hissəsi isə 680,6 metrdir. Tuneldə qazma işləri başa çatdırılıb. Hazırda daxili işlər görülür.

## Şuşada üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.**

Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma yeni yaşayış kompleksi barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərində üçüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 17 yaşayış binasının inşası nəzərdə tutulub. Kompleks ümumilikdə 487 mənzildən ibarət olacaq. Hazırda binanın layihələndirmə işləri başa çatdırılıb. Tikinti işlərinə bu ilin yayında başlanılması planlaşdırılır.

Prezident İlham Əliyev Şuşada üçüncü yaşayış kompleksinin təməlini qoydu.

## Şuşada Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanış olublar.**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Heydər Əliyev Fondu Şuşada daha bir tarixi abidənin - Çöl Qala məscidinin bərpası layihəsini həyata keçirir. "PAŞA Holdinq"in dəstəyi ilə aparılan bərpa işlərinə 2023-cü ildən başlanılıb.

Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Məscid Şuşa şəhərinin yuxarı məhəllələrinə daxil olan Çöl Qala məhəlləsinin Qasım bəy Zakir küçəsində yerləşir. Bu tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa olunub. Məscid minarəsiz formada tikilib, Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı, ümumi girişi isə asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarət olub.

Çöl Qala məscidinin interyeri tamamilə İslam memarlığına uyğundur. Məscidin daxili hissəsi səkkizguşəli dörd daş sütunla bəzədilib. Bu sütunlar ümumi ibadət zalını üç hissəyə ayırır. Məscidin mehrabı ilə üzbəüz ümumi ibadət zalının içərisində qadınlar üçün açıq ibadət zalı tikilib.

Məscid Şuşa şəhərinin işğalından sonra ermənilər tərəfindən dağıdılıb və talan edilib.

Çöl Qala məscidinin yaxınlığında isə XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Bulağın divarları dördbucaq formasında olub və yaxınlığında yerləşən məscidlərin üslubunda tikilib. İşğal dövründə bulaq da dağıdılıb, daş kitabələri məhv edilib.

# Üzeyir Hacıbəylinin ev-muzeyində aparılan bərpa işləri ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyində aparılan bərpa işləri ilə tanış olublar.**



Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Heydər Əliyev Fondu Şuşa şəhərində Üzeyir Hacıbəylinin ev-muzeyində bərpa işlərini davam etdirir. Üzeyir Hacıbəylinin evi Şuşada XIX əsrdə inşa olunub. Bina 1959-cu ildə ev-muzeyi kimi fəaliyyətə başlayıb. Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib. Muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan erməni işğalçı qüvvələrinin vəhşiliyi nəticəsində yalnız 136-sı salamat qalıb, digərləri məhv edilib.

Məlumat verildi ki, binadakı bərpa işlərinə evin ilkin görünüşünə uyğun olaraq analizlərin hazırlanması, bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılması, həmçinin həyətyanı sahənin yaşıllaşdırılması işləri daxildir. Bu günədək bərpa layihəsinin hazırlanması, ərazidə mövcud divar daşlarının sökülərək, ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib. Muzeyin memarlıq, konstruksiya həlli və mühəndis-kommunikasiya sistemləri üzrə işçi layihələri yekunlaşıb, bünövrənin armaturlanması icra olunub. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası işləri görülüb. Həmçinin həyətyanı sahədə tarixi görkəmə uyğun hörgü işləri və dekorativ elementlərin qoyulması başa çatdırılıb. 2022-ci ildə başlanan bərpa işləri yekunlaşandan sonra muzeydə ekspozisiya qurulacaq.

# Aşağı Gövhər Ağa məscidində bərpa işləri davam edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olublar.**



Dövlətimizin başçısına və birinci xanıma məsciddə görülən işlər barədə məlumat verildi.

Qeyd edildi ki, bərpa işləri Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə həyata keçirilir. Layihəyə Avstriya, İtaliya, Latviya və Türkiyədən olan mütəxəssislər cəlb olunub. XIX əsrdə Kərbəlayi Səfixan Qarabağinin memarlığı ilə ərsəyə gələn Aşağı Gövhər Ağa məscidi İbrahim xanın qızı Gövhər Ağa tərəfindən Şuşada inşa etdirilmiş məscidlərdən birincisi sayılır. Şuşanın işğalı zamanı Aşağı Gövhər Ağa məscidi erməni vandalizminin qurbanına çevrilmişdi. Məscidin binası və minarələri ermənilərin zirehli texnikalarının atəşlərinə məruz qalaraq ciddi zədələnmişdi.

Bərpa prosesi ilə tanışlıq zamanı Şuşa işğal altında olduğu dövrdə ermənilərin Aşağı Gövhər Ağa məscidində törətdikləri vandalizm faktları barədə məlumat verildi. Bildirildi ki, bərpa işləri zamanı divarda müxtəlif yazılar, o cümlədən divara həkk olunmuş xaç işarəsi aşkarlanıb.

Bərpa işləri zamanı yerli və beynəlxalq ekspertlər məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə və layihələndirmə apарıblar. Konservasiya və restavrasiya işləri məscidin ilkin memarlıq üslubuna uyğun olaraq həyata keçirilir. Xarici mütəxəssislərin iştirakı ilə qübbələrin daxili səthində tarixi naxış hissələrinin mikroinyeksiya üsulu ilə bərkidilməsi həyata keçirilib. Məscidin minarələri bərpa olunub, dam və döşəmə örtükləri dəyişdirilməklə bir sıra təmir işləri həyata keçirilir. Bərpa işləri, eyni zamanda, mədrəsə bölməsini də əhatə edir.

# "Şirin su" hamamının bərpadan sonra açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada "Şirin su" hamamının bərpadan sonra açılışında iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.



Bildirildi ki, Heydər Əliyev Fondu tərəfindən "Şirin su" hamamında 2022-ci ildən aparılan bərpa işləri başa çatıb. "Şirin su" hamamı 1880-ci ildə inşa edilib. Vaxtilə şəhərin digər hamamlarında ərazilərdəki şor quyu sularından istifadə olunurdu. Bu hamam isə Xan qızı Xurşidbanu Natəvanın Şuşaya çəkdirdiyi şirin su ilə təchiz edilib. Məhz buna görə də hamam "Şirin su" hamamı adlandırılıb. Şuşa şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra "Şirin su" hamamında abidənin memarlıq üslubuna aid olmayan dəyişikliklər edilib, əlavə tikililər aparılıb, hamam yararsız vəziyyətə salınmışdı.

Məlumat verildi ki, Avstriyanın "Wehdorn Architekten" şirkətinin mütəxəssislərinin iştirakı ilə aparılan bərpa işləri zamanı ilkin hamama aidiyyəti olmayan hissələr sökülüb, bütün xarici və daxili hissələr - fasad, dam, qapı-pəncərə sistemi, döşəmə, tavan bərpa edilib. Hamamın daxilində günbəzlər və divarlardakı bütün zədələnmiş suvaqların, döşəmələrdə bütün uyğun olmayan örtük materiallarının, sonradan əlavə edilmiş quraşdırmanın aradan qaldırılması işləri həyata keçirilib. Ərazidə hasar divarları tikilib, pilləkənlər bərpa edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ətraf ərazidə görülmüş işlərlə də maraqlandılar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

# Mamayı məscidinin bərpası başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mamayı məscidinin bərpadan sonra açılışında iştirak ediblər.**

Dövlətimizin başçısına və birinci xanıma məsciddə görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Heydər Əliyev Fondunun "PAŞA Holdinq"in dəstəyi məsciddə və məscid ərazisindəki bulaqda apardığı bərpa işlərinə 2023-cü ildə başlanılıb. Mamayı məscidi şəhərin mərkəzi hissəsində yerləşən Mamayı məhəlləsində XIX əsrin sonlarında tikilib. Düzbucaqlı plan quruluşu olan ikimərtəbəli məscidin sütunlu interyeri var. Məhəllə məscidləri kimi Mamayı məscidinin də damında azan vermək üçün taxtadan güldəstə quraşdırılmışdır. Mamayı məscidi sovet hakimiyyəti illərində poeziya evi kimi də fəaliyyət göstərib. Şəhərin digər məhəllələri kimi burada da məscid, bulaq, kiçik meydan və hamam olub. Bildirilib ki, işğal dövründə məscid və onun yanında yerləşən bulaq yararsız hala salınıb. Erməni işğalçıları şəhərdəki bir çox abidələr kimi ərazidəki Mamayı bulağını da erməniləşdirməyə çalışmışdılar. Bulağın üzərindəki yazılar silinib və yerinə xaç işarəsi həkk olunmuşdu. Bundan başqa, ermənilər saxtakarlıq edərək bulağın daşlarının üzərinə erməni və rus dilində yazılmış lövhə də həkk etmişdilər. Aparılan bərpa işləri nəticəsində artıq burada erməni vandalizminin bütün izləri aradan qaldırılıb.

Qeyd edildi ki, Mamayı məscidində tarixən mehrab sərt ağac materialından istifadə olunub. Bərpa zamanı bütün işlər tarixi görkəm nəzərə alınmaqla aparılıb. Məscidin pəncərələri tarixi görünüşünə uyğun bərpa edilib, qarşı tərəfdə yararsız halda olan döşəmə yenidən qurulub.

Məlumat verildi ki, bundan əlavə Şuşada Heydər Əliyev Fondu tərəfindən Yuxarı Gövhər Ağa, Saatlı məscidləri, eləcə də Mehmandarovların malikanə kompleksi ərazisindəki məscid bərpa edilib və 2023-cü ilin may ayında istifadəyə verilib.

# Şuşalıların 32 illik həsrətinə son qoyuldu

## *Birinci yaşayış kompleksinin açılışı və şəhərə köçmüş ilk sakinlərlə görüş*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər.**

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir.

Sonra dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində və mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya ilk köç edən ailələrlə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

– Əziz şuşalılar, Şuşaya xoş gəlmisiniz.

Otuz iki ildən sonra siz doğma Şuşaya qayıdırsınız. Bu gözəl tarixi hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Siz otuz iki il vətən həsrəti ilə yaşamısınız, amma bilirəm ki, bir an da Şuşanı unutmamısınız, bilirdiniz və inanırdınız ki, siz buraya qayıdacaqsınız. Mən də bilirdim, mən də inanırdım və Prezident kimi 2003-cü ildən başlayaraq sizi və bütün keçmiş köçkünləri öz doğma vətəninə qaytarmaq üçün əlimdən gələni əsirgəmirdim.

Biz hazırlaşırdıq, ölkəmizi gücləndirirdik, iqtisadiyyatımızı gücləndirirdik, güclü ordu potensialı yaradırdıq. Ən önəmlisi gənc nəsli, - bu gün bizim qürur mənbəyimiz olan Şuşanı və o vaxt işğal altında olan digər torpaqları öz canı-qanı bahasına azad edən, - yetişdirirdik və yetişdirdik. Savadlı, bilikli, vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən sağlam, saf gənc nəsil yetişdirdik və onlar mənim əmrimlə 44 gün ərzində öz sinələrini qabağa verərək torpaqları azad etdilər. Bugünkü günə görə biz onlara borcluyuq, şanlı Ordumuza borcluyuq, Silahlı Qüvvələrimizə borcluyuq, şəhidlərimizə, qazilərimizə borcluyuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Azərbaycan xalqı elə bir qəhrəmanlıq, elə bir fədakarlıq göstərmişdir ki, bu gün bütün dünyada Azərbaycan oğulları haqqında danışırlar və bizim xalqımıza hörmət edirlər. Çünki biz öz haqqımızı danışıqlar yolu ilə yox, kiminsə güzəşti hesabına yox, döyüş meydanında bərpa etdik, şəhərlərimizi, kəndlərimizi azad etdik, qan tökdük, şəhidlər verdik. Bütün Azərbaycan xalqı 44 gün ərzində bir yumruq kimi birləşmişdi.

Mənfur düşmən düzgün hesablamalar aparmamışdır. Özlərini özlərinin uydurduqları miflərə o qədər inandırmışdılar ki, hesab edirdilər bizim torpaqlarımızı əbədi işğal altında saxlaya biləcəklər. Onların arxasında duran havadarları - böyük dövlətlər onlarda bu əminliyi daha da gücləndirmişdilər. Ancaq biz əmin idik, bilirdik ki, gün gələcək və biz öz doğma torpaqlarımıza qayıdacağıq.

Uzun illər mən prezident kimi çalışırdım ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun və mənim fəaliyyətim göz qabağındadır, onlarla, bəlkə də yüzlərlə görüşlər keçirilmişdir, danışıqlar aparılmışdır. Amma heç bir nəticə olmamışdır. Nə üçün?! Çünki Ermənistan, bir daha demək istəyirəm, bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdi. Onların arxasında duran, guya ki, vasitəçilik edən ölkələr isə bu işğalı əbədi etmək istəyirdilər.

44 günlük Vətən müharibəsi şanlı tariximizdir və Azərbaycan xalqı bundan sonra əbədi bu Zəfərlə fəxr edəcək. 44 gün ərzində biz hər gün irəli gedirdik. Ermənistan ordusundan fərqli olaraq bir nəfər də olsun hərbçimiz döyüş meydanını tərk etməmişdir. Onların özlərinin etiraflarına görə 12 minə yaxın fərarisi olmuşdur. Bizim əsgər və zabitlərimiz hər gün irəli gedirdilər və müharibənin birinci günündə əldə olunmuş qələbə - bir neçə kəndin azad edilməsi sonuncu günə qədər davam etdi və 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi düşmənin belini qırdı. Düşmən artıq anlamışdır ki, daha müqavimət göstərmək iqtidarında deyil və ondan sonra kapitulyasiya aktına imza atmışdır, faktiki olaraq təslim olmuşdur. Biz də o vaxt müharibəni dayandırdıq. Çünki müharibənin ilk günlərindən mən bəyan edirdim ki, düşmən bizə tarix versin, torpaqlarımızdan nə vaxt çıxacaq və o təqdirdə biz müharibəni dayandırmağa hazırıq.

O günlər ərzində dəfələrlə mənə müxtəlif paytaxtlardan zənglər gəlirdi, təkliflər irəli sürülürdü, bəziləri isə hədə-qorxu gəlməyə çalışırdı. Ancaq mən öz mövqeyimdə qəti idim və onu həm telefon təmasları əsnasında, eyni zamanda, Azərbaycan xalqına verdiyim bəyanatlarda da demişdim: tarix verilməlidir nə vaxt düşmən torpağımızdan rədd olur, onda biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. 2020-ci il noyabrın 10-da səhər saatlarında Ermənistan kapitulyasiya aktına imza atdı və müharibə dayandı.

Bildiyiniz kimi, müharibə zamanı bir çox xarici media nümayəndələrinə mənim müsahibələrim olub və təbii ki, suallar da müxtəlif olmuşdur. Ancaq müharibədəki planlarımızla bağlı mən təbii ki, heç bir şey deyə bilməzdim. Sadəcə olaraq, bir dəfə Şuşa haqqında mənə sual veriləndə dedim ki, Şuşasız bizim işimiz yarımçıq qalacaq və hesab edirəm hər kəs anladı ki, Şuşa azad olunmadan biz dayanmayacağıq. Şuşa bizim əyilməz ruhumuzun rəmzidir. Şuşa hər bir Azərbaycan vətəndaşının qəlbində elə bir böyük iz buraxıb ki, Şuşasız müharibənin uğurla başa çatması mümkün deyildi.

Antiterror əməliyyatı nəticəsində biz tarixi, əzəli torpaqlarımızı işğalçılardan azad etdik, bir daha dövlətimizin gücünü göstərdik, güclü siyasi iradəsini göstərdik. Heç kimlə hesablaşmadan, heç nəyə baxmadan, heç kimdən qorxmadan lazım olan əməliyyatı böyük peşəkarlıqla, məharətlə və fədakarlıqla keçirdik. Beləliklə, Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir.



Bu gün isə Şuşanın yeni tarixi başlayır. Mən 2020-ci il noyabrın 8-də xalqa müraciətimdə demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bax, bu gün biz dirçəldilən Şuşanı görürük. Təkcə bu gözəl binalar deyil, Şuşada çox genişmiqyaslı quruculuq işləri gedir. Bu gün Ulu Öndərin doğum günündə üçüncü yaşayış kompleksinin təməli qoyuldu. Keçən il mayın 10-da ikinci yaşayış kompleksinin təməli qoyulmuşdur. Bu birinci yaşayış kompleksində 450, ikincidə 300-ə yaxın, üçüncüdə isə 500-ə yaxın mənzil inşa ediləcək. Onun bir hissəsi artıq hazırdır. Bu gün siz bu mənzillərə köçəcəksiniz. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilmişdir. Şərait çox gözəldir və əminəm ki, uzun fasilədən sonra şuşalılar burada rahat yaşayacaqlar, yaradacaqlar, quracaqlar, öz doğma şəhərinin tarixi simasını qoruyacaqlar.

Şuşada quruculuq işləri, əslində, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra başlamışdır. İlk növbədə, Şuşaya yol çəkilməli idi. Çünki siz yaxşı bilirsiniz ki, işğala qədər olan dövrdə yol Xankəndi ərazisindən keçirdi. Ona görə Füzuli şəhərindən Şuşaya qısa müddət ərzində Zəfər yolu çəkildi. İndi isə daha geniş magistral avtomobil yolu çəkilir. Yeddi tuneli, doqquz viaduku, bir çox körpüləri olan dördzolaqlı gözəl bir yol çəkilir və yəqin ki, gələn ilin sonuna qədər o da hazır olacaq. Şuşanın tarixi abidələrinin bərpası dərhal başlanılmışdır. Birinci, Vaqifin məqbərəsi yenidən quruldu, onun əzəli görkəmi qaytarıldı. Ondan sonra Yuxarı Gövhər Ağa məscidi, daha sonra Saatlı məscidi bərpa olundu. Bu gün Mamayı məscidinin bərpadan sonra açılışını etdik. Çöl Qala məscidində artıq bərpa işləri başlanılıb. Mehmandarov məscidi və Mehmandarovun evi bərpa edilib. Artıq dörd mehmanxana fəaliyyət göstərir. Onların içində ən böyük beşulduzlu Şuşa mehmanxanası bu gün Şuşanın müasir görkəmini əks etdirir. Amma yenə o mehmanxana da ənənəvi Şuşa memarlığı üslubunda inşa edilmişdir. Bu gün, eyni zamanda, Şirinsu hamamı əsaslı təmirdən sonra açılmışdır. Aşağı Gövhər Ağa məscidində təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Üzeyir Hacıbəylinin vəhşi düşmən tərəfindən dağıdılmış abidəsi yenidən öz yerinə qoyuldu. Ermənilər tərəfindən dağıdılmış Vaqifin büstü yenə də əvvəlki görkəmdə, formada bərpa edildi, yenidən hazırlandı. Üzeyir Hacıbəylinin ermənilər tərəfindən dağıdılmış evi yenidən qurulur, bu il hazır olacaq. Bir neçə başqa önəmli hadisə baş vermişdir.

Şuşanın dirçəldilməsi geniş vüsət alıb. Hər şey çox müfəssəl və dəqiq, ən müasir şəhərsalma qaydalarına uyğun planlar əsasında qurulur. Bu bərpa-yenidənqurma işlərinə biz dünyanın aparıcı şirkətlərini cəlb eləmişik, təkcə Şuşa üçün yox, bütün azad edilmiş torpaqlar üçün ki, uzun illər ərzində ağır şəraitdə - çadırlarda, yataqxanalarda, uşaq bağçalarında, yararsız binalarda yaşamış insanlar bundan sonra yaxşı yaşasınlar, rahat yaşasınlar. Bununla paralel olaraq həm Şuşada, həm də artıq inşa edilmiş digər qəsəbə və şəhərlərdə məşğulluq məsələləri də həll olunur, treninqlər keçirilir, buraya qayıdacaq insanların işlə təmin olunması məsələlərinə də çox diqqətlə baxılır və bu işlər öz həllini tapır.

Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda, ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək. Bir daha demək istəyirəm, biz azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramları icra edirik. Bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır. Bu gün, eyni zamanda, Laçının Sus kəndinə də keçmiş köçkünlərin qayıdışı nəzərdə tutulur və ilin sonuna qədər ən azı 20 yaşayış məntəqəsində artıq həyat bərpa ediləcək.

Mayın 10-u hər birimiz üçün, təbii ki, mənim üçün əziz gündür - Ulu Öndərin doğum günüdür. Onun ən böyük arzusu bu reallıqları görmək idi, işğala son qoymaq idi və məhz onun fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq. Ona qədər hansı hadisələr baş verirdi, siz, yəni, yaşlı nəsil yaxşı xatırlayırsınız - hakimiyyətsizlik, özbaşınalıq, xaos, hakimiyyət uğrunda gedən mübarizə, hakimiyyətdə səriştəsiz, qorxaq, satqın, xain insanların yerləşdirilməsi. Bütün bunlar Şuşa kimi şəhərin, digər şəhər və kəndlərimizin işğal altına düşməsinin səbəbi olmuşdur. Təsadüfi insanlar hakimiyyətə gəldi. Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi. Şuşanı müdafiə etməyə söz verən, əks təqdirdə öz başına güllə çaxmağa söz verən o ünsür görəsən indi hansı hisslər yaşayır? Əminəm ki, bu günə sevinmir. Onun kimilər, o vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün tör-töküntüləri, onların böyük əksəriyyəti bizim Zəfərimizə sevinməyiblər, əksinə peşman olublar. Bizim Qələbəmizə bu günə qədər kölgə salmağa çalışırlar, ermənilərlə əlbir olub bizim Zəfərimizi aşağılamaq, ona kölgə salmağa çalışırlar. Məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü. Şuşanı müdafiə etmək üçün çox da böyük qüvvə lazım deyildi. Siz ki, bunu yaxşı bilirsiniz. Şuşa yiyəsiz qalmışdı və Şuşanın düşmənə təhvil verilməsi Xalq Cəbhəsinə hakimiyyətə gəlmək üçün yol açdı. İndi baxın, o tarixlərə, tarixi hadisələrə. Bir neçə gündən sonra onlar hakimiyyətə gəldilər, o hakimiyyəti yıxdılar, çevriliş etdilər. Xalqın haqlı etirazını, necə deyərlər, öz tərəflərinə çəkmək üçün Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər. Bununla da keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanla de-fakto coğrafi nöqteyi-nəzərindən birləşdi.

Azərbaycan xalqının böyüklüyü bir daha 1993-cü ildə özünü göstərdi. Xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət etdi. Çünki Azərbaycan xalqı bilirdi ki, o bəladan onu ancaq Heydər Əliyev qurtara bilər. O vaxt - 1994-cü ildə əldə edilmiş atəşkəs məcburi bir addım idi və biz heç vaxt o atəşkəslə barışa bilməzdik, nə mənim atam, nə də mən. Onun ömrü bu günü görməyə çatmadı. Biz - onun davamçıları, onun və Azərbaycan xalqının arzularını çin etdik və tarixi Zəfər əldə etdik. Düşmənə öz yerini göstərdik və bu gün düşmən bizim qarşımızda acizdir.

Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar. Bu gün Qazaxın 1990-cı və 1992-ci illərdə işğal edilmiş torpaqları bir güllə atılmadan bizə qaytarılır. Delimitasiya, demarkasiya bizim şərtlərimiz əsasında həyata keçirilir və bu, bizim növbəti zəfərimizdir.

Biz heç vaxt müharibə istəməmişik, bu gün də istəmirik. Bizə müharibə lazım deyil, bizə torpaqlarımız lazım idi. Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin. Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Burada, bu torpaqda söz sahibi bizik.

Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik. İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm.

Bugünkü bu bayram günü - mənim üçün və hamımız üçün ikiqat bayram günü bir daha onu göstərir ki, biz sülhsevər, biz qurub-yaradan xalqıq. Ermənilər Şuşanı viran qoyub, onu erməniləşdirməyə çalışıblar. Bu gün Aşağı Gövhər Ağa məscidinin təmiri ilə tanış olarkən orada içəridəki sütunların birində xaç gördüm. Yaxşı, məsciddə xaç ola bilər? Buna göz yumanlar, bu gün bizi hansısa cinayətlərdə, yaxud da ki, əməllərdə ittiham edənlər bunu görmürlərmi? Görmürlərmi ki, Ağdam məscidini tövləyə çevirmişdilər. Şuşanın 17 məscidindən 16-sını dağıdıb, birini isə başqa xalqa mənsub olan məscid kimi təqdim etməyə çalışırdılar. Biz buraya qayıdan kimi, dərhal guya orada aparılmış təmiri ləğv etdik, onu yenidən qurduq. Bütün şəhər və kəndlərimiz vandallar tərəfindən dağıdılıb.

*(ardı 5-ci səhifədə)*

# Şuşalıların 32 illik həsrətinə son qoyuldu

(əvvəli 4-cü səhifədə)



Bunu heç kim görmək istəmir. Amma hər kəs bunu görməlidir və görəcək. Çünki erməni vandallığını nə biz unudacağıq, nə də dünya unudacaq. Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb. Əgər ermənilər bunu özlərinə, necə deyərlər, doğma şəhər sayırdılarsa Şuşanı quraydılar, yaradaydılar, dağıtmayaydılar. Bir daş daş üstə qoyulmayıb. Biz gəlmişik burada əbədi yaşamağa və bundan sonra Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq.

Mən sizi bir daha ürəkdən təbrik edirəm. Sizə xoşbəxtlik, cansağlığı arzulayıram. Burada rahat yaşayın.

*

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

Dövlətimizin başçısı və birinci xanım mənzillərin açarlarını sakinlərə təqdim etdilər.

Sakinlər Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

**Babayeva Gülbəniz Cümşüd qızı:** Sağ olun. Çox sevincli andır. Çox sağ olun, təşəkkür edirəm. Ümummilli liderin ad günündə Sizin kimi canlı əfsanə bu açarı mənə təqdim etdi. Yəqin ki, şəhidimizin də ruhu şad olar. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Ruhu şad olsun. Sağ olun.

**Eyvazova Nəsibə Əli qızı**: Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Eyvazova Nəsibə Əli qızı**: Çox sağ olun. Oğlum 44 günlük Vətən müharibəsində iştirak edib.

**Prezident İlham Əliyev:** İştirak edib? Çox gözəl.

**Eyvazova Nəsibə Əli qızı**: Bəli, qazi anasıyam. Çox xoşbəxtəm ki, bu gün bu açarı mənə vermisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, gözəl övlad böyütmüsünüz dövlət üçün.

**Eyvazova Nəsibə Əli qızı**: Çox sağ olun, Sizə təşəkkür edirəm.

**Salahov Eldar Məmməd oğlu**: Çox sağ olun. Allah Sizə uzun ömür versin. Allah Sizə cansağlığı versin. Sizdən yerdən-göyə qədər razıyıq.

**Prezident İlham Əliyev:** Sizə də cansağlığı. Sağ olun.

**Əliyev Elşən Allahverdi oğlu**: Çox şadam. Dörd ildir bu günü gözləyirdim ki, bir şəhid övladı olaraq əlinizi sıxıb Sizə təşəkkürümü bildirim. Bu günləri bizə yaşatdığınıza görə Sizə dərin təşəkkürümü bildirirəm, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm.

**Əliyev Elşən Allahverdi oğlu**: Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Məhərrəmov Pərviz Zalan oğlu:** Çox sağ olun.

**Ağayev Rəhman Kamran oğlu:** Fəxr edirəm ki, Siz bizim Prezidentimizsiniz.

**Məhərrəmova Nazimə Mütəllim qızı:** Cənab Prezident, bu gün tariximizə qızıl hərflərlə yazılan gündür. Sağ olun, Allah-taaladan Sizə cansağlığı, uzun ömür arzu edirəm.

**Prezident İlham Əliyev:** Sizə də cansağlığı, uzun ömür. Çox sağ olun.

**Məhərrəmova Nazimə Mütəllim qızı:** Sağ olun, qadan alım. Sağ olun. Nə yaxşı ki, varsınız.

**Rəhimova Lətafət İsa qızı**: Cənab Prezident, təşəkkür edirəm Sizə. Çox sağ olun, bu günü bizə yaşatdınız. Məcburi köçkünlük tamam qurtardı.

**Prezident İlham Əliyev:** Qurtardı, bəli. Çox gözəl.

**Rəhimova Lətafət İsa qızı:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sizi təbrik edirəm.

**Ağayeva Təranə Əlövsət qızı:** Çox sağ olun. Mən də fəxr edirəm ki, oğlum 44 günlük müharibədə iştirak edib.

**Prezident İlham Əliyev:** Sağ olun, gözəl övlad yetişdirmisiniz.

**Gözəlova Səbinə Mikayıl qızı:** Təşəkkür edirəm, minnətdaram. Bu gün atamın ruhu şaddır.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Gözəlova Səbinə Mikayıl qızı:** Bütün şəhidlərimizin ruhu şaddır. Biz Sizinlə fəxr edirik, qürur duyuruq. Təşəkkür edirəm, çox sağ olun.

**Məmmədov Elvin Habil oğlu:** Müzəffər Ali Baş Komandan, ehtiyatda olan əsgər Məmmədov.

**Prezident İlham Əliyev:** Xidmətlərə görə də təşəkkür edirəm. Haralarda döyüşmüsən?

**Məmmədov Elvin Habil oğlu:** Çox sağ olun, cənab Prezident. Şuşada, Qubadlıda, Füzulidə, Vətən Müharibəsi Qəhrəmanıyam.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mehriban xanım Əliyeva:** Təbrik edirəm.

**Kərimli Kərim Sevindik oğlu:** Çox sağ olun, Mehriban xanım, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Məmmədov Elman Müseyib oğlu:** Çox sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Məhərrəmov Vüqar Ramiq oğlu:** Sağ olun, Allah Sizi var eləsin. Təşəkkür edirəm.

**Xanhüseynov Əlövsət Famil oğlu:** Xoş gördük, cənab Prezident, biz Sizinlə fəxr edirik. Var olasınız, çox sağ olun.

**Bayramov Rövşən Mehrab oğlu:** Çox sağ olun.

**Məhərrəmzadə Bəxtiyar Elgiz oğlu:** Cənab Prezident, Müzəffər Ali Baş Komandan, Vətən müharibəsi iştirakçısı olaraq daim Sizin əmrinizə hazırıq. Bugünkü hədiyyənizə görə Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Salmanov Orxan İlham oğlu:** Sağ olun, cənab Prezident. Bu şərəfli günü bizə bəxş etdiyiniz üçün bütün ailəmiz adından, bütün şuşalılar adından Sizə minnətdarıq. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox sağ ol, təbrik edirəm sizi.

**Mehriban xanım Əliyeva:** Təbrik edirəm.

**Məmmədov Cəmaləddin İntiqam oğlu:** Sizə minnətdarlığımı bildirirəm, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ ol. Çox sağ ol.

**Mehriban xanım Əliyeva:** Çox sağ ol.

**Hüseynov Rauf Tahir oğlu:** Xoş gördük, cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam.

**Hüseynov Rauf Tahir oğlu:** Minnətdaram, çox sağ olun. Yaxşı olasınız. Bir gənc ailə olaraq bu gün bizə bu açarı təqdim etdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Bir xatirə şəkli çəkdirək, bu, mənim ocağımda, evimdə ən dəyərli bir hədiyyə olacaq.

**Prezident İlham Əliyev:** Sağ ol.

**Hüseynov Rauf Tahir oğlu:** Sağ olun. Minnətdaram. Çox sağ olun.

**Mehriban xanım Əliyeva:** Sağ olun, təbrik edirəm.

*

**Kərim Kərimli:** Cənab Prezident, icazənizlə, mən də bir neçə kəlmə ürək sözümü demək istəyirəm.

**Prezident İlham Əliyev**: Buyurun.

**Kərim Kərimli:** Möhtərəm cənab Prezident, əziz Mehriban xanım, bu gün bizim həyatımızda ən əziz, ən xoşbəxt gündür. Bizim bugünkü xoşbəxtliyimizi yalnız və yalnız 2020-ci il noyabrın 8-də cənab Prezidentin “Əziz Şuşa, sən azadsan” bəyanatından sonrakı xoşbəxtliyimizlə müqayisə etmək olar. Bundan başqa heç bir misli-bərabəri, tayı-bərabəri olan xoşbəxtlik yoxdur.

Möhtərəm Prezident, 32 ildən sonra doğma şəhərə qayıtmaq barədə Siz öz ürək sözlərinizi söyləyərkən dediniz, bundan böyük səadət, bundan böyük xoşbəxtlik ola bilərmi?! Mən öz adımdan, burada iştirak edən ailəm adından, bu gün açarlarını təqdim etdiyiniz iştirakçılar adından, bizim camaat adından Sizə ürəkdən gələn təşəkkürümü bildirirəm.

Dünyada Üzeyir bəyin musiqisindən gözəl musiqi yoxdur. Sizin Şuşa uğrunda, Qarabağ uğrunda, Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığınız mübarizəni yalnız Üzeyir bəyin musiqisi ilə müqayisə etmək olar: gözəl, təntənəli, möhtəşəm və əbədi! Bütün bunlara görə çox sağ olun.

Mən bu tədbirdə Vətən uğrunda canından keçmiş əziz şəhidlərimizin xatirəsini yad etmək istəyirəm. Bütün şəhid ailələri qarşısında baş əydiyimizi bildirmək istəyirəm və mən bildirmək istəyirəm ki, əgər onların misilsiz şücaəti, dünya tarixində tayı-bərabəri olmayan qəhrəmanlığı olmasaydı, - təbii ki, Sizin rəhbərliyiniz altında, - bu gün biz burada bu təntənəli məclisdə iştirak edə bilməzdik. Bütün qazilərimizi -müharibədə Vətən uğrunda yaralanmış bütün qardaş və bacılarımızı burada hörmətlə yad etmək istəyirəm.

Nəhayət öz adımdan onu demək istəyirəm ki, bundan sonra biz öz şəhərimizdə belə gözəl, - bilirsiniz, bunu da təsvir etmək çox çətindir bu dəqiqə, - mənzillərdə yaşayaraq, Siz dediyiniz kimi, Şuşanın dirçəldilməsi, gözəlləşməsi, inkişaf etməsi və Sizin Sərəncamınızla artıq ölkəmizin mədəniyyət paytaxtı olan bir şəhərin bütün dünyanın mədəniyyət mərkəzinə çevrilməsi uğrunda mübarizəmizi aparacağıq. Çox sağ olun, minnətdaram, təşəkkür edirəm.

**Səbinə Gözəlova**: Möhtərəm cənab Prezident və hörmətli Mehriban xanım, bir daha Sizi doğma Şuşamızda salamlayır və xoş gəlmisiniz deyirik. Bu gün şuşalılar ikiqat sevinc yaşamaqdadır, torpaqlarımız işğaldan azad olunub və Qarabağımızın zümrüd tacı olan Şuşamıza qayıdış başlamışdır. Belə bir xoşbəxt günü bizə yaşatdığınız üçün Sizə borcluyuq. Şəhidlərimizə, qazilərimizə, əsgərlərimizə borcluyuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin, Sizi və igid əsgərlərimizi qorusun.

Vətən sərhəddən, vətənpərvərlik isə məktəbdən başlayır. Əsl vətəndaşlıq, torpağa bağlılıq, vətənpərvərlik kimi xüsusiyyətlər məktəbdə daha da inkişaf edir. Müasir tələblərə cavab verən ən gözəl şəkildə inşa edilmiş Şuşa şəhər 1 nömrəli tam orta məktəbi gələcək nəsillərimiz üçün ən böyük töhfədir. Şuşa şəhər 1 nömrəli tam orta məktəbin rəhbəri kimi Sizi əmin edirəm ki, məktəbimizdə istedadlı, vətənpərvər, milli-mənəvi dəyərlərə sadiq vətəndaşlar yetişdiriləcək. Məktəbimizin pedaqoji kollektivi bu amal uğrunda var gücü ilə çalışacaq.

Bütün dünya Azərbaycan Respublikasının daxili və xarici siyasətinə heyrandır. Bu gün dünyanın ən aparıcı dövlətləri Azərbaycan Respublikası ilə diplomatik müqavilələr bağlayır. Bütün bunlar Sizin məqsədyönlü siyasətinizin nəticəsidir. Allah Ulu öndərimiz Heydər Əliyevə rəhmət eləsin! Ulu öndərimiz Heydər Əliyev demişdi: “Vaxt gələcək Azərbaycan Günəş kimi nur saçacaq”. Bəli, bu şüar artıq bir reallıqdır. Çiçəklənən Azərbaycanımız dünyaya nur saçır, sülh və əmin-amanlıq uğrunda mübarizə aparır. Əlbəttə, bu, xalqımızın birliyi və Sizin əməyinizin sayəsindədir. Xalqımız dövlətimizə, dövlətimiz isə xalqımıza dayaqdır. İnanırıq ki, bizim bu günümüz, sabahımız, xoşbəxt gələcəyimiz əmin və etibarlı əllərdədir.

Hörmətli Mehriban xanım, Siz mərhəmət, vətənpərvər, milli-mənəvi dəyərlərə sadiq bir insan kimi ən ali xüsusiyyətlərə malik bir xanımsınız. Siz ən əziz, doğma günlərinizdə, şəhid ailələri, qazi ailələri, məcburi köçkün ailələrini ziyarət edib, onlara diqqət və qayğı göstərmisiniz. Həmçinin milli-mənəvi irsimizi qorumaqla yanaşı, təhsilimizə böyük töhfələr vermisiniz. Bu günlərdə Heydər Əliyev Fondunun yaranmasının 20-ci ildönümü qeyd olundu. Bu münasibətlə Sizi ürəkdən təbrik edirik. Heydər Əliyev Fondu yarandığı gündən xalqımıza xidmət edib və zəngin mənəvi irsimizi inkişaf etdirib. Sizin rəhbərliyinizlə görülən bütün xeyirxah, gözəl işlərə görə Sizə təşəkkür edirik və bu müqəddəs missiyanızda Sizə uğurlar arzu edirik.

Möhtərəm cənab Prezident və hörmətli Mehriban xanım, Allah Sizi, dövlətimizi, millətimizi və igid əsgərlərimizi qorusun. Çox təşəkkür edirik. Sağ olun.

**Rəssam Rövşən Bayramov**: Möhtərəm cənab Prezident, bu tədbirə, bugünkü xoşbəxtliyi bizə yaşatdığınıza görə Sizə çox minnətdaram. Otuz iki ildir ki, mən Bakıda oturub Şuşanı xəyalən öz rəsmlərimdə əks etdirirdim. Bayaq yolda gələndə maşından baxıram, deyirəm, 32 ildən sonra mən həmin mənzərəni, həmin Şuşanı gözümlə görəcəyəm. Düzdür, Bakıda işlədiyim dövrdə xarici ölkələrdə də sərgilər təşkil etmişəm. Ancaq mənim mövzum Şuşa olubdur. İndiyədək demək olar ki, Bakıda bu illər ərzində 150 rəsm əsəri çəkmişəm. Hamısını Şuşa Dövlət Rəsm Qalereyasına hədiyyə etmişəm. Sağlıq olsun, Şuşada rəsm qalereyasını açdıqda, həmin əsərləri orada nümayiş etdirəcəyik. Bu tədbirə görə Sizə bir daha təşəkkür edirəm. Sağ olun.

**Prezident İlham Əliyev**: Sizi bir daha təbrik edirəm. Sağ olun.

*

Sonda xatirə şəkilləri çəkdirildi.

## Prezident İlham Əliyev Xankəndi–Şuşa–Laçın avtomobil yolunda görülən işlərlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi-Şuşa-Laçın avtomobil yolunda görülən işlərlə tanış olub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Xankəndi-Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması layihəsi üzrə tikinti işləri davam etdirilir. Avtomobil yolunun ümumi uzunluğu 34 kilometrdir. İkinci texniki dərəcəli yolda torpaq yatağının eni 15 metr, hərəkət zolağının hər birinin eni isə 3,75 metrdir.

Yol üzərində 2 körpü, 4 tunel və suötürücü borular inşa olunacaq. Uzunluğu 440 və 1100 metr olan birinci və üçüncü tunellərin giriş və çıxış portallarında qazma işləri yerinə yetirilib. Digər iki tuneldə - 540 və 300 metr uzunluqlarındakı ikinci və dördüncü tunellərdə isə işlərə yaxın vaxtda başlanılacaq.

## Şuşa rayonunun Turşsu qəsəbəsinin təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoyub.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və “Bakı Abadlıq Xidməti” MMC-nin baş direktoru Bünyad Qasımov dövlətimizin başçısına qəsəbədə görüləcək işlər barədə məlumat verdilər.

Bildirildi ki, işğaldan əvvəl Şuşa rayonunda Şuşa şəhərindən sonra Turşsu qəsəbəsi azərbaycanlıların ən sıx yaşadıqları ikinci yaşayış məntəqəsi olub. Şuşa şəhərindən təxminən 17 kilometr məsafədə, Şuşa–Laçın yolunun kənarında yerləşən qəsəbə 1992-ci il mayın 15-də işğal edilib. 1989-cu ildə aparılmış siyahıyaalmaya əsasən qəsəbədə 755 nəfər yaşayıb. Qəsəbədə fərdi evlər, tibb məntəqəsi, xəstəxana, mədəniyyət evi, kitabxana, məktəb, televiziya ötürücü qurğusu, elektrik yarımstansiyası, uşaq bağçası, musiqi məktəbi, klub və s. binaları olub. İşğal nəticəsində bütün infrastruktur tam dağıdılıb. Hazırda Turşsu qəsəbəsində 353 ailə, 1403 nəfər qeydiyyatdadır.

Yenidənqurma layihəsinə əsasən Turşu qəsəbəsinin ümumi sahəsi 126,46 hektar olacaq. Birinci mərhələdə 79,37 hektar sahədə yenidənqurma işləri aparılacaq.

Sonra Prezident İlham Əliyev Turşsu qəsəbəsinin təməlini qoydu.

# Laçın rayonunun Sus kəndinə köçmüş sakinlərlə görüş





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb.**

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verdilər.

Bildirildi ki, 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən rayon işğal olunan vaxt Sus kəndində 53 ailə - 203 nəfər yaşayırdı. Tamamilə yenidən tikilərək istifadəyə verilən kəndə ümumilikdə 59 ailə - 214 nəfərin köçürülməsi nəzərdə tutulur. Hazırda kəndə 20 ailənin (75 nəfər) köçürülməsi təmin olunub.

Diqqətə çatdırıldı ki, 25 hektar ərazini əhatə edən kənddə 13 ikiotaqlı, 28 üçotaqlı, 14 dördotaqlı və 4 beşotaqlı fərdi ev tikilib. Kənddə 132 yerlik orta məktəb, 50 yerlik uşaq bağçası da inşa olunub. Sakinlərin asudə vaxtlarının səmərəli təşkili üçün istirahət parkı və müxtəlif uşaq meydançaları yaradılıb.

Sonra Prezident İlham Əliyev kəndə köçmüş sakinlərlə görüşdü.

**Prezident İlham Əliyev**: Salam-əleyküm.

**Sakinlər**: Salam cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev**: Siz də xoş gəlmisiniz. Necəsiniz, nə var, nə yox? Qayıtmısınız doğma vətənə. Təbrik edirəm sizi.

**Sakinlər**: Sayənizdə. Çox sağ olun, təşəkkür edirik, Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev**: Şərait necədir? Xoşunuza gəlir?

**Sakinlər**: Möhtəşəmdir, çox yüksək səviyyədə. Allah Sizdən razı olsun. Allah Sizi qorusun. Həm kəndimizdə, həm də Laçında görülən işlərin miqyası o qədər böyükdür, hamısını sadalamaq olmur.

**Prezident İlham Əliyev**: Gördünüz Laçın şəhəri necə də gözəldir.

**Sakinlər**: Bəli, görürük, izləyirik, baxırıq.

**Prezident İlham Əliyev**: Təbrik edirəm, sağ olun.

**Sakinlər**: Çox sağ olun. Təşəkkür edirik.

**Prezident İlham Əliyev**: Siz də xoş gəlmisiniz.

**Sakin**: Gələn ayaqlarınız var olsun. Sənə qurban olum. Allah atana rəhmət eləsin. Bəli, 32 il ayrılıqdan sonra bizi vətənimizə qovuşdurdun.

**Prezident İlham Əliyev**: Sağ olun, çox sağ olun.

**Sakin**: Sağ ol, dünya durduqca durasan. Allah Sizi, xalqımızı qorusun. Qara buludu üstümüzdən götürdün. Bu xalq rahat yaşasın. Qurban olum sənə, əziyyət çəkmisən, bu xalqın, bu millətin əziyyətini çəkmisən.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin**: Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham Əliyev**: Allah şəhidlərə rəhmət eləsin.

**Sakin**: Allah qazilərimizə şəfa versin. Allah Səni Azərbaycan xalqının üstündən əskik eləməsin. Sən, bizi 32 illik həsrətdən qurtardın.

**Sakin**: Cənab Prezident, Siz 24 saatın heç 4 saatını yatmırsınız. Bura mənim öz torpağımdır. Cənab Prezident, Siz hər dəfə çıxış edəndə kövrəlirəm. Siz dünyada yeganə dövlət başçısısınız ki, müsahibələrdə, iclaslarda üzündən oxumadan çıxış edirsiniz, dünyanı heyran qoyursunuz. Hər prezident bunu bacarmır.

**Prezident İlham Əliyev**: Mən demişdim ki, sizi qaytaracağam, qaytardım.

**Sakin**: Qaytardın, sənə qurban olum. Sağ ol, xalqımın adından, buraya təzə gələn 20 ailənin adından Sizə təşəkkür edirəm. Çox sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin**: Şəhidlərimizə Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev**: Allah rəhmət eləsin.

**Sakin**: Şəhid analarının qarşısında baş əyirəm. Qazilərimiz buradadır, biz onların hesabına Qələbə çalmışıq.

**Sakin**: Biz Prezidentimizin, Ali Baş Komandanımızın hesabına qələbə çalmışıq. Ulu öndərimizə Allah rəhmət eləsin.

**Sakin**: Bizim arxamızda cənab Prezident var idi.

**Prezident İlham Əliyev**: Allah ölənlərinizə rəhmət eləsin.

**Sakin**: Çıxışlarınızda deyirsiniz, ata vəsiyyətini yerinə yetirdim. Sənə qurban olum, gözəl sözdür.

**Sakin**: Cənab Prezident olmasaydı, biz o Qələbəni qazana bilməzdik.

**Prezident İlham Əliyev**: Salam, qızım, salam.

**Sakin**: Mən Sizə uzun ömür, cansağlığı arzulayıram. Mən birincisi şəhidlərə Allahdan rəhmət diləyirəm, şəhid analarının əllərindən öpürəm. Qazilərimizə Allah cansağlığı versin. Bu çöllərdə istidə, yağışda, qarda xidmət edən əsgər balalarımıza Allah ömür versin, qəfil dərddən, bəladan qorusun. Bu günümüzə şükür. Şükür ki, bu sevinci, bu gözəl günü Siz bizə yaşatdınız, mümkün olmayanı mümkün etdiniz. Şükür bu günümüzə.

**Prezident İlham Əliyev**: Bundan sonra burada, öz doğma dədə-baba torpağınızda rahat yaşamalısınız, xoşbəxt yaşamalısınız.

**Sakin**: Allah ölənlərimizə də rəhmət eləsin, atalarımıza, analarımıza, cavanlarımıza. Ruhları şad olsun. Bu günə şükür.

**Prezident İlham Əliyev**: Xalqımızın tarixi həm şərəflidir, həm kədərlidir. Ancaq bizim tariximizdə keçmiş köçkünlər qədər əziyyət çəkən insanlar olmayıb. Həm mənəvi əzab, həm fiziki əziyyət, həm torpaqların itirilməsi, öz yaxınlarının məzarlarını ziyarət edə bilməməyiniz - bu dərdin misli-bərabəri yoxdur. Otuz il ərzində bizə deyirdilər ki, gözləyin, tələsməyin, müharibə aparmayın, bu münaqişənin hərbi həlli yoxdur. Ona görə belə deyirdilər ki, ermənilər burada əbədi yaşasın və biz bu torpaqları görməyək. Bizi razı salmaq istəyirdilər, inandırmağa çalışırdılar ki, məsələ müharibə yolu ilə həll olunmaz. Əsas məqsəd o idi ki, heç vaxt Azərbaycana imkan verməsinlər öz ərazi bütövlüyünü bərpa etsin. Ancaq bi nə etdik? Bax, bunun kimi minlərlə aslanın hesabına gəldik buraya və bu gün burada durmuşuq.

**Hərbçi sakin**: Bizim cənab polkovnikimiz bu müharibədə çox əziyyət çəkdi.

**Sakinlər**: Allah dəyməsin, Allah qorusun.

**Prezident İlham Əliyev**: Bundan sonra da müharibə olmamalıdır. Biz öz müharibəmizi bitirmişik. O, ədalətli müharibə idi, azadlıq müharibəsi idi. Həm 44 gün, həm 1 gün. Onunla da məsələ bitdi. Əgər Ermənistanda kimsə yenidən baş qaldırsa, dəmir yumruğu görəcək.

**Sakin**: Sağ ol, qadan alaram, sağ ol. Sənə qurban olaram. Cənab Prezident, Allah Sizi qorusun. Çox sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Özü də bilirsiniz ki, bu işğal dövründə bəzi torpaqları guya, bizə qaytaracaqdılar. Amma Laçından, ümumiyyətlə, söhbət aparmırdılar.

**Sakin**: Mümkün deyildi. Bir dənə güllə atılmadan Laçını aldın. Sənə qurban olum, Sənin başına dönüm.

**Sakin**: Laçın, Kəlbəcər, Ağdam bir güllə atılmadan alındı.

**Prezident İlham Əliyev**: Çünki biz haqq yolundayıq, ona görə Allah da həmişə bizə yardımçı olur.

**Sakin**: Bəli, haqq yolundayıq. Allah Sizin kölgənizi bu xalqın üzərindən əskik etməsin. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev**: Sağ olun, təbrik edirəm sizi. Siz də xoş gəlmisiniz.

**Sakin**: Çox sağ olun, cənab Prezident, bu günü bizə yaşatdınız. 31 ildən sonra mən yaşda insanı vətəninə qaytardığınıza görə, Sizə çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Sağ olun, çox sağ olun.

**Sakin**: Allah qazilərimizə cansağlığı versin, Allah şəhidlərimizə qəni-qəni rəhmət eləsin. Onların analarının qarşısında baş əyirəm, var olun, sağ olun.

**Prezident İlham Əliyev**: Sağ olun. Amin.

**Sakin**: Siz yeganə prezidentsiniz ki, torpaqlarımızı bizə qaytarmısınız, təkcə Laçını yox. Çox sağ olun. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin**: Çox sağ olun, Allah Sizdən çox-çox razı olsun. Dövlətimizin üstündən əskik olmayın. Allah o dəmir yumruğu var eləsin.

**Prezident İlham Əliyev**: Sağ olun, 13 il əvvəl Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində laçınlılarla öz doğum günümdə görüşmüşəm. Onlara söz vermişdim ki, biz hamımız qayıdacağıq və o gün də gəldi.

**Sakin**: Bəli, Siz Allahın, ordumuzun köməyi ilə bunu etdiniz.

**Prezident İlham Əliyev**: İndi Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. İndi Zabuxda, Susda, Güləbirddə iş gedir. O biri kəndlərdə də iş gedir. Hava limanı inşa edilir, gələn il hazır olacaq.

**Sakin**: İnşallah.

**Prezident İlham Əliyev**: Şuşa–Laçın yolu da qısalacaq.

**Sakin**: İnşallah, gör hara ilə Siz yol çəkirsiniz, dağları yarırsınız, aeroporta yol çəkirsiniz.

**Sakin**: Mən neçə illərdir arzulamışam ki, bu yaşımda gedim ad günümü Laçında, Sus kəndimdə keçirim. İyulun 1-i mənim ad günümdür.

**Prezident İlham Əliyev**: Təbrik edirəm.

**Sakin**: Çox sağ olun, Allah Sizdən razı olsun.

**Sakin**: Cənab Prezident, bu görüşümüz, həqiqətən də, çox gözəl günə təsadüf edir. Bu gün bizim möhtərəm Ulu öndərimizin 101 illiyidir. Mən özüm 271 saylı məktəbdə işləyirəm. Ulu öndərimiz bizim məktəbimizə gəlmişdi. Mən o məktəbdən gəlmişəm buraya. Arzu edirəm ki, Sus sakini olaraq sentyabrın 15-dən mən də bu məktəbdə işləyim.

**Prezident İlham Əliyev**: Bəli, əlbəttə.

**Sakin**: Gənclərimiz də burada qalsınlar. Öz yurdumuzda qurub-yaradaq. Sus sakinləri adından Sizə çox təşəkkür edirik.

**Prezident İlham Əliyev**: Sus kəndində, Zabuxda məktəblər var. Laçın şəhərində 2 nömrəli məktəb tikilib, 1 nömrəli məktəb də inşa ediləcək.

**Sakin**: Çox sağ olun, Allah Sizdən razı olsun. Sizi verən Allaha şükür. Allah Sizi əskik eləməsin.

**Prezident İlham Əliyev**: Sağ olun. Sizə cansağlığı arzu edirəm, burada xoşbəxt yaşayın.

**Sakin**: Eşq olsun Ali Baş Komandanımıza!

**Sakin**: Allah razı olsun, ailəmin adından və öz adımdan Sizə təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin**: Allah kölgənizi əskik etməsin bu xalqın üstündən, cənab Prezident.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Sakin**: Cənab Ali Baş Komandan, Allah Sizi qorusun.

**Prezident İlham Əliyev**: Çox sağ olun, salamat qalın. Xoşbəxt yaşayın burada.

*

Sonra Prezident İlham Əliyev və sakinlər Həkəri çayının sahilinə gəldilər.

*

**Sakin**: Bizdən ötrü gecə-gündüz yatmırsınız. 24 saatın 4 saatını yatırsınız deməşəm.

**Prezident İlham Əliyev**: Sağ olun. Bundan sonra doğma Laçın torpağında xoşbəxt yaşayın.

**Sakinlər**: Təşəkkür edirik, bu şəraiti yaratdığınız üçün. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev**: Təbrik edirəm. Xoşbəxt yaşayın. Siz buna layiqsiniz.

**Sakin**: Çox sağ olun. Həm də Sizi öz kəndimizdə görmək böyük bir xoşbəxtlikdir.

**Prezident İlham Əliyev**: Çox sağ olun.

**Sakin**: Sənin qadan alım, dünya durduqca dur. Allah atana rəhmət eləsin, torpağı sanı Allah sənə ömür versin.

**Prezident İlham Əliyev**: Sağ olun.

*

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Laçında kiçik su elektrik stansiyalarının açılışlarında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda "AzərEnerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyalarının açılışlarında iştirak edib.**




"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Qarabağ və Şərqi Zəngəzur regionunda həyata keçirilən yaşıl hidroenerji layihələri və perspektiv hədəflər haqqında məlumat verilərkən bildirildi ki, dövlətimizin başçısı tərəfindən irəli sürülən Yaşıl Enerji Zonasının yaradılmasına dair strateji baxış və 2030-cu ilə qədər ölkəmizin sosial-iqtisadi inkişafına dair beş Milli Prioritetdən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi təsbit edilməsi, həmçinin Azərbaycan Prezidentinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hidroenerji potensialının yenidən tədqiqi barədə "AzərEnerji" ASC-yə verdiyi tapşırığın icrası məqsədilə işğal dövründə dağıdılmış su elektrik stansiyalarından əlavə, ekoloji normalar daxilində yeni su elektrik stansiyalarının tikintisi barədə hesabat hazırlanaraq təqdim edilib. Hesabata əsasən bölgədə ümumi gücü 467 MVt olan 72 kiçik su elektrik stansiyası olacaq.

Diqqətə çatdırıldı ki, dövlətimizin başçısının regionun dayanıqlı elektrik təchizatı infrastrukturunun yaradılması və hidroenerji ehtiyatlarından səmərəli istifadə istiqamətində tapşırıqlarına uyğun olaraq, regionun sərt, keçilməz iqlim və relyef şəraitinə rəğmən üç ildən az bir müddətdə ümumi gücü 226 MVt olan 28 su elektrik stansiyası yenidən qurulub və ya yeni tikilib. Ümumi gücü 44 MVt olan 4 su elektrik stansiyasında isə avadanlıqların quraşdırılması və sazlama işləri icra edilir. Nəticədə, bütün region üzrə dayanıqlı elektrik təchizatı sxemi yaradılıb və COP29 tədbirinin keçiriləcəyi, "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmiş 2024-cü ilin birinci yarısında ümumi gücü 270 MVt olan 32 su elektrik stansiyası istismara veriləcək. Bu stansiyalarda il ərzində 600 milyon kilovat-saatdan çox yaşıl enerji istehsal ediləcək. Bu da 160 milyon kubmetrdən artıq təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon qazının ($CO_2$) həcminin isə 330 min tondan çox azalması deməkdir. Bundan əlavə, ümumi gücü 37,5 MVt olan 6 kiçik su elektrik stansiyası layihəsinin icrası ilə bağlı tender prosedurlarının keçirilməsinə başlanılıb. Bu layihələr üzrə stansiyaların 2025-ci ilin birinci yarısında istismara verilməsi gözlənilir.

Bildirildi ki, ölkənin enerjisistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionlarının elektrik enerjisi tələbatı 100 faiz yaşıl enerji hesabına təmin edilir və tələbatdan artıq qalan həcm ölkə enerjisistemə ötürülür. Perspektiv layihələr də nəzərə alınsa, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilmiş və icrası gözlənilən yaşıl enerji layihələri ümumilikdə 1100 MVt təşkil edir ki, bu da regionun mövcud enerji tələbatından 12-15 dəfə çoxdur. Regionun 2040-cı il üçün ümumi güc tələbatı 1000 MVt proqnozlaşdırılır ki, bu da icra olunacaq yaşıl enerji layihələrinin həcmi nəzərə alınmaqla 20 il sonra bölgənin tam olaraq yaşıl enerji ilə təmin ediləcəyi deməkdir.

Sonra dövlətimizin başçısına "Zabux" və "Qarıqışlaq" Kiçik Su Elektrik stansiyalarında (KSES) görülən işlər barədə məlumat verildi.

Qeyd edildi ki, "Zabux" KSES 2,8 MVt, "Qarıqışlaq" KSES isə 4 MVt gücündədir. "Zabux" KSES-də il ərzində 8-9 milyon, "Qarıqışlaq" KSES-də il ərzində 11-12 milyon kilovat-saat yaşıl enerji istehsal ediləcək.

Stansiyaların enerjisistemə inteqrasiyası üçün yeni yarımstansiyalar tikilib, 35 kV-luq yeni elektrik verilişi xətti çəkilib. Yeni optik kabel xətti çəkilməklə stansiyalar ölkə enerjisisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya edilib. Nəticədə rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan nəzarətin əlçatanlığı təmin edilib. Zabux çayının tam olaraq Azərbaycan ərazisində formalaşan, bolsulu və itiaxan dağ çayı olduğunu nəzərə alsaq, azsulu mövsümlərdə də bu stansiyanın məhsuldar istismarı mümkün olacaq.

Prezident İlham Əliyev stansiyaları işə saldı.

**AZƏRTAC**



# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Heydər Əliyevin xatirəsini anıblar





**Mayın 10-u müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümüdür.**

Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, Ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ümummilli liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

# FHN-də xilaskar liderin xatirə mərasimi



**Mayın 10-da Fövqəladə Hallar Nazirliyində (FHN) müasir, müstəqil Azərbaycanın qurucusu, xalqımızın xilaskar oğlu, bütün dövrlərin ən böyük azərbaycanlısı Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunan tədbir keçirilib.**

Əvvəlcə, fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə nazirliyin kollektivi Fəxri xiyabana gələrək Ulu öndərin əziz xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyub.

FHN-in inzibati binasında keçirilən tədbirdə çıxış edən fövqəladə hallar naziri Ümummilli lider Heydər Əliyevin mənalı həyat yolundan, xalqımız qarşısındakı tarixi xidmətlərindən ətraflı danışıb.

Nazir qeyd edib ki, böyük şəxsiyyət və əvəzedilməz insan Heydər Əliyevin anadan olmasının 101 illiyi ilə bağlı istər respublikamızda, istərsə də ölkəmizdən kənarda keçirilən möhtəşəm silsilə tədbirlər bütün dünya azərbaycanlılarının dahi rəhbərinə necə dərin və sonsuz məhəbbət hissi bəslədiyini parlaq şəkildə təcəssüm etdirir.

Xalqımız xoşbəxtdir ki, Azərbaycanın hərtərəfli, müstəqil və davamlı inkişafı məqsədini daşıyan Heydər Əliyev siyasi kursu hazırda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən böyük uğurla davam və inkişaf etdirilir.

Sonra çıxış edən Milli Məclisin deputatı Siyavuş Novruzov Ümummilli liderin Azərbaycan tarixindəki misilsiz rolundan danışıb.

Kəmaləddin Heydərov əminliklə söyləyib ki, nazirliyin kollektivi Ümummilli lider Heydər Əliyevin ideyalarına, dövlətçilik xəttinə sadiq qalaraq bundan sonra da bütün qüvvə və bacarığını müstəqil respublikamızın yüksəlişi, tərəqqisi naminə səfərbər edəcək.

# Prokurorluq əməkdaşları Ulu öndərin məzarını ziyarət ediblər



**Xalqımızın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101 illiyi ilə əlaqədar Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət edərək dünya şöhrətli siyasətçinin əziz xatirəsini dərin ehtiramla yad edib.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, həmçinin tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub, məzarları üzərinə gül dəstələri qoyulub.

# DTX-da Ümummilli lider ehtiramla yad edilib



**Müasir müstəqil Azərbaycanın qurucusu, çağdaş dövlətçiliyimizin banisi, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət edərək önünə əklil və gül dəstələri qoymuş, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri düzülüb.**

Ulu öndərin siyasi varisi Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xüsusi xidmət orqanlarının hazırda öz fəaliyyətini uğurla həyata keçirdiyini diqqətə çatdırmışdır.



Xidmətin şəxsi DTX-nin akt zalında təşkil olunmuş tədbirdə geniş nitqlə çıxış edərək dahi rəhbərin həyat yoluna nəzər salmış, Ulu Öndərin mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanlarındakı fəaliyyətinin bu orqanların tarixində mühüm bir mərhələ kimi qiymətləndirildiyini vurğulamış, onun əvəzsiz səyləri ilə təhlükəsizlik təşkilatının azərbaycançılıq ideologiyası əsasında formalaşmasından, xilaskarlıq missiyasını üzərinə götürərək dövlətimizin müstəqilliyinin qorunub saxlanılmasında misilsiz xidmətlərindən ətraflı bəhs edib.

General-polkovnik Əli Nağıyev bildirib ki, bugünkü təhlükəsizlik orqanlarının fəaliyyətinin əsasını Heydər Əliyevin bu təsisatda təməlini qoyduğu peşəkarlıq məktəbi və vətənpərvərlik irsi təşkil edir və DTX-nin əməkdaşları bu məktəbin davamçıları olaraq təhlükəsizlik orqanlarında Heydər Əliyev ənənələrinin yaşadılması və inkişaf etdirilməsi naminə əzmlə çalışırlar.

Xidmət rəisi Əli Nağıyev

Sonda tədbir bədii hissə ilə - DTX-nin Mədəniyyət mərkəzində tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ifasında konsert proqramı ilə davam etdirilib.

# DİN-in əbədiyaşar rəhbərə ehtiramı



**Mayın 10-da Daxili İşlər Nazirliyinin (DİN) əməkdaşları və hərbi qulluqçuları xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsini anmaq üçün Fəxri xiyabana gediblər.**

DİN-in mətbuat xidmətindən verilən məlumata görə, Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub və əziz xatirəsinə böyük ehtiram ifadə ediblər.

**XQ**

# Müdafiə Nazirliyinin ali heyəti Fəxri xiyabanda



**Mayın 10-da Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirliyin rəhbərliyi Azərbaycan xalqının Ümummilli liderinin məzarı önünə gül dəstələri qoyub, xatirəsini dərin hörmət və ehtiramla anıb.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı ziyarət olunub, üzərinə gül dəstələri qoyulub, ehtiram nümayiş etdirilib.



*Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir! Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.*

**Heydər Əliyev,
Ümummilli lider**

# Heydər Əliyev: dövlətçilik şüuru və milli ideya

## (fəlsəfi təhlil)

### IV məqalə

### Vətəndaşın siyasi həssaslığı

İnsan siyasi strukturlara və onların funksiyalarına dərindən nüfuz etməyi bacarmalıdır. Bunun əsasında milli siyasətin regional və qlobal miqyaslardakı təsir gücünü dərk etməlidir. Bu iki məqamın sintezində vətəndaş ölkənin siyasi nəbzini elə tuta bilir ki, siyasi-ideoloji cəhətdən konkret mövqeyi formalaşır. Qərbdə insanlarda bu keyfiyyəti tərbiyə etmək üçün xüsusi proqramlar hazırlamışlar. Bu bağlılıqda XX əsrin 90-cı illərində çox geniş məzmunlu "Siyasi savadlılıq nəzəriyyələri" adlı kitab nəşr olundu. Burada siyasi savadlılığa aid olan və onun formalaşmasına təsir edən çox sayda faktor toplanmış və xarakteristikaları verilmişdir.

Həmin elmi vəsaitdə maraqlı bir cəhət yer almışdır. İnsanların "idraki səfərbərliyi" və "sosiallaşma agentləri" müqayisəli təhlil edilmişdir. Yəni siyasi savadlılığa təsir etməyə məsul olan insanların və strukturların fəaliyyəti araşdırılmışdır. Onlardan hansının daha səmərəli olduğu müəyyən edilmişdir. Belə nəticə alınmışdır ki, "idraki səfərbərlik" siyasi savadlılığa "sosiallaşma agentləri" faktorundan daha güclü təsir edir. Birincinin nəticələri konkret olur.

Bu, ona görə maraqlıdır ki, müasir cəmiyyətlərdə siyasi kontekstdə vətəndaşlara hansı mexanizmlə effektiv təsir etməyin nümunəsi verilir. Politoloqlar üçün "idraki səfərbərlik" amilinin daha səmərəli olması isə ona görə gözlənilməz olmuşdur ki, müasir cəmiyyətlərdə ictimai-siyasi mövqeyin formalaşmasında şəxsiyyətin rolu yenidən daha aktual görünmüşdür. Məsələnin bu aspekti həm liderlik, həm də siyasi güc kimi qrupvari (partiya) fəaliyyət baxımından maraqlıdır. Çünki burada hər bir ölkənin öz təcrübəsi ciddi rol oynamalıdır. Deməli, konkret cəmiyyət üçün lider şəxsiyyət olaraq özəl səmərəli mexanizm müəyyən etməlidir və həm də partiyanı bu istiqamətdə aktivləşdirməlidir. Heydər Əliyevin liderlik təcrübəsi başqa aspektlərlə yanaşı, bir də bu baxımdan çox əhəmiyyətlidir. Onun üzərində geniş dayanmaq gərəkdir.

### Ulu öndərin "idraki səfərbərlik" üsulu

Etiraf edək ki, bu, geniş yaradıcı yanaşma tələb edən dərin mövzudur. Burada onun yalnız bir sıra əlamətlərinə baş vurmağa çalışacağıq. Məsələ ondan ibarətdir ki, Heydər Əliyev üçün insanların idraki səfərbərliyi keçən əsrin 90-cı illərində ölkənin çox ağır siyasi, geosiyasi, iqtisadi, mədəni və mənəvi-ideoloji vəziyyəti şəraitində başlamalı idi. Belə bir şəraitdə idraki səfərbərlik təcrübəsi olmayan bir cəmiyyət üçün hansı üsullar inandırıcı ola bilərdi?

Burada Qərbin fərqli təcrübəsindən və siyasi ənənəsindən yararlanmaq riskli idi. Çünki Azərbaycan həm sovetlərin "şineli"ndən yeni azad olmuşdu, həm də Qərbdəki demokratik ənənələrdən fərqli situasiya yaranmışdı. Burada mütləq yerli şəraitə uyğun mexanizm seçmək gərəkdi. Heydər Əliyev postsovet məkanında ilk olaraq bunun üçün üç aspekti özündə ehtiva edən metod seçdi.

### Şəxsi nümunə

Birinci aspekt, lider kimi şəxsi nümunə göstərməklə bağlıdır. Bu, insan fəaliyyətinin hər bir sahəsini – mənəvi, əxlaqi, siyasi, ideoloji, davranış, qətiyyət, milliliyə bağlılıq, dövlətçiliyi əsas götürmək və s. əhatə edirdi. Heydər Əliyev 1993–1995-ci illərin ən mürəkkəb mərhələlərində (məsələn, dövlət çevrilişinə qəsd cəhdləri və xarici qüvvələrin enerji siyasətinin qarşısını kəsmyə çalışdığı zamanda) şəxsi nümunəsi ilə bütün cəmiyyəti səfərbər etdi. İndiki reallıqlar prizmasından baxanda bu, həqiqətən liderlikdə yeni imza və şəxsiyyət kimi dahilik idi.

Çox çətin, riskli, təhlükəli və sonu faciəvi ola biləcək situasiyada Heydər Əliyev cəsarətlə dedi ki, "Mən xalqımın, millətimin yolunda nə vaxt lazım olsa qurban getməyə hazıram". 1993-cü ildə Milli Məclisdəki nitqi zamanı da vurğulamışdır: "Ömrümün bundan sonrakı hissəsini yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Heydər Əliyev şəxsi fəaliyyəti və davranış nümunəsi ilə bu cümlələrdəki fikirləri tam sübut etdi. Göstərdi ki, Azərbaycan müstəqilliyi, dövlətçiliyin inkişafı və xalqın rifahı üçün lazım gələn hər bir cəsarətli addımı atmağa qadirdir. O addımları 1993-1995-ci illərdə çəkinmədən atdı da. Bununla şəxsində nümayiş etdirdi ki, azərbaycanlılar siyasi cəhətdən nəinki savadlı ola bilirlər, hətta şəxsi nümunələri ilə cəmiyyəti səfərbər etməyə qadirdirlər. Heydər Əliyevin bu müdrik və uzaqgörən liderlik fəaliyyəti həmin dövrdə milyonlarla azərbaycanlını idraki səfərbər etdi! Bütöv xalq liderini dəstəklədi! Buna görə də artıq 1995 – 1996-cı illərdə Azərbaycanda daxili sabitlik bərqərar olmuşdu!

Bu üsulla Heydər Əliyev azərbaycanlılarda dövlətə, dövlətçiliyə yüksək inam yaratdı. Faktiki olaraq Qərbin siyasi institutlarının gördüyü işləri təkbaşına və daha səmərəli formada görə bildi. Burada Ulu öndərin idraki səfərbərliyinin digər tərəfi də xüsusi rol oynadı.

### Siyasi institutlaşmanın hüquqi aspekti

Bu cəhət də olduqca əhəmiyyətli idi. İki baxımdan. Birincisi, cəmiyyətin daxilində dövlətçiliklə hüquqi element məlum səriştəsiz idarəetmə nəticəsində bədbinlik yaratmışdı. Açığı desək, vətəndaşlar dövlətin hüquqi fəaliyyətinə əmin deyildilər. Bu daxili psixoloji apatiyanı aradan qaldırmaq arxivacib vəzifə idi. İkincisi, beynəlxalq miqyasda ikili sitandarlarla fəaliyyət göstərən dairələr ilk olaraq hüquqi aspektdə Azərbaycanı ittiham edirdilər. Bu qərəzli həmlələrin qarşısını konkret hüquqi nəticələrlə almaq mümkün idi.

Heydər Əliyev prezident seçiləndən sonra dərhal idarəetməni həyata keçirən dövlət strukturlarını yenidən qurmağa başladı. Bir-birinin ardınca islahatlar həyata keçdi. 1995-ci ildə yeni Konstitusiyanın qəbul edilməsi bu prosesə xüsusi təkan verdi. O cümlədən, düşünülmüş iqtisadi islahatlar, məhkəmə sistemindəki islahatlar təsirini göstərdi. Qısa tarixi bir zamanda "Əsrin müqaviləsi" kimi çox vacib sənədə imza atan dövlət müstəqil hüquqi sistemi ilə həm idarəetməni, həm də verdiyi vədləri yerinə yetirmək üçün lazımı hüquqi bazanın mövcudluğunu həyata keçirmək qüdrətində olduğunu göstərdi. Paralel olaraq Ulu öndər BMT kimi təşkilatların yüksək kürsüsündən Azərbaycan Respublikasının demokratik, hüquqi və barışcıl dövlət olduğunu bəyan etdi. Artıq yenə də 1995-ci ilə Azərbaycanın bu istiqamətdə müsbət obrazı dünyaya məlum idi.

Bu prosesdə də Heydər Əliyevin liderliyi ilə dövlət başçısı funksiyalarını sintez edə bilməsi özünü göstərdi. Bununla da Heydər Əliyev siyasi və hüquqi istiqamətlərdə vətəndaşları idraki səfərbər etmək işində yüksək nəticə əldə etdi. Lakin məsələnin başqa bir mühüm tərəfi – ideoloji və mənəvi səfərbərlik aspekti də reallığa çevrilməli idi.

### Azərbaycançılıq

Məsələnin bu tərəfi daha çətin idi. Çünki qısa bir müddətdə həm toplumu birləşdirən, həm də onu inkişafa aparan formul lazım idi. Heydər Əliyev bu formulu azərbaycançılıq konseptində məzmunlaşdırdı. Ulu öndər ön plana ölkənin taleyi ilə hər bir Azərbaycan vətəndaşının taleyinin bir olduğu tezisini yüksək siyasi tərzdə çıxardı. Bu zaman Heydər Əliyev iki məsələni vəhdətdə qarşıya vəzifə kimi qoydu: birinci, hər bir Azərbaycan vətəndaşı xalqın və Vətənin taleyini öz taleyi kimi qəbul etməlidir. İkinci, bunun üçün gənclərə nəyi və necə öyrətməyi müəyyən etməliyik.

Birinci fikir vətəndaş – toplum münasibətlərini harmoniyaya gətirməyi ifadə edir. Elə bir harmoniya ki, toplumun hər bir üzvü şəxsi həyatını xalqın həyatının bir parçası kimi görə bilsin. Belə olanda fərd xalqın taleyi uğrunda mübarizəyə hazır olur. Konkret olaraq, vətəndaş toplum üçün siyasi səfərbər edilir.

İkinci fikir bu məqsədə çatmağın dahiyanə tapıntısı idi. Təsəvvür edək ki, söhbət bütün dünya üçün çox həssas olan XX əsrin 90-cı illərindən gedir. Həmin mərhələdə Heydər Əliyev siyasi savadlılıq kontekstində cəmiyyətin idraki səfərbərliyinin aparıcı, dinamik, həmişəyenilikçi olan gənclər üzərindən təmin edilə biləcəyi fikrini irəli sürmüşdür! Bu addım azərbaycanlı gənclərin "rəngli olmaq" tələsinə düşmələrini böyük ölçüdə əngəllədi. Və həmin dövrdə gənc olanlar, sonrakı nəslin valideynləri idilər. Bununla Heydər Əliyev siyasi savadlılığı gənc ailələrə sirayət etməyin çox səmərəli və sivil üsulunu ortaya qoydu. Bu baxımdan Ulu öndərin məşhur "fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı azərbaycançılıq daxilində xüsusi tezisə çevrildi.

Heydər Əliyev bu kəlamla iki mühüm məsələni həll etdi. Onlardan biri azərbaycanlıların baş verən hadisələrin təsiri ilə psixoloji apatiyanı aradan qaldırmaqla bağlıdır. Bu apatiya müəyyən mənada psixoloji natamamlıq kompleksi yaratmışdı. Lakin fəaliyyətində uğurlu olan Prezident, dövlət başçısı, lider Heydər Əliyev isə inamla deyirdi ki, azərbaycanlı olmağımızla fəxr edək. Çünki azərbaycanlı olmaq yüksək və qədim mədəniyyətə sahib olmaq deməkdir, dövlətçilik ənənəsinə malik toplum deməkdir, regionun ən güclü xalqı olmaq deməkdir! Azərbaycanlı olmaq sağlam ailəyə malik olmaq deməkdir! Ənənədən azərbaycanlılar ailələrini Vətən üçün qorumuşlar və vətənlərini də ailələri üçün sevmişlər!

Bütün bunlar Heydər Əliyevə tam əsas verirdi ki, milli mənsubiyyəti, azərbaycanlılığı və Vətən sevgisini fəxarətlə bəyan etsin! Bu tezislə yanaşı, azərbaycanlılığın səfərbərlik mexanizmi kimi aktuallaşmasında ideoloji miqyasda təminedici faktoru müəyyən olunmalı idi. Həmin faktorun başlıca rolu fərd – ailə – cəmiyyət miqyaslarında ortaq mənəvi, əxlaqi, siyasi və ideya mühiti yaratmağa xidmətdən ibarət olmalı idi.

Heydər Əliyev bu istiqamətdə də tarixi yeniliyə imza atdı. Ərazi bütövlüyünün təminini milli ideya kimi bəyan etdi! İlk dəfə bunu 1995-ci ildə nehrəmliılərlə görüşündə ifadə etdi. Yerində, zamanında və aktuallıqla ifadə edilən seçim idi. Bütün Azərbaycan bu müqəddəs vəzifə üçün sürətlə səfərbər oldu.

İnsanlar gördü ki, liderin ölkəni işğaldan azad etmək kimi müqəddəs vəzifəsi vardır. Hər bir azərbaycanlı üçün fərd, ailə, nəsil, kök və toplum olaraq Vətənin bütövlüyü qədimdən müqəddəsdir. Bu müqəddəsliyi müasir mərhələdə qəbul etmək avtomatik baş verən haldır! İndi politoloqlar Heydər Əliyevin "necə bütün xalqı vahid məqsədə səfərbər edə bildi" sualı üzərində baş sındırırlar. Cavab sadədir və həm də dərindir: Ulu öndər milli ideya faktorunu real təməl üzərində fərd – ailə – toplum miqyasında ümumi məqsədə çevirə bildi. Heydər Əliyev milli ideyanı gerçək şərtlər daxilində siyasi savadlılığın mərkəzi punktu statusuna qovuşdurdu. Bu tarixi seçim sonrakı zəfərlərin məhək daşı, bazası və təməlidir!

(ardı var)

**Füzuli QURBANOV,
XQ-nin analitiki,
fəlsəfə elmləri doktoru**

# "Əbədi ömrün ikinci əsri"





**Mayın 10-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Əbədi ömrün ikinci əsri" mövzusunda elmi sessiya keçirilib.**

Muzeyin direktoru, akademik Rafael Hüseynov tədbiri açaraq görkəmli dövlət xadiminin Azərbaycanın yeni və müasir dövlətçilik tarixində əvəzsiz rolundan, ölkəsinin, xalqının tərəqqisi, rifahı naminə gördüyü misilsiz işlərdən bəhs edib.

Bir xalqın tarixində onun istiqlalının ən mühüm məsələ olduğunu deyən akademik Rafael Hüseynov qeyd edib ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti quruldu və cəmi 23 il yaşadı. Azərbaycan xalqı 70 il müstəqillik həsrətində oldu. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Lakin Azərbaycanın dövlət müstəqilliyinin əbədi olması 1993-cü ildə respublikanın siyasi rəhbərliyinə qayıdan Ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri sayəsində mümkün oldu.

Direktor vurğulayıb ki, 33 ildir Azərbaycan dövlət müstəqilliyini bərpa edərək istiqlal içərisindəki yolunu davam etdirir. Bu 33 ilin 31 ili isə iki böyük şəxsiyyətin – Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin adı ilə bağlıdır. Uzaqgörən rəhbər Heydər Əliyev Azərbaycanın müstəqilliyini, istiqlalını XX əsrin sonlarının çox ağır, sınaqlı mübarizəli yollarından uğurla keçirərək XXI əsrə çatdırdı.

R.Hüseynov əlavə edib ki, Prezident İlham Əliyev Azərbaycanı dünyada söz sahibi olan güclü, inkişaf edən, nüfuz sahibi bir dövlətə çevirdi və o, xalqımızın illərdən bəri ən ağır problemi olan Qarabağ düyününü açmağa müvəffəq oldu.

"Əbədi ömrün ikinci əsri" mövzusunda məruzəsini təqdim edən akademik Rafael Hüseynov diqqəte çatdırıb ki, Heydər Əliyevin xalqın gələcəyi ilə bağlı ən mühüm addımlarından biri də sovet dövründə azərbaycanlı gənclərin Sovet İttifaqının qabaqcıl ali məktəblərində təhsil almağa göndərilməsini təşkil etməsidir. Bundan başqa Ulu öndər ixtisaslı hərbiçi kadrların yetişdirilməsi məqsədilə Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmışdı.

Alim bildirib ki, Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün dövrlərində, ictimai-siyasi fəaliyyətində elmə, mədəniyyətə, ədəbiyyat və sənətə önəm vermiş, yaradıcı simalara qayğı göstərmiş, Nəsiminin anadan olmasının 600, Füzulinin 500, Nizami Gəncəvinin 840 illik yubileylərinin qeyd olunması, eləcə də xalqımızın digər tanınmış mütəfəkkirlərinin ildönümlərinin keçirilməsi ilə bağlı sənədlər imzalamışdır.

Muzeyin direktoru çıxışının sonunda qeyd edib ki, görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır. Azərbaycan var olduqca Ulu öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcəkdir.

Daha sonra muzeyin Mədəni irs və mənbəşünaslıq şöbəsinin müdiri, professor Xatirə Bəşirli "Heydər Əliyevin dövlət idarəçiliyində ədəbiyyatın yeri" adlı məruzəsini təqdim edib. O qeyd edib ki, ədəbiyyat vasitəsilə milli-mənəvi özünüdərk prinsiplərinin dərinləşməsi, azərbaycançılıq məfkurəsinin mənimsədilməsi dahi şəxsiyyət Heydər Əliyevin ədəbiyyat siyasətinin əsas prinsiplərindən olmuşdur.

Muzeyin Komparativistika və bədii tərcümə şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Şəfəq Əlibəyli "Ölümsüz bir ölümlə əbədiyyətə qovuşanlar" adlı məruzəsində Ulu öndərin xalqa səmimi münasibəti ilə qəlbləri fəth etdiyini, əbədiyaşarlıq qazandığını qeyd edib.

Tədbir çərçivəsində Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş sərgi də nümayiş etdirilib.

**Qabil YUSİFOĞLU
XQ**

# Ulu öndərin sevgi dastanı özbək dilində

**Azərbaycanın Özbəkistandakı səfirliyi bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə Ulu öndərin anadan olmasının 101-ci ildönümü münasibəti ilə tanınmış jurnalist, Azərbaycanın Xalq yazıçısı Elmira Axundovanın "Zərifə və Heydər Əliyevlər – Əbədiyaşar məhəbbət" kitabı Daşkənddə özbək dilində çap edilib.**





Kitabı özbək dilinə Özbəkistanın tanınmış alim və tərcüməçisi Babaxan Şərif çevirib.

Nəşrdə Zərifə Əliyeva və Heydər Əliyevin həyatı, gənclik illəri, ailə münasibətləri, ömürlərinin ən yaddaqalan, keşməkeşli, sevincli, fərəhli anları öz əksini tapıb, onlara yaxın olan şəxslərin xatirələri verilib.



Nəşrdə Ulu öndər və Zərifə xanımın həyatlarının müxtəlif dövrlərinə aid fotolar da yer alıb.

Nəfis şəkildə çap edilmiş nəşrin yaxın günlərdə təqdimatının keçirilməsi nəzərdə tutulur.

**Qulu KƏNGƏRLİ,
XQ-nin xüsusi müxbiri
Daşkənd**

# Heydər Əliyevin iqtisadi siyasəti Azərbaycanı hərtərəfli, sürətli yüksəliş yoluna çıxarıb



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı ötən il ölkəmizdə elan edilmiş "Heydər Əliyev İli" Ulu öndərin canlı dövlətçilik strategiyası təşkil edən misilsiz irsinin öyrənilməsi və ondan istifadə prosesini yeni tarixi mərhələyə qaldırdı. Dünyanı heyran qoymuş böyük azərbaycanlının bənzərsiz ömür yolunun və titanik liderlik fəaliyyətinin tədqiqi və təbliği ilə bağlı görülən irimiqyaslı, vüsətli elmi-informativ işlərin dalğası zaman hüdudlarını aşaraq bu il də sonsuz sevgi-sayğı ilə davam edir.**

Xalqımız və Azərbaycanın sadiq dostları dünya miqyaslı siyasətçi və dövlət xadiminin anadan olmasının 101-ci ildönümünü də qeyri-adi qədirbilənlik və dərin ehtiramla yad edir. Bütün dünyada nəhəng strateq və mahir taktik kimi qəbul edilən Heydər Əliyevin ictimai-siyasi, sosial-iqtisadi və ideya-mənəvi sferalarda xidmətləri zəmanəmizdə bəşəri əhəmiyyətli nadir fəaliyyət kimi dəyərləndirilir. Ulu öndərin dərin zəkası və misilsiz əməli fəaliyyəti ilə aşılanmış zəngin irsində onun iqtisadi inkişaf ilə bağlı nəzəri baxışları və vüsətli quruculuq xronikası da önəmli yer tutur. Bu konseptual mövzunun əhatə etdiyi novatorluq fəlsəfəsi Azərbaycanın çağdaş sosial-iqtisadi inkişafının nəzəri və əməli əsaslarını təşkil edir.

Ümummilli liderin ən layiqli davamçısı, sosial-iqtisadi inkişafda varisliyi ümummilli inkişaf amilinə çevirmiş Prezident İlham Əliyev bu qiymətli irsin həmişəyaşarlığını belə ifadə etmişdir: "Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın azadlığının əbədi, dönməz olmasında, iqtisadi potensialının güclənməsində, bölgədə və yer üzündə nüfuzunun artmasında onun müstəsna xidmətləri var. İndi bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu azad Azərbaycan yaşayacaqdır".

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Ulu öndərin 35 illik rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir. Heydər Əliyev öz ölkəsinin ali rəhbəri kimi var qüvvəsini və bacarığını həmişə Azərbaycanın yüksəlişinə həsr etmiş, nəhəng quruculuq işlərinin təşəbbüskarı və icraçısı olmuşdur.

Yaxın keçmişə nəzər salsaq görərik ki, 1988–1993-cü illərdə Azərbaycanın ictimai-siyasi həyatında çaxnaşmalar, cəbhədəki məğlubiyyətlər, ölkədəki anarxiya, xaos, vətəndaş müharibəsi təhlükəsi xalqı cana doydurmuş, sabaha inamı sarsıtmışdı. Belə bir təhlükənin və davam edən faciələrin qarşısını almaq üçün xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. 1993-cü ilin 15 iyunu Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Xalqımız hər il həmin tarixi Milli Qurtuluş Günü kimi bayram edir.

Ümummilli lider xalqın tələbi ilə hakimiyyətə qayıdanda deyirdi: "Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram". O zaman Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində dağıdıcı proseslər dayandırıldı. Milli Ordumuzun döyüş qüdrətinin artırılması nəticəsində torpaqlarımızın işğalına son qoyuldu və atəşkəs əldə olundu. Qısa bir zamanda ulu öndərin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş təmin edildi. Siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə hüquqi və sivil dövlət quruculuğu prosesi başlandı. Müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edildi. Dünya dövlətləri ilə iqtisadi və siyasi əlaqələrimiz genişləndi. İqtisadi islahatların həyata keçirilməsi geniş vüsət aldı. Bütün bunlar məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün oldu.

Xalqımızın dahi oğlu Heydər Əliyev tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə, dünya xalqlarının iqtisadi, mədəni yüksəlişinə, onların arasında mehriban münasibətlərin dərinləşməsinə sərf edirdi. Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi İpək yolu dünyanın Şərqi ilə Qərbini yenidən birləşdirdi və bütün dünya dövlətlərinin inkişafına öz mühüm töhfəsini verdi.

Ümummilli lider Heydər Əliyev BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, MDB və başqa beynəlxalq təşkilatların toplantılarında daim qlobal, bəşəri problemlərə öz orijinal baxışını ardıcıl və ucadan səsləndirirdi. Sözün həqiqi mənasında, bu böyük insanın amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqa xidmət etməkdən ibarət idi. Ulu öndər Heydər Əliyev indi bütün dünyada Azərbaycanın rəmzinə çevrilib. Məhz ona görə də böyük öndərimizin adı xalqımız tərəfindən həmişə dərin hörmət və ehtiramla anılır.

Tarixi təcrübə sübut edir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar milli sərvətlərinə sahib olmaq və ölkələrinin inkişafına yönəltmək imkanı qazanırlar. Dünyanın bir çox ölkəsi zəngin neft ehtiyatına malikdir. Lakin bu ölkələrin heç də hamısı həmin sərvətdən xalqın rifahı üçün lazımi səviyyədə istifadə edə bilmir. Ümummilli liderimiz Heydər Əliyev isə neft-qaz ehtiyatından əldə edilən gəliri xalqın rifahına yönəldə bildi.

1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə müstəqil Azərbaycanın yeni neft strategiyası həyata keçirilməyə başlandı və ölkə iqtisadiyyatına yatırılan investisiyanın həcmi ilbəil artdı. Keçmiş sovet respublikaları arasında Azərbaycan ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə irimiqyaslı saziş imzaladı və Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev o dövrdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü.

"Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi. Bu beynəlxalq əməkdaşlıq xarici investorların ölkəmizə axınını sürətləndirdi və Azərbaycanda yeni neft-qaz müqavilələrinin bağlanmasına güclü təkan verdi.

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi isə ölkəmizdə istehsal edilmiş neftin dünya bazarına çıxarılmasında mühüm rol oynayır. Heydər Əliyev kəmərin təməlinin qoyulması mərasimindəki nitqində demişdi: "Bakı-Tbilisi- Ceyhan çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər".

Alfred Nobelin XX əsrin əvvəllərində "Burada neft, qaz və siyasət çox sıx şəkildə bir-birinə qarışıb" – deyə xarakterizə etdiyi Azərbaycan artıq XX əsrin sonunda xalqın dahi oğlu Heydər Əliyevin dərin zəkasının və böyük zəhmətinin bəhrəsi olan inkişaf strategiyası nəticəsində sabitliyin və əmin-amanlığın hökm sürdüyü bir ölkə halına gətirdi. Gündən-günə artan neft gəlirləri, xarici investisiya axını ölkənin iqtisadi mənzərəsini dəyişdi, Azərbaycanı regionun lider dövlətinə çevirdi. Azərbaycanın zəngin nefti və qazı Ulu öndərin müəyyən etdiyi geosiyasi xətt əsasında müstəqilliyimizin möhkəmlənməsinə, beynəlxalq nüfuzumuzun artmasına xidmət edir.

Respublikamızda istehsal edilən neft-qaz müstəqillik şəraitində xalqımızın güzəranının yaxşılaşmasında, onun ictimai-siyasi həyatında böyük rol oynaydı. Ulu öndər Heydər Əliyevin memarı olduğu neft strategiyasının uğurla həyata keçirilməsi sayəsində ölkəmizdə dinamik inkişafın təmin edilməsi, əhalinin rifahının yaxşılaşması, dünya təsərrufat sisteminə inteqrasiya əlaqələrinin güclənməsi mümkun oldu.

Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi İpək Yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirdi və bütün dünya dövlətlərinin inkişafına öz mühüm töhfəsini verdi. Avropa və Asiya qitəsinin arasında yerləşən Azərbaycan tarixən qərblə şərq, cənubla şimal arasında "körpü" funksiyası daşıyıb. Tarixi İpək Yolunun bərpasına həsr edilən və Bakıda böyük təntənə ilə keçirilən beynəlxalq konfrans respublikamızın yenidən iki qitəni birləşdirən qovşağa çevrilməkdə olduğunu nümayiş etdirdi. İpək Yolunun üstündə yerləşən 33 ölkənin, 8 beynəlxalq təşkilatın nümayəndələri ölkəmizin paytaxtına toplaşmaqla Azərbaycanın beynəlxalq nüfuzunu bütün dünyada bir daha təsdiq etdilər.

Son 21 ildə bu siyasi kursun ardıcıl olaraq həyata keçirilməsi isə möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Regionda qlobal enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan hazırda bir sıra dünya və Avropa ölkələrinin "mavi yanacaq"la təminatında mühüm rol oynayır. "Şahdəniz" yatağı ölkəmizi dünyanın potensial qaz ixracatçılarından birinə çevirmişdir. Azərbaycan Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, Bakı- Tbilisi- Qars dəmir yolu, Cənub Qaz Dəhlizi, TRASEKA kimi nəhəng layihələrinin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə, eləcə də dünyanın neft mərkəzlərindən birinə çevrilmişdir.

Azərbaycanda 1993-cü ildən başlayaraq əsası Heydər Əliyev tərəfindən qoyulan və həyata keçirilən enerji siyasəti çox maraqlı mərhələləri keçib. Qlobal layihə olan Cənub Qaz Dəhlizi uğurla gerçəkləşdirildi. TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından və digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və bu ölkədən Avropaya nəqlini təmin edir. Bu gün Avropa İttifaqının 9 ölkəsi Azərbaycan qazı alır. Bu ölkələrin sayı artır və tezliklə köhnə qitəyə Azərbaycan qazının illik ixracı 20 milyard kubmetrə çatacaq.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir. Onun icrasına 45 milyard dollardan çox sərmayə qoyulub. İndiki maliyyə böhranı şəraitində bir layihəyə bu dərəcədə kapital qoyulması onun iqtisadi önəmi ilə yanaşı, siyasi və geosiyasi əhəmiyyətini də göstərir. Burada, şübhəsiz ki, Azərbaycanın kifayət qədər qaz ehtiyatına malik olmasına olan inam da mühüm rol oynayıb. Hazırda Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir.

Cənub Qaz Dəhlizi, bütövlükdə, qlobal əməkdaşlığın enerji təhlükəsizliyinə verdiyi çox böyük töhfədir. Bu beynəlxalq kəmərin Yeni İpək yolu layihəsi ilə qarşılıqlı əlaqədə müsbət nəticələr verə biləcəyi şəksizdir. Prezident İlham Əliyev bu irimiqyaslı əməkdaşlığı belə qiymətləndirmişdir: "Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səyləri xüsusi yer tutur".

Azərbaycan iqtisadiyyatı müasir dövrdə, şaxələndirmə, başqa sözlə, diversifikasiyalaşdırılma dövrünü yaşayır. Prezident İlham Əliyevin təsdiq etdiyi "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi"ndə göstərilir ki, Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və innovasiyalaşdırılmasında iki mühüm iqtisadi inkişaf istiqaməti-- milli istehsalçıların məhsullarına olan tələbatın daxili bazarda ciddi artırılmasının təmin olunması və xarici bazarların əldə edilməsi mühüm prioritet kimi qəbul olunmalıdır.

Bu baxımdan ölkənin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində əsas element kimi sənayenin, kənd təsərrüfatının, turizmin, İKT və s. sahələrin kompleks və sürətli inkişafı, ölkə iqtisadiyyatının müxtəlif sektorlarının potensialından səmərəli istifadə olunması, yüksək standartlara cavab verən milli məhsulların və malların istehsal şəbəkəsinin genişləndirilməsi, ixracyönümlü malların çeşidinin artırılması və qeyri-neft ixracının coğrafiyasının şaxələndirilməsi həcminin yüksəldilməsi, yeni xarici əmtəə bazarlarına çıxışın təmin olunması vacib şərtlər kimi çıxış edir.

Hazırda iri enerji layihələrinin əksəriyyəti başa çatdırılıb və yaxud icra edilməkdədir. Artıq qeyri-neft sektorunda irihəcmli layihələr başlanılıb, ölkənin iqtisadi inkişafının neftdən asılılığının azaldılması prosesləri müşahidə olunur. Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir.

Beynəlxalq maliyyə institutları bu sahələr arasında kənd təsərrüfatı və turizmin əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, ölkənin məşğul əhalisinin 40 faizdən çoxu kənd təsərrüfatında çalışır. Bu səbəbdən ölkədə kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramları, islahatlar və yeni texnologiyaların cəlb edilməsi həyata keçirilməkdədir. Azərbaycanla sıx tərəfdaşlıq edən Asiya İnkişaf Bankı da kənd təsərrüfatı və turizmi ölkədə qeyri-neft sektorunun inkişafının aparıcı istiqamətləri hesab edir.

İndi Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikinti materialları, hazır toxuculuq məmulatları və s. müxtəlif ölkələrə ixrac edilir. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli dövlət kreditlərinin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollarlıq vəsait xərclənib. Bu kapital çox keçmədən öz bəhrəsini verməyə başlayıb və iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olub.

Prezident İlham Əliyev Azərbaycana rəhbərliyi dövrünə nəzər salarkən demişdir ki son 2 onillikdə iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır: "Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edildi, iqtisadi rifah yaxşılaşdı və respublikamızın gələcək inkişafı üçün zəmin yaradılmışdır".

Müasir mərhələdə iqtisadi sahədə qarşıya qoyulan əsas vəzifə qeyri-neft sektorundakı mövcud potensialın hərəkətə gətirilməsi, bu sahədə dinamik inkişafın təmin edilməsi üçün yeni iqtisadi islahatların həyata keçirilməsidir. Bu məqsədlə qeyri-neft sektorunda müşahidə edilən proseslərə çevik adaptasiya, habelə postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün sənayenin qarşısında duran yeni çağırışlar və imkanların tətbiq edilməsi üçün Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə Strateji Yol Xəritəsi təsdiq edilmişdir.

Bu yol xəritələri Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən konseptual əhəmiyyətli sənəddir. Təsdiq edilmiş xəritədə, bütövlükdə, milli iqtisadiyyat və 11 sektor üzrə yaxın orta və uzunmüddətli perspektivlər öz əksini tapmışdır. Strateji Yol Xəritəsinin icrası nəticəsində sənayenin strukturu təkmilləşdirilir, qeyri-neft sənayesi iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevrilir, ağır sənaye və maşınqayırmanın sənayedə və məşğulluqda payı artır, ümumi iqtisadi potensial 2025-ci ildən sonrakı dövr üçün nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması üçün hazır vəziyyətə gətirilir.

Ümumiyyətlə, mövcud resurslardan optimal istifadə, habelə müəssisələrdə səmərəli istehsal metodlarının tətbiqi uğurla davam etdirilir.

Qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi potensialının gücləndirilməsi üçün mühüm amillərdən biridir. Bunun nəticəsidir ki, son illər uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına səbəb olmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən biri də regionların inkişafı strategiyasının həyata keçirilməsidir. Bu baxımdan qəbul edilmiş regional inkişafa dair dövlət proqramları uğurla icra olunmuş və bu proqrama əsasən digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına da şərait yaratmışdır.

Ulu öndərin iqtisadi inkişaf strategiyasını uğurla gerçəkləşdirən Azərbaycan rəhbərliyi çalışır ki, ölkə neft amilindən asılı olmasın. Buna görə də qeyri-neft sektoruna aid layihələrin reallaşmasının sayı da durmadan artmaqdadır. Hazırda qlobal iqtisadi inkişafın gələcəyini müəyyənləşdirən texnologiyalar dünyanın ən aparıcı dövlətlərinin həyata keçirdikləri siyasətdə əsas xətti təşkil edir. Sürətlə yayılmaqda olan informasiya-kommunikasiya texnologiyaları və onların fonunda formalaşaraq yeni inkişaf vüsəti qazanan qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına birbaşa təsir göstərməkdədir.

Bu gün Azərbaycan İKT-nin inkişaf göstəricilərinə görə inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qiymətləndirilir və son illərdə ən dinamik inkişaf edən 10 ölkə qrupuna daxildir. Ölkəmizdə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Bu işdə iqtisadi islahatların, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır. Məhz bunların sayəsində regionlarda sahibkarlıq inkişaf edir, yeni iş yerləri yaradılır.

Novator lider İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatının yeni sürətli inkişaf erası başlanmışdır. Bu isə heç şübhəsiz, dövlət tərəfindən dövrün tələblərinə uyğun olaraq iqtisadi islahatların kompleks və əlaqəli şəkildə aparılması, proqnozlar əsasında formalaşdırılmış dövlət proqramlarının, yerli, regional və beynəlxalq investisiya layihələrinin həyata keçirilməsi və dünya iqtisadiyyatına inteqrasiya yolu ilə əldə edilmişdir. Bütün bunların məntiqi nəticəsidir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və mövqeyi ilbəil artmaqdadır.

Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirən Prezident İlham Əliyevin praqmatizmə söykənən səmərəli fəaliyyəti nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter almağa başlamışdır. Ölkə başçısının rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş proqramlar üzrə aparılmasıdır. Əldə olunan iqtisadi artım isə ilk növbədə, Azərbaycan vətəndaşlarının maddi rifah halının yüksəldilməsinə, ölkədə yoxsulluğun azaldılmasına, sahibkarlığın və regionların hərtərəfli inkişafına yönəldilmişdir.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən xarici və daxili siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini durmadan möhkəmləndirəcəkdir.

***Arif ŞƏKƏRƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru,***
***Əməkdar elm xadimi***

# Ümumxalq sevgisinin əbədi ünvanı

**Hər dəfə Ümummilli lider Heydər Əliyev haqqında düşünəndə iftixar hissi keçirirəm ki, mən də bu nadir tarixi şəxsiyyətin soydaşıyam. Ulu öndərin ölkəyə rəhbərliyinin hər iki dövründə onun titanik fəaliyyətini izləmək, adı və əməlləri Azərbaycan tarixinə qızıl hərflərlə yazılan bu dahi insanın xalqımız qarşısında, dövlətçiliyimizin dirçəldilməsi və möhkəmləndirilməsində misilsiz xidmətlərinin şahidi olmaq kimi xoşbəxtliyi mən də yaşamışam.**

Heydər Əliyevin həyat yolu və fəaliyyəti Azərbaycan tarixində böyük hadisə, bütöv bir epoxadır. Lakin yaxın keçmişə nəzər salmadan bu epoxanı dərk etmək, Ulu öndərin öz xalqının gələcəyi naminə həyata keçirdiyi möhtəşəm işləri təsəvvür etmək çətindir. Bu baxımdan möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi böyük əhəmiyyət kəsb edir. Möhtərəm Prezidentimizin sərəncamı hamının ürəyindən oldu. Bu, bizə imkan verdi ki, ağır vaxtlarda ölkəmizin taleyinə cavabdehlik missiyasını şərəflə, sədaqətlə yerinə yetirən müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, həyat yolu ölkəmizin çağdaş siyasi tarixi ilə ortaqlaşmış Heydər Əliyevin gördüyü möhtəşəm işlərin miqyasına bir daha nəzər salaq.

İl boyu davam edən yubiley abhavasında ziyalılar, qələm sahibləri, elm adamları, Ulu öndərin sədaqətli silahdaşları, rəhbərliyi altında işləmiş ağsaqqallar, bir daha bu dahi şəxsiyyət haqqında qədirşünaslıq əlaməti olaraq söz demək, məqalələr, kitablar, monoqrafiyalar yazmaq imkanı əldə etdilər. Bir daha aydın oldu: Heydər Əliyev elə bir sahibsiz ümman, elə bir möhtəşəm abidədir ki, onun miqyası, çəkisi, önəmi zaman keçdikcə daha yaxından görünəcək, daha dərindən dərk ediləcək.

Azərbaycan Milli Elmlər Akademiyasında Ulu öndərin 100 illiyinə həsr olunmuş Elm günündə söylənənlər zamanın Heydər Əliyev dühasına qiymətinin yeni bir səhifəsi kimi yaddaşlarda qaldı. Akademiyanın prezidenti, akademik İsa Həbibbəyli həmin gün dərin məzmunlu məruzə etdi. Akademiklərdən geoloq alim Akif Əlizadə, heykəltaraş Eldar Ömərov, Respublika Ağsaqqallar Şurasının sədri Eldar Quliyev, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Fazil Mustafa, Elm və Təhsil Nazirliyinin şöbə müdiri Turxan Süleyman Ulu öndərin gördüyü misilsiz işlərdən, Prezident İlham Əliyevin Ümummilli liderin kursunu sədaqətlə davam etdirməsinin uğurlu nəticələrindən məhəbbətlə danışdılar.

Toy-bayrama çevrilən Elm günündə bir çox alimlərimizin, xüsusən də akademiklərin "Heydər Əliyev – 100" medalı və başqa nominasiyalar üzrə təltif olunması mərasimə ikiqat təntənə gətirdi. Mən isə əsərlərinə ən çox istinad edilən alim kimi "İstinadda rekord" diplomu ilə təltif olundum. "Heydər Əliyev İli"ndə mükafat almağıma sevinirəm. Az adam bilir ki, Ulu öndər mənim də taleyimdə müstəsna rol oynayıb. Dillər İnstitutunun ingilis-Azərbaycan dilləri fakültəsində IV kurs tələbəsi olarkən xaricdə tərcüməçi işləmək üçün sənəd hazırlamışdım. İkinci Dünya müharibəsi vaxtı atam neytral dövlət olan İsveçrəyə gedib çıxmışdı. O, əsir düşməmişdi, bununla belə, sovet quruluşunun belə hallara qarşı amansızlığını göz önünə gətirəndə şansımın az olduğunu düşünürdüm.



On iki il Ulu öndərin rəhbərliyi altında işləmiş general və gözəl yazıçı Yasif Nəsirli şahidlik edir ki, Heydər Əliyev mənim həmin sənədlərimi diqqətlə oxuyub imza atdı və dedi: "Gəncdir, qoy getsin, inkişaf etsin".

Ümummilli liderin şəxsiyyətinə və gördüyü möhtəşəm işlərə dərin hörmət və sonsuz məhəbbətimi əvvəllər də, "Heydər Əliyev İli"ndə də etdiyim məruzələr, yazdığım çoxsaylı məqalələr və Ulu öndər epoxasına, İlham Əliyevin liderliyinə həsr etdiyim, akademik İsa Həbibbəylinin "Xilaskardan xilaskara" adlı ön sözü ilə çap olunan "Xilaskarlar" kitabımda göstərməyə çalışmışam. Mətbuatda yüksək qiymətləndirilən, Milli Kitabxanada təqdimatı keçirilən "Xilaskarlar" kitabım 2022-ci ildə Tehranda "Naqus" nəşriyyatında da çap edildi.

"Heydər Əliyev İli"ndə Ulu öndər haqqında Tovuz rayon ziyalıları və fəalları qarşısında, AMEA-nın Ədəbiyyat İnstitutunda, BDU-nun Ümummilli liderə həsr olunan yığıncağında, BDU-nun informasiya və sənət menecmenti fakültəsində, Azərbaycan Universitetində, Məhkəmə Ekspertiza Mərkəzində, Milli Kitabxanada, Yazıçılar Birliyində və başqa mötəbər müəssisələrdə məruzələrlə çıxış etmişəm. AMEA-da akademiyanın müxbir üzvü, professor Misir Mərdanovun "Heydər Əliyev: Xalqa həsr olunmuş ömür" kitabının təqdimatında da məruzə etmişəm.

"Heydər Əliyev İli"ndə Yazıçılar Birliyinin hazırladığı, Azərbaycanda və Türkiyədə çap olunan "Ədəbi ömrün yüz ili" və "Azərbaycan realllığında Heydər Əliyev epoxası" kitablarında məqalələrim çap olunub. Bundan əlavə, professor Misir Mərdanovun "Heydər Əliyev: Xalqa həsr olunmuş ömür" kitabım haqqında mətbuatda "İbrətamiz və bənzərsiz əsər" adlı məqaləm, "Heydər Əliyev və İlham Əliyev Nostradamusun görücülüyündə" adlı yazım işıq üzü görüb. Ümummilli lider haqqında yazılarımı indi də davam etdirirəm. "Ulu öndər və unudulmaz xatirələr" məqaləm çap olunub.

Ulu öndərlə bağlı xatirələrim çoxdur. Əsasən də doğma kəndim Düzqırıxlıda (Tovuz rayonu) keçən əsrin 70-ci illərində Ulu öndərin 3 dəfə (1975, 1977, 1980) respublika üzümçülərinin zona müşavirəsini keçirərkən baş verən maraqlı hadisələr barədə "Xilaskarlar" kitabımda ətraflı söhbət açmışam. Onu da deyim ki, Ulu öndər yeni bir üzüm sortunu bizim kənddə Xəlfəqulu oğlu Abbasın sahəsində əkmişdi. Ümummilli lider Abbas kişinin bol məhsullu üzüm sahəsində olarkən demişdi: "Ağsaqqal, biz Bakıdan gəlmişik, nəyə ehtiyacın var, arzun nədir?"

Abbas kişi demişdi: "Qadan alım, heç nəyə ehtiyacım yoxdur. Arzum isə odur ki, gedək qonağım ol, beş-altı toğlum var, birini kəsim. Siz gedəndən sonra qürrələnim ki, böyük bir adam qonağım olub".

Heydər Əliyev ürəkdən gülərək söyləmişdi: "Bizim böyük olduğumuzu haradan bildin?". Cavab belə olmuşdu: "Qadan alım, bunu bilməyə nə var ki? Yaşım 70-dən yuxarıdır, ömrümdə bir kişinin başına bu qədər adam yığışdığını görməmişəm".

Ulu öndər yenə ürəkdən gülmüş və demişdi: "İndi tələsirik. Çalışaram, gələn dəfə qonağın olum".

Kitabda əksini tapmayan ibrətamiz bir məsələdən də danışmaq istərdim. Ulu öndər yüksək vəzifədən kənarlaşandan sonra portretlərini hər yandan yığırdılar. Kiçik qardaşım Ələsgər müəllim Ulu öndərin portretlərini iki kənd orta məktəbindən, sovxoz və kənd soveti idarələrindən, xəstəxanadan, sənət məktəbindən, Heydər Əliyevin Respublika Üzümçülərinin Zona Müşavirəsini keçirdiyi klubdan yığaraq evinə gətirmişdi. Portretləri bir otağa yığmışdı. Özü də o otaqda yatırdı.

Maraqlıdır ki, Heydər Əliyev xalqın istəyi ilə yenidən hakimiyyətə gələndə həmin portretlər əvvəlki yerini bəzədi. Onu da deyim ki, nəslimizdə Ulu öndərə məhəbbət sahilsiz ümmana bənzəyir. Ələsgər müəllimin qızı, mərhum millət vəkili Qənirə Paşayeva belə bir mühitdə böyümüşdü.

Mənim də başıma heç vaxt unutmayacağım bir hadisə gəlib. BDU-nun tarix fakültəsində dərs deyirdim. Ağır vaxtlar idi. Ölkə çalxalanırdı. Milli-mənəvi dəyərlər tapdalanırdı. Bir gün 2 gənc tələbəm – Müşfiq və Elnur sual verdilər: "Müəllim ölkədəki vəziyyətdən nicat yolunu nədə görürsünüz?".

Mən fikirləşmədən dedim: "Ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev çıxara bilər". O vaxt Ulu öndər hələ Naxçıvanda idi. Bu qənaətimə görə məni təqib etdilər. Ünvanıma nalayiq sözlər yağdırdılar, düz bir ay dərsimi pozdular.

Ulu öndər yenidən hakimiyyətə gələndən sonra o adamlar gəlib üzr istədilər. Həqiqəti dərk etmişdilər.

Məni Ə.Vəzirovun vaxtında kafedra müdirliyindən, qardaşımı isə "cəbhəçi"lər hakimiyyətə gələndə məktəb direktorluğundan kənarlaşdırdılar. Biz ruhdan düşmədik. Fəxr etdik ki, bizi dahi şəxsiyyət Heydər Əliyevin adamı hesab edirlər.

Möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi alimlərimizin ilhamla, coşqunluqla yazıb-yaratmağına stimul oldu. Yubileyin səngiməyən dalğası Ulu öndərin anadan olmasının 101-ci ildönümü günlərinədək sonsuz sevgi-sayğılarla davam edir.

Akademiyanın prezidenti, akademik İsa Həbibbəyli builki Elm günündə 2023-cü ili "Heydər Əliyev İli" elan etdiyinə, 2 əsrdən artıq torpaqlarımızda kök salmış xəyanətkar ünsürlərin kökündən qopararaq yurdumuzdan kənara atdığına, xalqa inanılmaz sonsuz sevinc, xoşbəxtlik, gələcək nəsillərə dinc həyat bəxş etdiyinə görə möhtərəm Prezidentimizə dönə-dönə minnətdarlığını bildirməklə elm ictimaiyyətinin qənaət və mövqeyini dəqiq ifadə etdi. Ulu öndəri xalqımıza bəxş etmiş tarixi günün bu il də coşğu və qədirbilənliklə qeyd edilməsi xalqımızın öz əbədi liderinə sevgi və ehtiramının növbəti ifadəsidir.

***Qəzənfər PAŞAYEV,***
***Əməkdar elm xadimi, professor***

# Heydər Əliyevin Naxçıvandan başlanan xilaskarlıq missiyası

**XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin canlı təcəssümüdür. Tarixşünaslıq ulu öndər Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Məşhur amerikalı siyasi xadim və politoloq Zbiqnev Bjezinski demişdir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istedadiyi tez çatdıran şəxsiyyət – bir sözlə, şəksiz liderdir".**



Bəli, Azərbaycan xalqının şəksiz lideri onu addım-addım irəliyə aparıb qələbələrə çatdırdı. Dahi lider haqqında Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer yazırdı: "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər…"

Xeyirxahlıq və alicənablıq, inam və etibar, təmkin və səmimiyyət kimi, cəhətlər ulu öndər Heydər Əliyevin fərdi keyfiyyətləri idi. O, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi.

Ulu öndər Heydər Əliyev böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi əvəzolunmaz şəxsiyyətdir. Həyatı boyunca ölkəmizin, o cümlədən, doğulduğu Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyən. H.Əliyev yüksək vəzifələrdə çalışdığı illərdə də heç vaxt Naxçıvanı unutmayıb, qədim diyarı daim diqqət mərkəzində saxlayıb.

Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu ilin iyul ayının 14-dən sonrakı dövrdə ölkəmizin, o cümlədən, Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib. 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrü dəyərləndirərək deyirdi: "Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət ulu öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970–1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən, Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı.

Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Ölkənin çətin bir dövründə Ulu öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu öndərin 1990-cı ilin ortalarında, Naxçıvanın çətin vaxtlarında bura qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda, həmin sessiyada dahi rəhbərin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da sadəcə sözün redaktəsi deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sisteminı sovetlər üstündə quran möhtəşəm bir ölkənin siyasi strukturunda dəyişiklik edilməsi demək idi. 1990-cı il noyabrın 17-də Ulu öndərimizin sədrliyi ilə keçirilən tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul olundu. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublika Ali Məclisinin sessiyasına sədrlik edən ulu öndərin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Beləliklə, Ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Heydər Əliyev gördüyü işlər, atdığı tarixi əhəmiyyətli addımlarla Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu. Blokada şəraitində olan Muxtar Respublikanın inkişafı və sabitliyinin davamlılığını təmin etmək üçün regional və beynəlxalq əlaqələrin formalaşdırılması, eləcə də inkişafı yönündə mühüm addımlar atıldı. Xüsusilə də Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırıldı. 24 mart 1992-ci il tarixində Ankarada Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolunun imzalanması bu baxımdan müstəsna əhəmiyyətə malikdir.

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991–1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu ulu öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən, bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər.

1993-cü il iyun ayının 9-da xalqın təkidi ilə Bakıya qayıdan ulu öndər təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də ulu öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

Ulu öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdandan sonra da Naxçıvanla bağlı gerçəkləşdirdiyi kompleks layihələr blokada şəraitində də inkişaf etməyin, tarixi nailiyyətlər qazanmağın örnəyini dünyaya sərgilədi. Bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilərək özünün ən yüksək mərhələsinə çatdı. Naxçıvan dövlət başçısının ötən müddətdə imzaladığı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarında daim əhatə olunmuş, bundan başqa, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında ayrıca Prezident Sərəncamı imzalanmış, nəhayət, muxtar respublika sosial-iqtisadi həyatının ayrı-ayrı sahələrinin və onun müxtəlif rayonlarının inkişafı ilə bağlı sənədlər qəbul edilmişdir. Bütün bunlar da Naxçıvan Muxtar Respublikanın hərtərəfli tərəqqisini təmin etmişdir. Prezident cənab İlham Əliyevin 2023-cü il iyun ayının 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı isə müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirdi.

Bəli, bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını daha da artırmışdır. Ulu öndər Heydər Əliyev siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini aydın görən xalqımız bu siyasəti yüksək dəyərləndirib və onun ətrafında daha sıx birləşib.

Ötən illərə baxdıqca bir daha əmin oluruq ki, ölkəmizdə dahi lider Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Dövlət Universitetinin prorektoru, dosent***

# "Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti"



**Mayın 10-da Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilmiş "Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti" mövzusunda tədbir keçirilib.**



YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, müasir dövlətçilik tariximizin taleyüklü məqamları və ən böyük uğurları, heç şübhəsiz, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Müdrik dövlət xadimi fəaliyyətinin bütün mərhələlərində milli maraqların qorunmasına, mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görüb və Azərbaycanın tərəqqisini təmin edib.

YAP Sədrinin müavini bildirib ki, müasir Azərbaycanın bugünkü reallığı Ulu öndərin milli və bəşəri məzmunlu ideyalarının əbədiyaşarlığını aydın ifadə edir. Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev xalqımıza şanlı dövlətçilik tarixinin ən möhtəşəm uğurlarını qazandırmışdır. Bu nailiyyətlərin zirvə nöqtəsi isə 30 il ərzində Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi və ölkəmizin suverenliyinin bərpasıdır.

Ulu öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir, ölkəmizin qarşısında yeni perspektivlər açılır. Azərbaycanın beynəlxalq mövqeyi, o cümlədən tarixi Zəfərimizin əsasları möhkəmləndirilir, Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işlərinə paralel olaraq Böyük Qayıdış prosesi uğurla həyata keçirilir, Azərbaycanın milli gücü gündən-günə artır.

Tahir Budaqov söyləyib ki, Heydər Əliyevin tarixiliklə müasirliyin vəhdətini yaradan ideyalarının tədqiqi və təşviqi qarşımızda duran çox mühüm vəzifədir. Ümummilli Liderin ideyaları əsasında Azərbaycana tarixi uğurlar qazandıran, onun dövlətçilik irsini yaşadan, xalqın inam və etimadını doğruldaraq yeni və müstəqil Azərbaycan quruculuğunu təmin edən YAP bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyət göstərir. "Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond adını daşıdığı dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyalarının tədqiqi və təşviqinə, siyasi irsinin xalqımızın milli-mənəvi sərvəti kimi gələcək nəsillərə ötürülməsinə dəyərli töhfələr verir. İstər ölkəmizdə, istərsə də respublikamızın hüdudlarından kənarda çoxşaxəli fəaliyyət göstərərək səmərəli layihələr reallaşdıran Heydər Əliyev Fondu həm yeni cəmiyyət quruculuğu və respublikamızın davamlı inkişafında, həm də Azərbaycanın müsbət beynəlxalq imicinin möhkəmlənməsində müstəsna rol oynayır", - deyə o qeyd edib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ulu Öndərin siyasi varisi İlham Əliyevin liderliyi ilə müasir dövlətçilik tarixinin möhtəşəm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə yekun vuraraq yeni dövrə qədəm qoyub.

Sonra Yeni TV-nin hazırladığı "Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti" filmi nümayiş etdirilib.

Baş nazirin müavini Əli Əhmədov bildirib ki, xalqımız Ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümlərini böyük coşqu və ehtiramla qeyd edir. O deyib ki, bu, bir tərəfdən xalqımızın Heydər Əliyevə, onun şəxsiyyətinə və tarixi xidmətlərinə verdiyi böyük qiymətin təzahürüdür, digər tərəfdən isə xalqın milli dövlətçiliyə ehtiramının ifadəsidir. Bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Digər çıxış edənlər - Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamov xalqımızın böyük Öndərimizə sonsuz məhəbbətinin əsaslarından, Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən, Ulu öndərin Azərbaycan gənclərinə hər zaman xüsusi diqqət və qayğı göstərməsindən, bir sözlə, Ümummilli liderin Azərbaycanın möhkəmlənməsi, milli maraqlarımızın, milli-mənəvi dəyərlərimizin qorunması və digər istiqamətlərdə xidmətlərindən danışıblar.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

*

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri mayın 10-da Fəxri xiyabana gələrək ulu öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

**XQ**

# "Heydər Əliyev və Naxçıvan"





**Mayın 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümündə Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi münasibətilə "Heydər Əliyev və Naxçıvan" mövzusunda konfrans keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Ulu öndərin şəhərin baş meydanındakı abidəsini ziyarət edib, abidə önünə güllər düzüb, xatirəsinə ehtiamlarını bildiriblər.

Cəlil Məmmədquluzadə adına Dövlət Milli Dram Teatrında keçirilən məclisdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ümummilli liderin dövlətçilik fəaliyyətindən danışarkən böyük ömrün 1990–1993-cü illəri əhatə edən Naxçıvan dövründən xüsusilə bəhs edib. Vurğulayıb ki, həmin illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən dahi şəxsiyyət bütövlükdə müstəqil dövlətçiliyimizin əsaslarını işləyib hazırlayıb.

Fuad Nəcəfli qeyd edib ki, Ümummilli liderin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazılıb. Bu dövrdən etibarə ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoyub. Bu gün Azərbaycan dünyada sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Qələbə Xalq–Lider birliyinin təntənəsidir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov ulu öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısında misilsiz xidmətlərindən bəhs edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev yeni faktlar, yeni reallıqlar təşkil edən "Heydər Əliyev və Naxçıvan" mövzusunu ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərinin çoxtərəfli öyrənilməsi baxımından yüksək qiymətləndirib.

Konfransın davamında Naxçıvan televiziyasının hazırladığı "Heydər Əliyev və Naxçıvan" filmi təqdim olunub.

**XQ**

# Parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələ müzakirə olunub

**Milli Məclisin sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Azərbaycandakı səfiri Tomas Ştəli ilə görüşüb.**



Görüşdə ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi məsələləri nəzərdən keçirilib, dostluq və əməkdaşlıq ruhunda inkişaf edən ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən razılıq ifadə olunub.

Söhbət zamanı iki ölkə arasında əlaqələrin mühüm bir istiqaməti olan parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti ilə bağlı fikirlər də səsləndirilib. Milli Məclisin sədri Sahibə Qafarova özünün 2022-ci ildə İsveçrə Konfederasiyasına rəsmi, cari ildə isə işgüzar səfərlərini xatırladıb.

Görüşdə, həmçinin diqqətə çatdırılıb ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin vacib bir istiqamətini energetika sahəsində əməkdaşlıq təşkil edir. Azərbaycan və İsveçrə bu istiqamətdə uğurlu əməkdaşlıq edir. Azərbaycanın geniş alternativ enerji mənbələrinə malik olduğunu nəzərə alaraq, bu istiqamətdə də əməkdaşlığın həyata keçirilə biləcəyi ilə bağlı fikirlər səsləndirilib.

Söhbət zamanı regionda mövcud olan vəziyyət, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi nəhəng bərpa və quruculuq işləri barədə də məlumat verilib. Bu ərazilərdə həyata keçirilən yenidənqurma işlərində İsveçrə şirkətlərinin də iştirakı məsələləri müzakirə olunub.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# AHİK Ulu öndərin diqqət və qayğı ənənəsinə sadiqdir



**Mayın 10-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası müasir müstəqil Azərbaycanın banisi Ulu öndər Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə respublikanın regionlarında yaşayan 4 min 200 aztəminatlı ailə, o cümlədən şəhid və qazi ailələri üçün ərzaq məhsulları yüklənmiş avtomobil karvanı təşkil edib.**

Yolasalma mərasimində AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev jurnalistlərə bildirib ki, bu gün ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 101 ili tamam olur. AHİK və üzv təşkilatlar da bu münasibətlə müxtəlif tədbirlər təşkil edib.

Ulu Öndərin doğum gününün həm dövlətimiz, həm də xalqımız üçün əlamətdar olduğunu deyən Səttar Möhbalıyev qeyd edib: "Biz Heydər Əliyevin böyüklüyünü və əzəmətini zaman keçdikcə daha dərindən dərk edir, dahi şəxsiyyətin ömrünü Vətənə və xalqa sədaqətli xidmət missiyası kimi dəyərləndiririk. Odur ki, belə əziz bir gündə istədik ki, Ulu öndərimizin bizə miras qalan qiymətli və müqəddəs tövsiyələrinə sadiq qalaraq şəhidlərimizin ailə üzvlərini, qazilərimizi bir daha yad edək, onlara maddi-mənəvi dəstək olaq. Bu, hər birimiz üçün ali missiyadır".

Dünən Naxçıvan Muxtar Respublikasında yaşayan 1250 qayğıya ehtiyacı olan ailəyə də bayram sovqatları çatdırılıb. Sahə həmkarlar ittifaqları və onların yerli təşkilatları da bütün bölgələr üzrə aztəminatlı ailələrə ərzaq yardımları göstəriblər.

**XQ**

# QHT-lərimiz Keniyada BMT konfransında

**Keniyada BMT-nin Vətəndaş Cəmiyyəti Konfransında iştirak edən Azərbaycan QHT təmsilçiləri təbii fəlakət nəticəsində həyatını itirmiş insanların xatirəsinə təşkil olunan ağacəkmə aksiyasında iştirak ediblər.**



COP29 Təşkilat Komitəsinin üzvü, "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva vurğulayıb ki, Keniyada baş vermiş iqlim hadisəsi qlobal iqlim dəyişmələrinin fəsadlarını aydın şəkildə nümayiş etdirir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri, "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədr müavini Amin Məmmədov qeyd edib ki, Azərbaycanda 2024-cü "Yaşıl Dünya Naminə Həmrəylik ili"dir, bu aksiyada iştirak Azərbaycanın həm də yaşıl dünya üçün qlobal mübarizəsinin bir rəmzi kimi qəbul oluna bilər.

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədr müavini Roza Səfixanlı, Gənclər Təşkilatları Milli Şurasının sədri Rəfael Hacıbəyli təhlükəsiz dünyanın hamı üçün vacib olduğunu diqqətə çatdırıblar.

# Kursantların Ulu öndərin ad gününə fləş-mob hədiyyəsi



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə təməli 1971-ci ildə Ulu öndər tərəfindən qoyulan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları əbədiyaşar dahi liderin ölməzliyini tərənnüm etdirən fləş-mob hazırlayıblar.**

Müdafiə Nazirliyindən mediaya bildirilib ki, Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində – Heydər Əliyev adına Hərbi İnstitutda, Hərbi liseylərdə, Bakı, Naxçıvan və Gəncə şəhərlərindəki hərbi kolleclərdə və Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində təhsil almaq arzusunda olanlar sənədlərini mayın 30-dək təqdim edə bilərlər.

**XQ**

# Paşinyanın "Dünyanın kəsişməsi" və AİI-ni şantaj cəhdi

(əvvəli 1-ci səhifədə)

Bəli, Ermənistanın "Dünyanın kəsişməsi" ideyasını ortaya atmaqda məqsəd 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatı yerinə yetirməkdən boyun qaçırmasıdır. Prezident İlham Əliyevin sözügedən forumda bildirdiklərinə nəzərən deyə bilərik ki, rəsmi İrəvanın tutduğu yol həm də Azərbaycan–Ermənistan sülh prosesi baxımından zərərli tendensiyadır. Bu yerdə dövlətimizin başçısının səsləndirdiyi daha bir fikrə diqqət yetirək: "İndi Ermənistan 3 ildən artıqdır ki, bu müddəanı faktiki olaraq pozur və yenə də deyirəm, onlar bunu özləri imzalayıblar. İndi onlar bu paraqrafdan, necə deyərlər, canlarını qurtarmaq istəyirlər. Lakin, bu, mümkün deyil. Onlar nə edirlər? Onlar, sadəcə olaraq, Naxçıvan Muxtar Respublikası ilə quru yolu əlaqəsini qurmaq imkanını bloklayırlar. Bu davranış, sözsüz ki, çox məyusedicidir. Üçtərəfli bəyanatın necə imzalanması ayrı söhbətin mövzusudur. Şəraitin necə olduğunu da hər kəs bilir. Amma Ermənistan baş nazirinin imzası var idi və buna hörmət edilməlidir".

N.Paşinyan imzasına hörmətsizliyini Moskva səfəri ərəfəsində keçirdiyi mətbuat konfransında da ortaya qoymuşdu. O, üçtərəfli bəyanatın qüvvəsini tamamilə itirdiyini bildirmişdi. Sədrlik etdiyi iclasdakı çıxışında "Dünyanın kəsişməsi" ideyasını qabartmaqla isə sənədə etinasız yanaşdığını yenidən sübuta yetirdi. Beləliklə, obrazlı desək, oturduğu budağı kəsməkdə israrlı göründü. Fikrimizi izah etmək üçün Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun ötən ay bildirdiklərinə nəzər salaq.

Məsələn, Lavrov demişdi ki, AİI-də proporsional olaraq Ermənistan ən çox qazanandır. Ardınca konkret rəqəmləri açıqlamışdı. O, Ermənistan iqtisadiyyatının 35 faizinin AİI-də iştirak hesabına formalaşdığını vurğulamışdı: "2023-cü ildə Ermənistanın ticarət dövriyyəsi 20 milyard dollar təşkil edib və bunun 37 faizi AİI-nin, 13 faizi Avropa İttifaqının, 3 faizi ABŞ-ın payına düşüb. Ermənistan kiçik ölkə olmaqla, AİI-yə digər ölkələrə nisbətən daha az töhfə verir. O cümlədən, maliyyə töhfələri azdır. Ancaq, eyni zamanda, qərarlar qəbul edildikdə, səs verəndə Rusiya Federasiyası da daxil olmaqla, hamı ilə tamamilə bərabər hüquqlara malikdir... "Qazprom" Ermənistana 1 min kubmetr qazı 177 dollar satır. Qərbdə buna iki-üç dəfə artıq pul ödəyirlər. Əgər Ermənistanı öz qazı ilə qızdırmaq istəyirlərsə (Qərbi nəzərdə tutur – red.), onda bilmirəm necə olacaq... Atom elektrik stansiyasını bağlayıb, onu modul reaktorlarla əvəz etmək istəyirlərsə... Ümid edirəm ki, ermənilər "Metsamor" atom elektrik stansiyasında hasil edilən enerjinin əhəmiyyətini anlayırlar".

Bəli, Lavrovun söylədikləri Ermənistanın AİI müstəvisindəki qazanclarıdır. Paşinyanın qurumun Ali Şurasının iclasında "Dünyanın kəsişməsi" xüsusunda dedikləri isə həm təşkilata əlavə, özü də qəbuledilməz gündəm sırımaq cəhdidir, həm də bildirdiyimiz kimi, üçtərəfli bəyanatı heçə saymaqdır. Nədənsə, erməni baş nazir səbəb-nəticə əlaqələrinə diqqət yetirmir. Məsələn, o, fərqinə varmır ki, Rusiyanın hakim rol oynadığı Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsi ilə aranı pis edib AİI platformasında rahat hərəkət mümkünsüzdür. O, bu amilə önəm



vermədiyi kimi, eyni zamanda, anlamır, yaxud anlamaq istəmir ki, üçtərəfli bəyanatı kənara atıb "Dünyanın kəsişməsi"nin üzərində dayanmaq siyasi avantüradan başqa bir şey deyil.

Məlum olduğu kimi, hazırda Ermənistan AİI-yə rotasiya qaydasında rəhbərlik edir. Bu, ötən il qurumun Sankt-Peterburqda keçirilmiş zirvə toplantısında rəsmiləşmişdi. Paşinyan məhz həmin vaxt etdiyi çıxışla AİI-ni Ermənistanın oyunbazlıq meydanına çevirəcəyinin anonsunu vermişdi. Baş nazir təşkilatın siyasi məqsədlər naminə alətə çevrilməməsinin vacibliyindən söz açmışdı. Yəni, Ermənistan siyasi baxımdan Rusiyaya qarşı hər şeyi edəcək, amma qarşılığında ona iqtisadi planda heç bir təsir və ya təzyiq göstərilməməlidir. Nikol eyni kursu yenə də davam etdirməkdədir.

Əslində, rəsmi İrəvanın anti-KTMT xəttindən, qurumu boykot etməsindən, Paşinyanın ölkəsinin oradakı fəaliyyətini dondurduğu barədə bəyanatlarından sonra Ermənistanın AİI müstəvisini hələ də aktiv saxlaması bir qədər qəribə görünür. Bir çox ekspertlər vəziyyətə təxminən belə izahat verirlər: Ermənistan rəhbərliyi AİI-nin əhəmiyyətini anlayır. Anlayır ki, ölkənin hazırkı iqtisadi inkişaf tempi qurumda təmsilçiliyin, konkret desək, Rusiyanın hesabınadır. Rəsmi İrəvan isə anti-Rusiya xəttini yerinə yetirir. Ona KTMT kimi AİI-ni də gözdən salmaq lazımdır. Ancaq Ermənistana vaxt udmaq da vacibdir. Vaxt udub Qərbdən gələn gəlirlə AİI-də təmsilçiliyin mənfəətlərini eyniləşdirmək. Yəni, indiki durumda paşinyanlı Ermənistan, faktiki olaraq, təşkilatın içərisinə qoyulmuş saat mexanizmli bombadır. Nikol AİI-ni də KTMT kimi Ermənistan üçün tam faydasız qurum qismində göstərmək istəyir. Hazırda mövcud istiqamətdə zəmin hazırlayır.

Əgər Rusiyadan sərt addımlar gələcəyi təqdirdə, məzlum, Moskvanın təzyiqləri qarşısında tab gətirməyə çətinlik çəkən İrəvan obrazı yaradılacaq. Bu, kollektiv Qərbin anti-Rusiya ritorikası baxımından önəmlidir. Müvafiq olaraq, Ermənistanı müdafiə məqsədli daha geniş layihələr dövriyyəyə girəcək. Deməli, Paşinyan həm xidməti qarşılığındakı mükafatını alacaq, həm də özünün Qərbə sadiqliyini nümayiş etdirəcək.

Bəli, bütün bunlara görə N.Paşinyan AİI-dəki çıxışında "Dünyanın kəsişməsi"ni, daha doğrusu, indiki məqamda Rusiyaya zidd məsələni qaldırır. O, çox yaxşı bilir ki, təşkilata üzv dövlətlər sözügedən təşəbbüsü dəstəkləməyəcəklər. Əvvəla, qurumdakılar başa düşürlər ki, "Dünyanın kəsişməsi" Azərbaycanın "Zəngəzur dəhlizi" məntiqinə qarşıdır. O məntiqə ki, Naxçıvana maneəsiz yolun yaradılmasını hədəf seçir. Üçtərəfli bəyanata əsasən, həmin yolda təhlükəsizliyi Rusiya Federal Təhlükəsizlik Xidməti təmin etməlidir.

*

İqtisadi məsələlərdən və Ermənistanın AİI-ni iflic qurum kimi göstərmək istəklərindən söz düşmüşkən, N.Paşinyan AİI Ali Şurasının iki gün əvvəlki iclasında ötən il Sankt-Peterburqda söylədiklərini yenidən təkrarladı. Bildirdi ki, mövcud olduğu on il ərzində qurum üzv ölkələrin iqtisadiyyatları naminə onlar arasında sıx iqtisadi qarşılıqlı fəaliyyət üçün mühüm platformaya çevrilib. Erməni baş nazir ardınca vurğuladı ki, guya, AİI-nin normativ-hüquqi bazası formalaşmaqda davam edir və bu proses tam başa çatmaqdan çox uzaqdır. Paşinyan nə üçün işləkliyi sübuta yetirilmiş və sınaqdan çıxmış mexanizm barədə belə düşünür? Səbəb çox sadədir. O deyir ki, AİI-nin hazırkı mexanizminin sırf iqtisadi məntiq çərçivəsində formalaşması vacibdir: "Yalnız tərəfdaş ölkələrin maraqlarına hörmət və hər bir üzv dövlətin mənafeyinə cavab verən konstruktiv həllərin axtarışı əsasında biz AİI-nin fəaliyyətinin effektivliyini qoruyub saxlaya biləcəyik. Biz səylərimizi sosial-iqtisadi inkişafın milli prioritetlərini nəzərə almaq üçün cəmləşdirməyi zəruri hesab edirik".

Deməli, Paşinyan AİI-nin effektivliyinin qorunub saxlanılması kimi sərsəm məntiqi irəli sürür. Guya, qurumun effektivliyi az idi. Bu, o deməkdir ki, İrəvan istənilən an onun fəaliyyətsizliyi barədə fikir yürüdə bilər. Əslində, Nikol çıxış yox, şantaj edir. Daha sonra baş nazir enerji resursları sahəsində vahid tənzimləmə sistemləri ilə ümumi bazarın formalaşdırılması prosesinin xeyli ləngidiyini vurğulayır. Yəni, Paşinyan ölkəsi üçün heç bir siyasi maraq və mənafelərdən asılı olmayan enerji təminatından söz açır. Yenə də eyni məntiq – AİI-də təmsilçilik Ermənistana rahat yaşamaq imkanı qazandırmalıdır. Elə bir imkan ki, qərbyönümlü siyasi xətti götürməsinə görə ölkəni zərərə salmasın. Nikolun ümumi elektrik bazası xüsusunda səsləndirdikləri də mövcud mərama söykənir. Əlbəttə, onun baxışı qəbuledilməzdir.

*

Sonda bir daha Paşinyanın AİI-nin prioritetlik gündəliyinə sırımaq istədiyi "Dünyanın kəsişməsi" ideyasına qayıdaq. Nikol məsələni qurum ölkələri arasında nəqliyyat infrastrukturunun inkişafı ritorikası, ticarət dövriyyəsinin artmasına əlavə təkan verəcək amil kimi ortaya atır. Əlbəttə, bu, manipulyativ xətdir. Çünki Azərbaycan AİI ölkələrinin hər biri ilə dərin iqtisadi əməkdaşlıq konturlarına malikdir və indiki məqamda onlar ölkəmizin həmin əməkdaşlığın daha da dərinləşdirilməsi üçün irəli sürdüyü təşəbbüsə önəm verirlər. AİI-yə üzv dövlətlər Azərbaycanın Cənubi Qafqazdakı liderlik statusuna etimad göstərirlər. Onlar sınaqlardan çıxmış, inam və etibar qazanmış müstəvini özünü ayaqda tuta bilməyən Ermənistanın avantürizminə qurban vermək istəməzlər.

Digər tərəfdən, yenə üçtərəfli bəyanatın üzərində dayanmaq ehtiyacı yaranır. Ortaya elementar sual çıxır: Əgər Ermənistan həmin bəyanata əməl etmirsə, yəni, Rusiyanı heçə sayırsa, o zaman nəyə görə AİI ölkələri təşkilatda hakim rol oynayan Moskvanın maraqlarını saymazdan gəlib "Dünyanın kəsişməsi"nə "hə" desinlər?

***Ə.CAHANGİROĞLU***
***XQ***

Replika

# Təhrif

## yaxud "Armenpress"in "Qara dəniz" klubuna sırıdığı sərsəmlik

**Məlum olduğu kimi, Ermənistan dövləti bütün səviyyələrdə "Dünyanın kəsişməsi" təşəbbüsünü qaldırır və onun yaşadığımız Cənubi Qafqaz regionu ilə bağlı önəmini vurğulamağa çalışır. Əlbəttə, bu cəhdlər Azərbaycanın 44 günlük müharibədən sonra Naxçıvana asan yol məsələsində irəli sürdüyü "Zəngəzur dəhlizi" ideyasına qarşı çıxmaq məqsədini daşıyır. Avrasiya İqtisadi İttifaqı Ali Şurasının Moskvada iki gün əvvəl keçirilmiş iclası da bu baxımdan istisna olmadı. Baş nazir Nikol Paşinyan orada "Dünyanın kəsişməsi"ndən söz açaraq, onu mühüm iqtisadi paradiqma kimi vurğuladı.**

Lakin Nikolun Qərbdəki dostlarına arxalanaraq uydurduğu avantüranı təbliğ edən təkcə erməni rəsmiləri deyil. Görünür, "Armenpress" informasiya agentliyi də bu işə girişib. Özü də təhrif yolu ilə. Media qurumunun Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) baş katibi Lazar Komaneskudan götürdüyü müsahibə belə deməyə əsas verir. "QDİƏT-in baş katibi əməkdaşlığın vacibliyini vurğuladı və "Dünyanın kəsişməsi" təşəbbüsünü alqışladı" sərlövhəli müsahibənin mətnində L.Komanesku "Dünyanın kəsişməsi" ifadəsini bir dəfə də olsun dilə gətirməyib. Üstəlik, diqqət yetirəndə görürsən ki, o, jurnalistin sualına cavab olaraq, yalnız ümumi ifadələrlə məhdudlaşıb. Cənab baş katibin konkret nələri dediyini diqqətə çatdıracağıq. Hələlik isə bir məqamı vurğulayaq.

Deməli, Ermənistan gələn ildən rotasiya qaydasında QDİƏT-ə sədrlik edəcək. "Armenpress" bu amilə söykənərək bildirir ki, Cənubi Qafqazda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin edilməsində regional və transsərhəd əməkdaşlıq vacibdir. Ermənistan hökuməti Hayastan və qonşu ölkələr arasında kommunikasiyaları inkişaf etdirmək məqsədi daşıyan "Dünyanın kəsişməsi" təşəbbüsünü hazırlayıb və elan edib. Təşəbbüs suverenlik və milli yurisdiksiya, eləcə də bərabərlik və qarşılıqlılıq prinsiplərinə əsaslanaraq, Fars körfəzi, Qara və Xəzər dənizlərini birləşdirir ki, bu da regiondakı bütün ölkələrə böyük kommersiya faydası gətirəcək. Media orqanının sualı isə belədir: Bu iddialı layihəni necə qiymətləndirərdiniz?

İndi isə L.Komaneskunun cavabına diqqət yetirək. QDİƏT-in baş katibi deyib ki, təmsil olunduğu təşkilat üçün regionun həm iqtisadi, həm mədəni, həm də siyasi problemlərinin həlli vasitəsi kimi əməkdaşlığın real alternativinin olmadığı aydındır. İndiyə qədərki təcrübə açıq şəkildə göstərdi ki, istər ikitərəfli, istərsə də çoxtərəfli güclü iqtisadi əlaqələr və əməkdaşlıq təkcə iqtisadi inkişaf baxımından faydalı olmayıb, həm də sabitliyə, qarşılıqlı anlaşmaya və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə, yəni təhlükəsizliyə töhfə verib. "QDİƏT-in əsasını təşkil edən prinsiplər bunlardır. İstər iqtisadi, istərsə də siyasi aspektlərdə bu təşkilatın mövcudluğunun əsasını təşkil edən iqtisadi əməkdaşlıq, həqiqətən, üzv dövlətlər arasında diqqətlə öyrənilməyə layiq olan səmərəli əlaqələr qurulmadan həyata keçirilə bilməz. Ermənistanın QDİƏT-ə qarşıdakı sədrliyi bu baxımdan yaxşı imkan yarada bilər", – deyə L.Komanesku fikrini tamamlayıb.

Bir daha görünür ki, QDİƏT baş katibinin cavabı heç də "Dünyanın kəsişməsi"ni təqdir etmək ruhunda deyil. O, sadəcə diplomatik nəzakət göstərərək, Ermənistanın təşkilata gələcək sədrliyi məsələsində pozitiv fikirlər səsləndirir. "Armenpress" isə həmin fikirləri baş katibin, ümumən, QDİƏT-in "Dünyanın kəsişməsi"nə dəstəyi kimi təqdim edir. Əlbəttə, bu media prinsiplərindən sui-istifadədir.

"Armenpress"in, yəni Ermənistanın dövlət informasiya agentliyinin yanaşması həm də onu göstərir ki, rəsmi İrəvan QDİƏT-i də özünün avantürizm plasdarmına çevirməyi düşünür. Əvvəldə də bildirdik ki, hazırda Paşinyan bu baxımdan AİI-ni hədəf seçib.

***R.ƏVƏZ***
***XQ***

Köşə

# Laçın mənə nə dedi?

**Siz heç gözəlliyə tamaşa edib ağlamısınızmı? Laçın məni ağlatdı. Amma bunadək ilk dəfə çıxdığım Zəfər yolundakı mənzərələrdən təsirlənmişdim. Bir-birini əvəzləyən eniş və yoxuşları gördükcə, qəhrəman əsgərlərimizin necə böyük fədakarlıqla irəliləmələrini təsəvvürə gətirmişdim. Görəsən, hansı ruh idi onların bu çətinliklərin öhdəsindən gəlmələrinə güc verən? Cavablarım çoxdur. Ancaq onları ümumiləşdirib yalnız birinin üzərində dayanacağam. O, sahiblənmək ruhu idi doğma torpağa, el-obaya, kənd-kəsəyə, yurd-yuvaya sahiblənmək ruhu.**



**Əvəz Rüstəmov**
**evez.rustemov@gmail.com**

Zəfər yolundakı gözəlliklər bir-birini əvəzləyirdi. Onlara tamaşa etdikcə içimdə qəribə hiss yarandı. Əvvəl o hissi ifadə edə bilmirdim. Daha doğrusu, ifadə etməkdə çətinlik çəkirdim. Bəlkə mənzərələrin sehrinə dalmışdım. Laçına çatanda isə gözümdən süzülən yaşla bərabər, beynimi qurcalayan o fikri də sakit səslə, heç kəsin eşitməyəcəyi, ancaq bədənimin hər əzasına hoparaq hayqıracaq tərzdə dilə gətirdim. Əslində, öz-özümə suallar ünvanladım: Belə yerləri erməniyə vermək olardımı? Hətta, bir qədər də ötkəm şəkildə: Necə olub ki, otuz ilə yaxın müddətdə bu yerlərə həsrət qalıb yaşamışıq? Necə dözmüşük?

Həmin an yadıma istedadlı jurnalist və şair, dəyərli dostum İlqar İlkinin Şuşa səfəri təəssüratları əsasında qələmə aldığı "Əsgərlərimizi Şuşaya kimlər qaldırmışdı?" sərlövhəli yazıdakı bir fikir düşdü. Həmin fikri olduğu kimi təqdim edirəm: "Biz Şuşayla cəzalandırılmışdıq. Bu şəhər bizim qiyamətə qədər ən dəhşətli günahımız idi. Bu, elə bir günah idi ki, Allah bağışlasa belə, onun bizi bağışlaması qədər rəzalət düşünmək olmazdı".

İlqar yazısında Şuşanı azərbaycanlı ruhunun ümumiləşdirilmiş obrazı kimi tərənnüm etmişdi. Əminəm, fikirləri həm də Laçın, Kəlbəcər, Füzuli, Qubadlı, Cəbrayıl və digər otuz il düşmən tapdağı altında qalmış yurd yerlərimizin itirilməsindən doğan yanğının ifadəsidir. Həqiqətən, otuz il Allahın ona görə bizi bağışlamasının rəzalət olduğu günahı işlədərək yaşamışıq. Amma yadıma yaşamayanlar, daha doğrusu, yaşaya bilməyənlər düşdü. Laçının dolaylarında hərəkət edərkən, qeyri-ixtiyari mərhum müğənnimiz Məhəbbət Kazımovun böyük yanğı ilə oxuduğu "Laçınım"ı da zümzümə etdim. Bu yanğı ilə kimlər əbədiyyətə qovuşmadılar ki? Doğma el-oba həsrətindən çadır şəhərciklərində, vaqonlarda canını tapşıranlarımız oldu.

İndi itirdiklərimizi bərpa etmək vaxtıdır. Bu mənada Laçında və Şuşada, eləcə də Qarabağımızın bu istiqamətində gördüyüm mənzərələrdən heyrətləndim. Bəli, biz Qarabağa, sözün əsl mənasında, sahiblənirik. Hər yerdə bunun ən müxtəlif mənzərələrinin canlanmasından qürur hissi keçirməyə dəyər.

Sahiblənməyimizin böyük ölçüdə fərdi xüsusiyyət daşıdığı barədə də fikrə daldım. Son iki yüz ildə evimizə, qadınımıza, övladımıza, həyət-bacamıza sahibləndik, lokallıqdan çıxa bilmədik. Nəticədə İlqar demişkən, Şuşa ilə cəzalandırıldıq. Elə Laçınla da, Kəlbəcərlə də, Ağdamla da... İndi iki yüz ilin mənfi stereotiplərindən uzaqlaşmaq vaxtıdır. İndi zaman bizim xeyrimizə işləyir. Bunu mənə Laçın dedi. Dedi və gözümdən süzülən yaşı sildi ki, gözəlliklərini daha yaxşı görüm.

Ancaq istisnalarımız da olub və onların sayəsində həyata tutunmuşuq. Uca Tanrı böyük, insanımızı çiyinlərində daşımağı bacaran şəxsiyyətlər yetişdirmək bacarığını xalqımızdan əsirgəməyib, bizə lütf göstərib. Qətiyyətlə deyə bilərik ki, ən ali istisnamız ulu öndər Heydər Əliyevdir. O böyük şəxsiyyətin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi və Qarabağın bizə məxsusluğunu göstərən tədbirlər barədə eşitdiklərimi, oxuduqlarımı yada saldım. Axı məhz onun rəhbərliyə gəlişi ilə Azərbaycan torpaqları hesabına ermənilərə ərazi hədiyyələrinin qarşısına sədd çəkilmişdi.

Qarabağın Ermənistana verilməsi ilə bağlı qaldırılan "təşəbbüsləri" sıradan çıxaran Heydər Əliyev bölgəyə sahiblənmə xüsusunda böyük işlər gerçəkləşdirmişdi. Deməli, Ulu öndərin hakimiyyət olimpindən uzaqlaşdırılması ilə erməni millətçilərinin Qarabağ avantürasının start götürməsi heç də təsadüf deyilmiş. Nəticədə itirdik və itirdiklərimizi bərpa etmək yolunda otuz ilə yaxın dözdük, səbr etdik. Bu, həm də, Qarabağa sahiblənmək ruhumuzun sınağına çevrilmiş, acıları şirinlərlə əvəzlədiyimiz mərhələ oldu.

Zaman göstərdi ki, Qarabağa əvvəlki qaydada sahiblənmək mümkünsüzdür. Yəni, ermənilərin yaşadıqları Qarabağa sahiblənmək müşküldür. Nə qədər sərt səslənsə də, reallıq budur. Çünki erməniləri Qarabağın bizim olması üçün etdiyimiz cəhdlər puça çıxdı. Gördük ki, bütün beynəlmiləl, multikultural, tolerant baxışlarımız erməni qövmünə münasibətdə keçərsizdir. Zəfər yoluna çıxanda yaşıllıqlar içində utanırmış kimi gizlənmiş kəndlərimizin xarabazarlıqları da bunu dedi. Artıq tam məsuliyyətimizlə anlayırıq ki, erməni qövmünün başımıza gətirdiyi bəlalar vaxtilə buraxdığımız səhvlərə görə üzümüzə vurulan sərt şapalaqdır. Baxın, o qövm Qarabağa əsl sahiblənməyimizə dözmədi, şələ-şüləsini toparlayıb aradan çıxdı...

Bəli, biz özümüzə məxsus olanı sahiblənirik. Ən böyük örnəyimiz Prezident İlham Əliyevdir. Heydər Əliyev şəxsiyyətinin ideoloji məfkurə halına gətirdiyi Qarabağ davasına qlobal məzmun qazandıran, həmin davanı illər ərzində diri tutan, barışmazlıq, dönməzlik aşılayan, nəhayət, doğma torpağa sahiblənmək trayektoriyasını ustalıqla cızan odur. Söhbət əbədi sahiblənməkdən gedir. Otuz ilə yaxın davam etmiş işğal dövrünün ən böyük dərsi də məhz budur. Laçının və Şuşanın timsalında özümüzə məxsus olanlara sahiblənməyimizin örnəklərini görmək xoşbəxtlikdir. Uca Tanrı xalqımızı qorusun!

# Ceyhun Bayramovun qazaxıstanlı həmkarı ilə görüşü



Xarici işlər naziri Ceyhun Bayramov mayın 10-da Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu ilə görüşüb.

Görüş zamanı Azərbaycan ilə Qazaxıstan arasında mövcud strateji tərəfdaşlıq münasibətlərindən irəli gələn məsələlər, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, habelə sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Azərbaycanın xüsusilə son dövrlərdə Mərkəzi Asiya ölkələri, o cümlədən Qazaxıstanla genişlənən yüksək səviyyəli münasibətlərdən məmnunluq ifadə olunub.

İqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar və digər istiqamətlər üzrə ikitərəfli tərəfdaşlığa yanaşı, regional və beynəlxalq platformalar, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın geniş perspektivlər vəd etdiyi diqqətə çatdırılıb.

Cari ildə ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri ilə bağlı qarşı tərəfi ətraflı məlumatlandıran nazir COP29-un öz növbəsində əməkdaşlıq üçün yeni platforma olduğunu qeyd edib.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, imkan və çağırışlardan bəhs edən nazir Ceyhun Bayramov Azərbaycan ilə Ermənistan arasında ikitərəfli sülh prosesinin irəlilməsi istiqamətində göstərdiyi dəstəyə və fəallığa görə Qazaxıstan tərəfinə təşəkkür edib. Delimitasiya komissiyaları arasında əldə olunmuş son razılığın fonunda indiki danışıqların da öz növbəsində prosesə töhfə verəcəyinə dair inam ifadə olunub.

**XQ**

# Bakı Təşəbbüs Qrupunun beynəlxalq fəaliyyəti Afrika mətbuatında

**Afrika QHT-lərini birləşdirən platformanın fəal üzvü, nigeriyalı jurnalist Dare Akogun Bakı Təşəbbüs Qrupunun beynəlxalq fəaliyyəti ilə bağlı məqalə dərc edib.Məqalə KİV ilə yanaşı, Afrika QHT platformasının sosial şəbəkə qruplarında da yayılıb.**



Məqalədə qeyd olunur ki, Bakı Təşəbbüs Qrupu və müstəmləkəçiliyə qarşı mübarizə aparan siyasi hərəkatlar Fransa hökumətinin koloniyalarında assimilyasiya siyasətini, müstəmləkəçilik və onun müasir təzahürlərinə qarşı mübarizə məqsədilə gücləri səfərbər ediblər.

Konfrans yerli mədəniyyətin qorunması və maarifləndirilməsi üzrə gələcək layihələr üçün mühüm başlanğıc nöqtəsi kimi qiymətləndirilir. O, Bakı Təşəbbüs Qrupu və Fransız Polineziyasının Tavini Huiraatira siyasi partiyası arasında imzalanmış memorandumun əhəmiyyətinə də toxunaraq, gələcək əməkdaşlıq üçün perspektivlərin ümidverici olduğunu bildirir.

Məqalənin sonunda Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas Abbasova istinad edilərək, təşkilatın müstəmləkəçiliyin təsirinə məruz qalan xalqların səsini gücləndirmək öhdəliyi xüsusi qabardılır: "BTQ-nin bu öhdəliyi Fransanın xaricdəki müstəmləkələrinə azadlıq uğrunda mübarizədə davamlı dəstəyini və neokolonial təcrübələrə qarşı qəti mövqeyini əks etdirir.

**XQ**

# Almatı təkanı sülh marafonunu finişə çatdıra biləcəkmi?

(əvvəli 1-ci səhifədə)

## Qazaxıstana nikbin notlarla

Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin 3 aylıq fasilədən sonra Almatıda baş tutacaq görüşü ərəfəsində Ermənistan hökuməti ikitərəfli münasibətlərin normallaşması kontekstində kifayət qədər nikbin bəyanatlar verdi. Almatı görüşü ilə bağlı ümidverici açıqlamalar baş nazirin, spikerin və xarici işlər nazirinin dilindən səsləndi. Yəni, Ermənistan siyasi isteblişmenti hamıya sülhün tezliklə əldə olunacağı barədə mesaj verdi. Bu sırada spiker Alen Simonyanın bəyanatını ayrıca qeyd etməliyik. O, jurnalistlərin tərəflər arasında əsas fikir ayrılığının nədən ibarət olması ilə bağlı sualını cavablandırarkən dedi ki, İrəvanın Bakı ilə heç bir fikir ayrılığı yoxdur: "Biz nöqtəbənöqtə, addımbaddım irəli gedirik. Yəni biz bu müəyyən suallar doğuran məqamlara çatanda onları müzakirə edirik. Bu isə beynəlxalq hüquq və prinsiplər əsasında, ardıcıl şəkildə edilir. İkibaşlı şərhə imkan verməmək üçün, bu, çox vacibdir". Ardınca Simonyan Azərbaycan–Ermənistan sərhədində delimitasiya prosesinin tez başa çatmasının vacibliyini də vurğulayıb.

Eyni nikbin notlara köklənmiş açıqlamanı xarici işlər naziri Ararat Mirzoyan macarıstanlı həmkarı Peter Siyarto ilə İrəvanda keçirdiyi mətbuat konfransında verdi. O, "Almatı danışıqlarının nizamlanma yolunda irəliyə doğru bir addım olacağına" ümid etdiyini bildirib: "İnanırıq ki, Almatı danışıqlarında Azərbaycanla öhdəliklərimizi müzakirə etmək və onları yazılı şəkildə təsdiqləmək imkanımız olacaq. Hər iki tərəf öz öhdəliklərinə sadiq qalacaq və işçi qruplar Ermənistan və Azərbaycan üçün vacib məsələlərin detallarının müzakirəsini davam etdirəcəklər". Kommunikasiyaların qarşılıqlı açılması mövzusuna da toxunan A.Mirzoyan bununla bağlı hələlik ümumi razılığın əldə edilmədiyini, amma Ermənistanın niyyətinin heç bir məhdudiyyət qoyulmadan ticarət yollarını açmaq olduğunu deyib: "Mən Ermənistanın sülh gündəliyinə sadiqliyini bir daha təsdiq etmək istəyirəm. Biz danışıqları konstruktiv və xoş niyyətlə aparırıq. Əminik ki, sülhün əldə olunması, həqiqətən də, hər iki ölkənin və xalqın maraqlarına cavab verir. Almatı danışıqları ilə bağlı ehtiyatlı nikbinliyimi bildirmək istəyirəm".

Beləliklə, Paşinyan və komandasının bəyanatlarından bu nəticəyə gəlmək olar ki, danışırların indiki mərhələsində İrəvanın siyasi prioriteti Bakı ilə sülhə nail olmaqdır. Bu baxımdan Prezident İlham Əliyevin cari ilin martında XI Bakı Qlobal Forumunun açılış mərasimində səsləndirdiyi "Azərbaycan və Ermənistan indi heç vaxt olmadığı qədər sülhə yaxındır" – fikrini xatırlatmağımız da yerinə düşər.




> **Ekspert rəyi**
>
> 
>
> **Kazbek BEYSEBAYEV,**
> **qazaxıstanlı siyasi analitik**
>
> – Əgər üçüncü tərəf ikitərəfli danışıqlarda iştirak edirsə, aydın məsələdir ki, onun da özünün maraqları ola bilər. Bu, heç də təzə bir şey deyil, həmişə belə olub. Amma, bir halda ki, Bakı və İrəvan danışıqları "tet-a-tet", vasitəçilərsiz aparmaq qərarına gəliblər, bu, o deməkdir ki, onlar bu prosesdə kənar aktorların iştirakında maraqlı deyillər. Burada sadəcə olaraq onu qeyd etmək lazımdır ki, danışıqlardan əvvəl Qazaxıstan Prezidenti Kasım–Jomart Tokayev Azərbaycana və Ermənistana səfər edib, orada həmkarlarına öz təklifini bildirib və məsləhətləşmələr aparıb. Göründüyü kimi, həmin səfərlər zamanı hər iki tərəf onun təklifi ilə razılaşıb və sülh danışıqlarının platforması kimi Almatını məqbul variant sayıblar.
>
> Burada bir amili də qeyd etmək istərdim ki, həm Kasım–Jomart Tokayev, həm də İlham Əliyev beynəlxalq səviyyəli diplomatlardır və düzünü desək, bu məsələlərə çox yaxından bələddirlər. İnanıram ki, Almatı uğurlu platformaya çevriləcək və tərəflər sülh sazişinin əsas bəndləri üzrə razılığa gələcəklər. Ona da əminəm ki, çoxları Almatıda, xüsusən də Mərkəzi Asiyada uğur qazanmaqda maraqlıdır.

## Xaricdən dəstək, daxildən əyləc

Sülh danışıqlarının Almatı platformasına Qərbdən və okeanın o tayından da təqdiredici reaksiyalar gəldi. ABŞ Dövlət Departamentinin açıqlamasında Almatının mühüm, simvolik yer olduğu, Qazaxıstanın ikitərəfli görüşə evsahibliyi etmək təklifini isə alqışladıqları bildirilib. Açıqlamada daha sonra deyilir: "Dəfələrlə qeyd etdiyimiz kimi, biz Ermənistan və Azərbaycan arasında bu günə qədər əldə edilmiş irəliləyişdən məmnunuq və hər iki ölkənin bölgənin rifahı naminə sülh sazişinə doğru irəliləməsini dəstəkləyirik".

Alternativ sülh vasitəçisi rolunda çıxış edən Moskva da Ermənistan və Azərbaycan XİN başçılarının Qazaxıstan görüşünə müsbət yanaşdığını açıqlayıb. "Rusiya Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında mayın 10-da Almatıda keçiriləcək görüşü alqışlayır". Bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova iki gün əvvəl brifinqdə deyib. O, həmçinin Moskvanın Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması prosesinə öz töhfəsini verməkdə davam edəcəyini də bildirib.

Bəli, rəsmi İrəvan Cənubi Qafqazda uzun sürən münaqişəyə son qoymaq üçün konstruktiv danışıqları davam etdirmək üçün siyasi iradə nümayiş etdirir. Görünən mənzərə belədir. Fəqət onu da qeyd etməyi zəruri sayırıq ki, məhz Almatı görüşü ərəfəsində Ermənistanda daxili "siyasi hərarət" qaldırmağa çalışırlar. Kilsə üstəgəl Qarabağ klanı, bu tandemə dəstək verən "beşinci kolon" artıq açıq mətnlə baş nazir Nikol Paşinyanın istefasını tələb edir. Hökumətə yaxın erməni mediasının yazdığına görə, katolikos II Qareginin "xaç ata"lığını etdiyi deyilən etiraz aksiyalarının Avropanın bir sıra şəhərlərində də keçiriləcəyi planlaşdırılır. Almatı görüşünün Ermənistanda daxili siyasi atmosferin gərginləşdiyi bir məqamda keçirilməsi ona diqqəti daha da artırır.

## Paşinyan üçün sonuncu "test"

Bakı yaxın tarixin təcrübəsini də unutmur. Ermənistan hakimiyyətinin Azərbaycanla sülhə hazır olduğu barədə açıqlamasını torpaqlarımız işğal altında olduğu dönəmdə də çox eşitmişik. O zaman bu qəbildən olan bəyanatların daha çox beynəlxalq ictimaiyyətin gözündən pərdə asmaqdan başqa bir şey olmadığını görmüşük. Bölgədə üç il yarım bundan əvvəl dəyişmiş reallığın fonunda İrəvanın keçmiş taktikasını sağlam mövqedən yanaşma ilə əvəzlədiyinə inanmaq istərdik. Axı, dediyimiz müddətdə Cənubi Qafqazda qüvvələr nisbətinin Azərbaycanın xeyrinə dəyişməsi faktiki olaraq Ermənistana Bakının sülh gündəminə özünə sərfəli əlavələr etmək cəhdlərini, yaxud ikitərəfli formata mane olmaq üçün manevr imkanlarını sıfıra endirib. Şübhə yoxdur ki, Ermənistanın hazırkı rəhbərliyi bunu çox yaxşı başa düşür.

Ona görə də Nikol Paşinyanın Bakının təklif etdiyi sülh gündəmi ilə razılaşmaqdan başqa yolu yoxdur. Həm də güman edirik ki, əvvəlki iqtidarlardan fərqli olaraq, Ermənistan baş naziri Qarabağın "qaytarılması" ilə bağlı heç bir illüziyaya qapılmır və o, bu avantürist ideyanın mənasızlığını və təhlükəsini başa düşür.

## "Daha irəli gedə bilərik"

Dünən günün ikinci yarısında Azərbaycan və Ermənistan xarici işlər nazirləri danışıqlar masasına oturmaq üçün Almatıdakı Dostluq evinə gəliblər. Bu barədə məlumat verən "Sputnik-Qazaxıstan" görüş iştirakçılarını ölkənin xarici işlər naziri Murat Nurtleunun qarşıladığını yazıb. İkitərəfli görüşdən əvvəl açıqlamasında Ermənistanın diqqətini sülh müqaviləsinin imzalanmasına yönəldiyini deyən Ararat Mirzoyan "danışıqlar prosesində çox konstruktiv şəkildə iştirak etdiyini" vurğulayıb. Onun sözlərinə görə, 1991-ci il Alma-Ata Bəyannaməsinin prinsiplərinə əməl edən tərəflər Almatıda sadəcə sülh müqaviləsini imzalamaqla kifayətlənməyəcəklər: "Biz daha irəli gedə və regionda bütün nəqliyyat kommunikasiyalarını aça bilərik".

Görüşdən əvvəl nazirlər mətbuat üçün açıqlama veriblər. Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov üç aydan sonra ermənistanlı həmkarı Ararat Mirzoyanla yenidən bir araya gəldiyini, Almatı görüşünün üçüncü tərəfin iştirakı olmadan baş tutduğunu qeyd edib. İki gün davam edəcək görüşdə nazirlər "Sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında ikitərəfli Saziş"in layihəsini müzakirə edəcəklər. Görüşdən əvvəl C.Bayramov deyib ki, Almatıda aparılan danışıqlar Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması baxımından çox faydalı olacaq. O, Ermənistanla bugünkü danışıqların prosesə töhfə verəcəyinə inandığını ifadə edib.

> **Ekspert rəyi**
>
> 
>
> **Fərid ŞƏFİYEV,**
> **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**
>
> – İmkan var ki, Bakıda keçiriləcək COP29 tədbirinədək sülh sazişinin çərçivə sənədi imzalansın. Azərbaycan və Ermənistanın xarici işlər nazirləri Qazaxıstanın Almatı şəhərində ilk dəfə görüşürlər. Sülh sazişinin mətnində rəsmi İrəvan doqquzuncu dəfədir ki, öz düzəlişlərini edir, istəklərini bildirir və Bakıya göndərir. Təbii ki, həmin sənədin dəqiq detalları haqqında danışa bilmərəm. Ümumi yanaşma ondan ibarətdir ki, sülh sazişi çərçivə sənədi olsun, əsas prinsiplər orada göstərilsin. Söhbət Bakının təqdim etdiyi beş prinsipdən gedir. Güman edirəm ki, Almatıda danışıqlar həmin beş prinsip üzrə aparılıb.
>
> Problemlərin hamısı həll olunmayıb, amma prosesdə müsbət dinamika var. Təbii ki, detallar müzakirə edilir. Əsas üç məsələyə diqqət yetirmək lazımdır. Birincisi, ölkələrin ərazi bütövlüyü məsələsidir. Burada problem Ermənistanın konstitusiyası ilə bağlıdır. Orada Azərbaycanın Qarabağ bölgəsinə iddia bəndi var. Söhbət 1989-cu ilin dekabrın 1-də qəbul olunan qərardan gedir. Digər məsələ delimitasiya və demarkasiya, eyni zamanda, nəqliyyat-kommunikasiya ilə bağlı problemlərdir. Düzdür, delimitasiya və kommunikasiyalar məsələsi ilə bağlı müsbət dinamika müşahidə edilir. Hesab edirəm ki, bu üç məsələ indi tam olmasa da, sülhlə bağlı çərçivə sənədində həllini tapacaq.

> **Ekspert rəyi**
>
> 
>
> **Fikrət SADIXOV,**
> **Qərbi Kaspi Universitetinin professoru, politoloq**
>
> – Bəli, Almatı görüşünün hər iki tərəf üçün bir sıra üstünlükləri var. Danışıqlar dialoq formatında, kənar vasitəçinin, heç bir dövlətin nümayəndəsinin iştirakı olmadan aparılır. Hətta, görüşün təşkilatçısı Qazaxıstan da danışıqlarda tərəf deyil. Yəni, bu, o deməkdir ki, biz artıq vasitəçilərdən doymuşuq və onların iştirakına ehtiyacımız yoxdur. Digər önəmli məqam isə ondan ibarətdir ki, görüşdən əvvəl Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Almatı platforması ilə bağlı nikbin bəyanatlar verdi. Onu da bildirdi ki, sərhədin delimitasiya və demarkasiya prosesi müttəq irəliləməlidir.
>
> Başqa bir məsələ kommunikasiyaların tezliklə açılmasıdır. Burada əsas yük Ermənistanın üzərinə düşür. Deyilən məsələlər Azərbaycanın da maraqlarına cavab verir. İndi əsas məsələ odur ki, İrəvan, nəhayət, özündə iradə tapıb sözdən əmələ keçməlidir. Çünki Ermənistanın özündə daxili vəziyyət kifayət qədər mürəkkəbdir. Təşkil olunmuş aksiyalar davam edir. Əgər Paşnyan təhlükəsizliyin yaranmasını, sülh sazişinin imzalanmasını, Azərbaycanla münasibətlərin normallaşmasını istəyirsə konkret addımlar atmalıdır. O, bunu həm daxilə, həm də xaricə yönəlik əməli fəaliyyətində göstərməlidir.

Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın görüşdən əvvəlki açıqlaması, onun danışıqlara bu cür inamlı və nikbin reaksiyası iki ölkə arasında sülhün zirvəsinin məhz Almatıda fəth ediləcəyinə ümidləri xeyli artırır. Yerli və xarici ekspertlərin əksəriyyəti bu qənaəti paylaşır ki, Almatı, bir növ, münasibətlərin normallaşmasında müsbət presedent yarada biləcək formatdır. Yəni, tərəflər sülh gündəliyinin müzakirəsini üçüncü ölkədən platforma kimi istifadə etməklə, amma onun iştirakı olmadan aparır. Əgər ikitərəfli dialoqun bundan sonrakı mərhələsində Qərb, yaxud Rusiya prosesə qoşulmaq istəsə, onlar vasitəçi və iştirakçı kimi deyil, sadəcə, platforma təklif edən tərəf ola bilərlər.

Almatıda əsas müzakirə mövzusunun sülh sazişinin mətni üzərində olacağı deyilirdi. Bugünədək mətnlə bağlı Bakı və İrəvan arasında məktublaşma baş verib. Bu gün davam edəcək danışıqlarda nazirlər sazişin düzəliş və əlavələrin edildiyi son variantı üzərində işləyəcəklər. Qalır sənədin imzalanması...

*İmran BƏDİRXANLI*
**XQ**

# Azərbaycan–Gürcüstan dostluğu “Qafqaz evi”nin möhkəm özülüdür

## Müsahibimiz Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri, xalqımızın dostu Levan Mamaladzedir

**Gürcüstanda “Xarici təsirlərin şəffaflığı haqqında” qanun layihəsi istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə əks-səda doğurub. Rəsmi Tbilisi belə bir qanun layihəsinin qəbul edilməsini milli suverenliyinin qorunması ilə əlaqələndirir. Qanun layihəsinə etiraz edən müxalifət nümayəndələri isə bunun əksini iddia edirlər. Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri, politoloq Levan Mamaladze XalqTV-yə müsahibəsində bildirdi ki, sözügedən qanun layihəsi, sadəcə, bəhanədir və Gürcüstanda iqtidar-müxalifət qarşıdurmasının arxasında böyük güclərin Cənubi Qafqaz regionu ətrafında kəskin mübarizəsi dayanır.**



Müsahibəni müəyyən ixtisarlarla XQ oxucularına təqdim edirik.

**– Cənab Mamaladze, “Xarici təsirlərin şəffaflığı haqqında” qanun layihəsinə müxalifət etiraz etməkdən yorulmur. Kimdir bu etiraz aksiyalarını təşkil edənlər? Niyə onlar bu qanunun “antidemokratik” olduğunu düşünürlər?**

– Bu regionda çox böyük maraqlar kəsişir. Prezident İlham Əliyev unikal nümunə göstərdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan nəinki problemi həll etdi, Qarabağ məsələsi, ümumiyyətlə, gündəmdən çıxarıldı. Əvvəllər müxtəlif epoxalarda, necə deyərlər, məsələ ətrafında oyunlar qurulurdu. Bu oyunlar da əsasən kənar qüvvələr tərəfindən aparılırdı. Bilirsiniz, imperiyalar dəyişir, adları dəyişir, amma maraqları dəyişmir. Buna görə də, Qarabağ məsələsi bu regionda həmişə təsir vasitəsi olub. Prezident İlham Əliyev bu problemi həll etməklə, region üçün təhlükəni birdəfəlik aradan qaldırdı.

Deməli, təsir aləti yox oldu və birdən-birə Azərbaycan “anti-demokratik” ölkəyə “çevrildi”. Mən o dövlətlərdən danışıram ki, artıq onlar region ölkələrinə təsir göstərmək vasitəsindən məhrum olublar.

Qəribədir, üç il öncə Azərbaycan demokratik ölkə idi, indisə nədənsə “anti-demokratik” oldu. Nəyə görə? Tamaşaçılar, oxucular bunu anlamalıdırlar. Həmin ölkələr incik düşüblər ki, həmin rıcaqı itiriblər. Azərbaycan rəhbərliyi onilliklər ərzində elə bir ağılla siyasət yürütdü ki, Qarabağ problemi ortadan qalxdı. İndi həmin güclər heç bir əsas olmadan sanksiyalardan danışırlar, Azərbaycana təhdidlər səsləndirirlər. İndi Fransaya tapşırıq verirlər ki, Ermənistana kömək etsin. Amma ermənilər artıq anlayırlar ki, onlar böyük dövrə vurdular, otuz il keçdi, nə qədər insan öldü. Orada heç nə inkişaf etmirdi. İndi ermənilər görürlər ki, bütün bu cəhdlər əbəs yerə imiş.

Azərbaycan siyasətilə göstərdi ki, onunla hesablaşmaq lazımdır. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, əgər gürcülər, azərbaycanlılar, ermənilər və digər millətlər Gürcüstanda heç bir problem olmadan yanaşı yaşaya bilirlərsə, nəyə görə Azərbaycanda yaşaya bilməsinlər? İndi həmin kənar qüvvələr, imperiyalar çalışırlar ki, buna mane olsunlar, ancaq istəklərinə nail ola bilmirlər. Sanksiyalar, müəyyən absurd damğalar məhz bununla bağlıdır.

Bilmirəm, bunu necə izah etdim, ancaq istəyirəm, hamı bilsin ki, indi bütün bunlar Gürcüstana keçir. Nəyə görə? Siz sual verdiniz ki, Gürcüstanda nəyə görə etiraz edirlər? Bilirsiniz, şəffaflığın heç bir alternaiti yoxdur, amma heç kim bundan danışmır. Gürcüstan hökuməti deyir ki, xarici təsirlərin şəffaflığını təmin etmək üçün belə bir qanun layihəsini qəbul edir. Xarici təsir nədən ibarətdir? Baxın, xarici ölkələrdə, Avropada, ABŞ-da necə işləyirlər? Onların pulu var, özləri qeyri-hökumət təşkilatları yaradırlar və həmin təşkilatları maliyyələşdirirlər. QHT-lərə bağlı media strukturları, siyasi təşkilat təsis edirlər. Belə təşkilatlar maliyyə vəsaitləri aldıqları ölkələrin təlimatları əsasında fəaliyyət göstərirlər. Həmin təşkilatlar tapşırılan sözləri, mövqeləri səsləndirirlər. Sonra QHT-lərin dediklərini gürcü xalqının mövqeyi kimi qələmə verir və buna reaksiya göstərməyə başlayırlar. Digər ölkələrdə də eyni ssenari üzrə hərəkət edirlər.

Rəsmi Tbilisinin istədiyi şəffaflıq nədən ibarətdir? Xaricdən maliyyələşən təşkilatdan tələb olunur ki, alınan vəsaitin məbləğini və hansi istiqamətlər üzrə xərcləndiyini rəsmi qaydada elan etsin. Axı burada ABŞ-dakı kimi, ciddi və sərt məhdudlaşdırıcı tələblər yoxdur. Bu yaxınlarda analoji qanun Fransada qəbul olunub. Polşa, Macarıstan, Avstriya və digər ölkələrdə də belə qanun qüvvədədir. Gürcüstan daha demokratik variant təklif edir, amma tənqid olunur. Bilirsiniz, söhbət milyonlarla dollar vəsaitdən gedir. Rəsmi Tbilisi kiçik ölkə olduğu üçün bu qədər vəsaitin haradan gəldiyini və haraya xərcləndiyini bilmək istəyir. Təsəvvür edin, nə qədər yeniyetmə, gənc bu QHT sisteminə qoşulub. Heç kim qanun layihəsinin şəffaflığından danışmaq istəmir, çünki, bu, bir oyundur. Mən deyərdim ki, bu, təhlükəsizlik xidmətlərinin oyunudur.

Qərb deyir ki, əgər qanun layihəsini qəbul etsəniz, o zaman Avropaya yolunuz bağlanacaq. Nəyə görə? Axı Avropa ideologiyası demokratikliyi və şəffaflığı tələb edir. Amma indi onlar bizə deyirlər ki, qanun layihəsini qəbul etməyin, halbuki özləri həmin qanundan istifadə edirlər. Deməli, onlar bizim dövlətə, suverenliyimizə hörmət etmirlər və eyni zamanda, qorxurlar, çünki nəyisə gizlədirlər. Bəs onlar niyə qorxurlar, nəyi gizlədirlər? Şəffaflıqdan niyə ehtiyat edirlər? Burada cavabı olmayan suallar meydana çıxır. Onlar hər hansı bir izah vermədən deyirlər ki, qanun layihəsi qəbul edilməməlidir, vəssalam! Qəbul edərsinizsə, Qərbə yolunuz bağlanacaq. Bax bu, onların ideologiyasıdır. Onlar elə bir ideologiya yaradıblar ki, Avropa cəzbetmə mərkəzinə çevrilib. Biz də Avropanı istəyirik, üzv olmağa namizəd statusu almışıq. Amma indi onlar deyirlər ki, yol bağlanacaq. Belə ideologiya ortaya atıblar ki, avrointeqrasiyaya qarşı olan hər şey Rusiyanındır. Bu da bir siyasi texnologiya addımıdır.

**– Avropa Parlamenti Avropa Komissiyasını Gürcüstanı Aİ-yə üzv olmaq üçün namizədlik statusundan məhrum etməyə çağırıb. Gürcüstanı Aİ ilə vizasız rejimdən məhrum etmək çağırışları da eşidilir. Bütün bunlar nəyi sübut edir?**

– Dediklərimizə əlavə etmək istəyirəm ki, hazırda Gürcüstana təzyiqlər səbəbsiz deyil. Azərbaycan ilə Gürcüstan bir-birinə sıx bağlıdırlar. Əgər onlar Gürcüstanı öz tərəflərinə çəkə bilsələr, hesab edin ki, region bağlanacaq. Buna görə də, Gürcüstanda inqilab edib onlara sərf edən insanları hakimiyyətə gətirmək istəyirlər. Hazırda bu proses gedir. Gürcüstan iki dəfə dövlət çevrilişinə məruz qalıb. Onlar bunu inqilab adlandırırlar, hansı inqilabdan danışmaq olar? Bütün bunlar xaricdən sifariş olunub. 2003-cü ildə Mixail Saakaşvilini hakimiyyətə gətirdilər və həmin dövr nə qədər anti-demokratik olsa da, Qərb onu tənqid etmədi. Çünki Qərbin məhsulu idi. Üç il öncə çevrilişə yenə də cəhd oldu, indi də bu istəklərindən əl çəkmirlər. Əgər onlar Gürcüstana təsir rıçaqını itirsələr, istədikləri oyunu oynaya bilməyəcəklər və gürcü dövlətilə hesablaşamağa məcbur olacaqlar.

İndi Avropa Parlamenti Gürcüstanla bağlı Avropa İttifaqına müraciət edib. Bilirsiniz ki, Avropa Parlamentinin qərarları tövsiyə xarakterlidir və bununla belə, həmin qərarlar siyasi proseslərə təsir göstərir. Burada da pulla ələ alınmış deputatlar var. Bunu elə-belə demirəm, Gürcüstana qarşı çıxış edən avropalı deputatlar pulla ələ alınmışlardır.

İndi Gürcüstanla Aİ arasında vizasız gediş-gəlişin dayandırılması ilə bağlı müzakirələrin aparılması təsadüfi deyil. Bilirsiniz, fərdi sanksiyalar ölkə əhalisinə təsir göstərmir. Lakin vizasız rejimin ləğvi hamıya təsir edir. Bu, əhalidə narazılığın baş qaldırması üçün edilir. Yəni, bununla narazı olanların sayını artırmaq istəyirlər. Bütün bunlar siyasi texnologiyadır. Gürcüstana artıq ABŞ-dan, Avropadan və Ukraynadan kütləvi etiraz nümayişlərinin təşkili üzrə tanınmış mütəxəssislər gəliblər. Biz artıq Tbilisidə zorakılıq elementlərini özündə daşıyan hərəkətləri müşahidə etdik. Gəncləri vizasız rejimin dayandırılacağı ilə qorxudaraq qarşıdurmanın yaranmasına, etirazların daha da kütləvi hal almasına çalışırlar.

Bütün bunlar haraya aparır? Çevriliş edib hakimiyyətə öz adamlarını gətirmək istəyirlər. Bəs belə hakimiyyət onların nəyinə lazımdır? Ona görə ki, Gürcüstan regionda ayırıcı xəttin çəkilməsi üçün mühüm rıcaqdır, yəni bizim ölkədə hakimiyyəti nəzarətə götürməklə Şərq-Qərb logistik yollarını qapamaq, eyni zamanda, Gürcüstanı Rusiya ilə qarşıdurmaya çəkmək istəyirlər. Ukraynada müharibə aparan Rusiya ilə qarşıdurmada kiçik Gürcüstandan nə qalacaq? Bilirsiniz, onlar bizi böyük riskə təhrik edirlər.

Rusiyanın da öz maraqları var və biz Rusiyadan çox zərər çəkmişik. Ərazimizin 20 faizi işğal olunub, biz də buna reaksiya verməyə çalışırıq. Əgər Rusiya görsə ki, Gürcüstanda onun maraqlarına təhlükə yaradan vəziyyət yaranıb, o zaman Moskva buna reaksiya verəcək. Rusiya bəhanə tapıb hərbi müdaxilə edəcək. Yəni biz də belə bir müdaxilənin astanasındayıq və bu, ABŞ-ı ehtiyatlı olmağa vadar edən faktordur. Qərb çox gözəl bilir ki, Rusiya Gürcüstana hərbi müdaxilə edərsə, heç kimə kömək edə bilməyəcək. Çünki Gürcüstan NATO-nun üzvü deyil, bizim dəniz sahillərində NATO gəmiləri dayanmayıb. Bizi, sadəcə, sözlə müdafiə edirlər. Gürcüstana qarşı Rusiya tərəfindən hər hansı bir hərbi müdaxilə baş verərsə, Qərb bizim ölkədə indi malik olduğu təsiri, ümumiyyətlə, itirəcək. Buna görə də, hazırda Gürcüstanda bu mübarizə gedir...

**– Tbilisi şəhərindəki vəziyyəti necə qiymətləndirirsiniz? Bu, 10 il əvvəl Kiyev Maydanında gördüyümüzə bənzəyirmi?**

– On üç il ailəmlə birlikdə Ukraynada yaşadım. Bütün bunları yaxşı bilirəm, çünki proseslər gözümün önündə baş vermişdi. O zamankı Gürcüstan və Ukrayna hadisələri arasında çox oxşarlıq var. Məsələn, ABŞ 5 milyard dollar xərcləyib yeddi il ərzində Qərbi Ukraynada onun kimi düşünən yeni nəsil yetişdirdi. Həmin nəsil də Maydanda onlara verilən tapşırığı yerinə yetirdilər. Bu gün Gürcüstanın real olaraq maydanlaşdırılması prosesi gedir. Bilirsiniz, onlar Gürcüstan üçün necə bir layihə hazırlayıblar? Həmin layihə Gürcüstana uyğunlaşdırılıb. Mən baxıram, etirazlarda gənclər əllərində şam tuturlar, kilsəyə gedirlər, lazım gələndə aqressiya nümayiş etdirirlər.

**– Baş nazir İrakli Kobaxidze Vaşinqtonun sözügedən qanun layihəsinə baxılmasını dayandırmaq tələbinə etiraz olaraq ABŞ-a səfərdən imtina edib. Sizcə, bu, Gürcüstan və ABŞ münasibətlərinə necə təsir edəcək? Vaşinqtondan artıq belə bəyanatlar səsləndirilir ki, sözügedən qanun layihəsi qəbul edilərsə, bu, Gürcüstanla ABŞ arasında münasibətlərə mənfi təsir göstərəcək.**

– Maraqlı sualdır. Mən hesab edirəm ki, Baş nazir getməli idi. Amerikalıların nə demək istədiklərini, nə düşündüklərini bilmək bizim üçün bu, çox faydalı olardı. Əgər Birləşmiş Ştatlar nəyisə gizlətmirlərsə və bizi ondan asılı ölkə kimi görmürlərsə, Baş nazir Kobaxidze ABŞ-dan cavab ala bilərdi.

O ki qaldı, ABŞ-dan səsləndirilən bəyanatlara, Vaşinqtonun da məsələyə dair arqumentləri yoxdur. Onlar da deyirlər ki, biz sizə icazə vermirik, yoxsa sizi cəzalandıracağıq. Baxın, indi onlar istəyirlər ki, bizi cəzalandırsınlar. Bilirsiniz, ABŞ çox təhlükəli oyun oynayır. Onlar hələ çoxdan bizi NATO-ya qəbul edə bilərdilər. Ancaq bunu etmədilər, ona görə ki, NATO-da Fransa və Almaniya həmişə Rusiyaya xoş gəlmək istəyirdilər. Bütün bunlar 2008-ci ildə baş vermişdi. Biz bunu çox yaxşı görürük. Onların bizə nə iradı ola bilər? Biz heç nə ilə müdafiə olunmamışıq. İndi Baltik ölkələri NATO-da olduqlarından cəsarətli bəyanatlar səsləndirirlər. Ancaq Gürcüstan NATO üzvü deyil və indi biz hansısa vədlərə inanaraq milli suverenliyimizi necə təhlükə altına ata bilərik? Ukraynaya baxın, orada gedən müharibə Qərb ölkələrinin günahıdır. Mən münaqişənin səbəblərindən danışmıram, bu, ayrı mövzudur. Amma biz Qərbin Ukraynaya verdiyi silahları gördük. Rusiyanın Kiyevi ələ keçirmək planı alınmadıqdan sonra Qərb Ukraynaya rusları əvvəlki sərhədlərə qədər geri çəkməsinə kömək edə bilərdi. Ancaq Qərb paslanmış sovet texnikasını hesabdan silməklə məşğul oldu. İndi ruslar hücuma keçirlər və bunda günah kimdədir?

İndi cənab Müller deyir ki, biz risk edirik, mən sual vermək istəyirən: Gürcüstan nə ilə risk edir? ABŞ bizə heç bir kömək etmədi. Gərək həqiqəti deyəsən. Hazırda biz hər tərəfdən böyük risklə üz-üzəyik, onlar bizə təzyiq göstərirlər. Nəyə görə? Ona görə ki, Gürcüstan öz milli suverenliyini qorumaq qərarına gəlib. Gürcüstan qərar verib ki, bizə dövlət, tərəfdaş kimi hörmət edilməlidir.

**– Gürcüstan Dövlət Təhlükəsizliyi Xidməti mayın 8-də belə bir məlumat yaydı ki, Ukraynada olan gürcü döyüşçilərin mümkün iştirakı ilə Tbilisidə parlament qarşısında etirazçıların xüsusi təyinatlı dəstələrin nümayəndələrinə qarşı təxribat törətməyi və polislərin nümayişçilərin tərəfinə keçmələrini səhnələşdirməyi planlaşdırırlar. Necə düşünürsünüz, küçə etirazları Gürcüstanda sabitliyi poza bilərmi? Onların bunu etməyə potensialı varmı?**

– ABŞ-ın çevriliş və ya inqilab texnologiyalarını təkmilləşdirdiyini nəzərə alsaq, heç nəyi istisna etmək olmaz. Mən bir mütəxəssis kimi görürəm ki, hazırda proseslər qaynar mərhələdədir. Mayın 11-də Avropa günləri başlayacaq və proses daha qaynar mərhələyə keçəcək. Biz görürük ki, gənclərə dəyənək paylayırlar və bunu ona görə edirlər ki, dövlətin əsaslarını zəiflətsinlər. Yəni göstərmək istəyirlər ki, guya, dövlət mühafizə orqanlarında, digər qurumlarda parçalanma var. Hətta, belə bir variant da ola bilər ki, qurban da olsun. Çünki istənilən zorakılığa qurban lazımdır ki, proseslər daha aqressiv mərhələyə keçsin. Bütün bunlar siyasi texnologiyalardır və bundan insanlar ziyan görürlər.

Yadınızdadırsa, 2003-cü ildə CNN Bakıda ölmüş körpənin fonunda yayım aparırdı. Dünyaya xəbər yayırdılar ki, baxın, Bakıda etirazlar var, hətta körpə həyatını itirib. Sonra məlum oldu ki, həmin körpə ölməyib. O zaman siyasi texnologiyalar təkmil deyildi, indi vəziyyət başqadır, manipulyasiya alətləri daha da təkmilləşdirilib. O zaman Azərbaycanda həyata keçirmək istədikləri alınmadı, çünki dövlət sistemi güclü idi və Qərbin oyununun baş tutmasına imkan verilmədi. Gürcüstanda isə bu, iki dəfə baş verdi. İndi üçüncü dəfə çevriliş etmək istəyirlər. Ona görə düşünürəm ki, Gürcüstanda aqressiya olacaq. Ancaq dövlət də ötən hadisələrdən nəticə çıxarır və bu proseslər bizim üçün yenilik deyil. Hesab edirəm ki, hökumət zəruri addımları atmalıdır. Gürcüstan hökuməti nümayişçilərə qarşı yox, ölkə gənclərini idarə edən destruktiv qüvvələrə qarşı ölçü götürməlidir.

Bundan başqa, hamıya nəyi riskə atdığımızı başa salmaq lazımdır. Biz suverenliyimizi itirmək riski ilə üzləşə bilərik. Mən bu sözü deməkdən qorxmuram. Rusiyaya problem yaradan vəziyyət yaranarsa, Moskva buna reaksiya verəcək. Ruslar Tbilisidən 60 kilometr uzaqda dayanıblar. Qərb anlamalıdır ki, Gürcüstanın istədiyi “qızıl ortanı” tapmaq lazımdır. Biz öz dövlətimizi inkişaf etdirmək istəyirik və əgər Qərb Gürcüstanı Avropa İttifaqına inteqrasiya etmək istəyirsə, o zaman bu prosesi sürətləndirməlidir. Bunu da elə etmək lazımdır ki, Rusiyanın təhlükəsizliyinə problem yaratmasın. Əgər onlar bunu nə qədər tez anlasalar, bir o qədər yaxşı olar. Əks–təqdirdə onlar hər şeyi itirə bilərlər və biz, əlbəttə ki, bundan ziyan görərik.

***Müsahibəni apardı:***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Ermənistan səmasında qara buludlar

**(əvvəli 1-ci səhifədə)**

Daha sonra mitinqdə digər şəxslər çıxış ediblər. Bu zaman Paşinyana verilən bir saat başa çatıb və Nikol istefa verməyib. Belə olan təqdirdə, mitinqçilər baş nazirə daha bir saat vaxt verdiklərini bildiriblər. Paşinyan əlavə vaxtın tamamında da onların xəbərdarlığına məhəl qoymadığını nümayiş etdirib. Belə olan təqdirdə arxiyepiskop Paşinyanı istefaya məcbur edəcəklərini deyib. O, mayın 10-dan bütün ölkə üzrə vətəndaş itaətsizliyi aksiyasına başlayacaqlarını, universitetlərdə, müəssisələrdə tətilə çağırış edəcəklərini bildirib. Həmçinin, parlamentdə baş nazirin vəzifədən uzaqlaşdırılması üçün impiçment proseduruna başlanılacağını açıqlayıb. Bundan sonra iştirakçılar dağılışmağa başlayıblar.

Baqrat özü isə “Hayastan” seçki blokunun rəhbəri, keçmiş prezident Robert Koçaryanla görüşmək üçün paytaxtdakı hotellərdən birinə yollanıb. Görüşün nə ilə yekunlaşdığı barədə məlumatlar mediaya açıqlanmayıb.

İtaətsizlik aksiyaları dünən, Ermənistanın, demək olar ki, bütün ərazisini əhatə edib. Etirazçı kütlə qrup halında universitetləri gəzib-dolaşır, hətta dərs gedən auditoriyalara daxil olaraq, tədris prosesinə mane olurlar. Bölgələrdə isə mühüm nəqliyyat yollarında hərəkət dayandırılıb. Etirazçılar, hətta, Ermənistan–İran dövlətlərarası avtomobil yolunu da bağlayıblar.



Diqqəti cəlb edən məqamlardan biri də N.Paşinyandan narazı olan bütün siyasi qüvvələrin, keçmiş nazirlərin, ictimai-siyasi xadimlərin, ordudan uzaqlaşdırılmış yüksək rütbəli zabitlərin B.Qalstanyanın başlatdığı hərəkatda cəmləşməsidir. 1998-2008-ci illərdə xarici işlər naziri olmuş Vardan Oskanyanın və bu vəzifəni 2020-ci ilin dekabrından 2021-ci ilin mayınadək tutmuş Ara Ayvazyanın mitinqə qatılması da bunun göstəricisi hesab oluna bilər.

Prosesdə xüsusi canfəşanlıq edən, yenidən nazir olmaq həvəsi ilə alışıb-yanan Oskanyan “Facebook”da yerləşdirdiyi videomaterialda deyib ki, Paşinyanın istefasını tələb edən hərəkatın baş nazirliyə namizədi B.Qalstanyan olmalıdır: “Düşünürəm ki, Qalstanyan düzgün yoldadır. O, dünən bəyan etdi ki, Paşinyana etimadsızlıq göstərilməsi prosesinə başlanması üçün parlamentdəki siyasi qüvvələrlə məsləhətləşmələr keçirəcək. Əlbəttə, konstitusiya, bu siyasi qüvvələrin də baş nazirliyə öz namizədlərini təqdim etmələrinə imkan verir. Hazırkı vəziyyətdə, hökumət başçısı postuna arxiyepiskop Baqrat Qalstanyan özü namizəd olmalıdır”. O qeyd edib ki, detallar barədə məlumatlı deyil. Lakin düşünür ki, belə də olacaq. Çünki Baqratın başçılıq edəcəyi hökumət müvəqqəti, ola bilsin ki, bir il müddətinə mövcud olacaq. Sonra isə parlament seçkiləri keçiriləcək və onun nəticəsinə əsasən, ölkənin yeni baş naziri məlum olacaq: “Bu müddət ərzində bir sıra problemlər həll ediləcək, erməni xalqı belini dikəldəcək. Bundan sonra ədalətli seçkilər keçirmək olar. Bu keçid dövrü üçün ən uyğun namizəd bütün bu prosesi başladan, öz sədaqətini əməldə nümayiş etdirən və hədəflərinə nail olmaqda tam qətiyyətli olan şəxs olmalıdır.

Onu da bildirək ki, dünən İrəvan prospektlərinin birində etirazçılara ölkənin III ordu korpusunun sabiq komandiri, istefada olan general-mayor Qriqori Xaçaturov da qoşulub. KTMT-nin sabiq baş katibi Yuri Xaçaturovun oğlu olan, yol verdiyi kobud səhvlərə görə, hərbi sistemdən uzaqlaşdırılan Qriqori bununla şəxsi ədavətini nümayiş etdirmiş olub.



**Ermənistandakı aksiyalarla bağlı fikirlərini öyrəndiyimiz Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov bildirdi ki,** hazırda tarixi Azərbaycan qayıdış prosesindədir. Min illər boyu əcdadlarımızın yaşadıqları Azərbaycan torpaqları addım-addım, qarış-qarış qaytarılır. Növbəti qaytarılan torpaqlarımız Qazax rayonunun işğal altındakı kəndləri olub. Ancaq hayların “böyük Ermənistan” xülyası ilə yaşayan xəstə təfəkkürlüləri buna qarşı çıxırlar: “Onlar mayın 9-dan başlayaraq, Paşinyanı istefaya çağırırlar. 20 min dramı camaata paylayıb meydana toplayan Robert Koçaryan odla oynayır. Qazaxın kəndləri də, Zəngəzur da vaxtı yetişəndə sahibinə qaytarılacaq. Necə ki, Qarabağın və Şərqi Zəngəzurun işğal olunmuş əraziləri vaxtı çatanda ana Vətənə qovuşdu. Koçaryan və onun kimi düşünənlər hakimiyyətə gəlsələr, proses bir qədər də tezləşəcək”.

Mitinqə gəldikdə isə Z.Məmmədov qeyd etdi ki, hakimiyyətin səhvi insanların meydana toplaşmasına imkan verməsində idi: “İstisna etmirəm ki, Paşinyan komandası daxilində müəyyən qüvvələr baş nazirə bilərəkdən və ya bilməyərəkdən hadisələr haqqında yanlış məlumat ötürüblər. O isə qərar verərkən vacib nüansları nəzərə almayıb”.

Politoloq bildirdi ki, bütün ermənilərin katolikosu II Qaregin və kilsə bu hadisələrə fürsət kimi baxır: “Onlar bilirdilər ki, Nikol yaxın aylarda kilsənin konstitusiyada təsbit olunmuş statusunu aradan qaldırmağa və katolikosu tutduğu postdan uzaqlaşdırmağa başlayacaq. Buna görə də kilsə Koçaryanla birləşib. Birləşmiş qüvvənin böyük maliyə resursundan istifadə edərək insanları vətəndaş itaətsizliyinə səsləyən keşişlər xarici qüvvələrin də dəstəyindən yararlanırlar. Kilsəyə xaricdəki erməni diasporunun da dəstək verdiyi istisna edilmir. Eyni zamanda, baş verənlər Ermənistan hakimiyyəti üçün yeni imkanlar yaradır. Baş verən etirazlar həm siyasi elita daxilində müxalifətə loyal münasibət bəsləyən insanları, həm də onlara daxildən və xaricdən maliyyə dəstəyi verən mənbələri deşifrə etmək üçün unikal imkanlar yaradır”.

Mayın 9-da keçirilən mitinqin hansı mənbələrdən maliyyələşməsindən asılı olmayaraq, onun N.Paşinyana qarşı son illərdə keçirilən ən kütləvi etiraz aksiyası olduğunu qeyd etmək lazımdır. Rusiyanın “RİA-Novosti” agentliyi iştirakçıların sayının 18-20 min nəfər olduğunu bildirir. Qalstanyan isə Respublika meydanına toplaşanlarının sayının 120-130 min nəfər olduğunu iddia edir. Keşiş onu da deyib ki, təzyiq və məcburetmə olmalı, bunun nəticəsində hökumətlə danışıqlar başlamalı, konsensus əldə edilməli, beləliklə, proses yekunlaşmalıdır.

Onu da bildirək ki, Ermənistan baş nazirinin impiçment proseduruna başlamaq üçün siyasi qüvvə baş nazirliyə öz namizədini təqdim etməli və müvafiq formanı aldıqdan sonrakı 24 saat ərzində 36 deputatın imzasını toplamalıdır. Hazırda müxalifətçi “Hayastan” və “Şərəfim var” fraksiyalarının birlikdə cəmi 35 deputatı var. Onlar ya yeganə bitərəf deputat İşxan Zakaryanın, ya da hakim qüvvədən bir deputatın dəstəyini almalıdırlar. Məsələ Zakaryanla müzakirə olunmayıb, hakim fraksiyada isə mərkəzdənqaçma əhval-ruhiyyəsi hələ hiss olunmur. Lazımı sayda imzalar toplandıqdan sonra 48-72 saat ərzində səsverməyə başlamaq tələb olunur. İmpiçment üçün minimum 54 səs lazımdır, yəni müxalifət əlavə daha 18 deputatın dəstəyini almalıdır. Bu qədər sayda səs ala bilməyəcəyini görən etirazçılar məsələni “küçədən təzyiq” yolu ilə həll edəcəklərinə inanırlar. Onların qarşıdakı günlərdə etiraz aksiyalarını genişləndirmək istəyi də bununla bağlıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Avropanın investisiya qurumunun ölkəmizlə əməkdaşlığı genişlənir

(əvvəli 1-ci səhifədə)




"Təkcə ötən il AYİB tərəfindən Azərbaycan iqtisadiyyatına 156 milyon avro sərmayə qoyulub. Bankın ölkədə fəaliyyət göstərdiyi 30 ərzində isə respublika iqtisadiyyatına 3,6 milyard avrodan çox investisiya yatırılıb", – N.Mouravidze diqqətə çatdırıb.

AYİB nümayəndəsinin sözlərinə görə, istər Gəncədə "yaşıl şəhər"ə, istər Qaradağda günəş elektrik stansiyasına, istərsə də Abşeronda və Xızıda tikilən ən böyük kommunal miqyaslı külək elektrik stansiyasına sərmayə qoyuluşunun mühüm aspekti "yaşıl iqtisadiyyat"ın inkişafına yönəldilən investisiyaların diqqət mərkəzində saxlanılmasıdır. Belə bir mövqe isə sözügedən maliyyə qurumunun Azərbaycanda investisiya fəaliyyətinin daha da genişləndirilməsi planının dəyişməz olaraq qalmasından və bunun bankla ölkəmiz arasında iqtisadi inkişaf sahəsində strateji tərəfdaşlığı təsdiqləməsindən xəbər verir. Bir sözlə, AYİB respublikamızın iqtisadi tərəqqisini və onun "yaşıl keçid" prinsipini dəstəkləməyə sadiqdir.

Xatırladaq ki, sözügedən müsahibədə beynəlxalq maliyyə qurumu ilə ölkəmiz arasında sıx əməkdaşlığı xarakterizə edən bir sıra digər məqamlar da öz ifadəsini tapıb. Məsələn, AYİB-in fəaliyyət prioritetlərində respublikamız üçün mühüm strateji əhəmiyyətli layihələrin maliyyələşdirilməsi, eləcə də maliyyə institutlarının və yerli biznesin dəstəklənməsi üçün Azərbaycanın dövlət və özəl sektorları ilə əməkdaşlıq perspektivləri xüsusi yer tutub.

Qeyd edək ki, 29 fevral 2024-cü il tarixinə AYİB-in Azərbaycanda layihələrinin kredit portfeli 937 milyon avro məbləğində qiymətləndirilib, həmin kredit portfeli isə 32 layihənin həyata keçirilməsi üçün nəzərdə tutulub.

Portfelin böyük hissəsi (90 faiz və ya 848 milyon avro) dayanıqlı infrastruktura, 7 faizi (64 milyon avro) sənaye, ticarət və kənd təsərrüfatına, 3 faizi (26 milyon avro) isə maliyyə institutlarına investisiyalara yönəlib.

AYİB-in məlumatına əsasən, bank indiyədək Azərbaycana 189 layihə çərçivəsində 3 milyard 624 milyon avro həcmində investisiya yatırıb və sözügedən həcmin 83,6 faizi (3 milyard 24 milyon avro) borc götürənlər tərəfindən artıq xərclənib. Ümumi investisiyaların 26 faizi özəl sektorun payına düşüb.

Yeri gəlmişkən, AYİB-in ölkəmizə ciddi maraq göstərməsi bir sıra amillərlə əlaqədardır. Əvvəla, respublikamızın əlverişli coğrafi məkanda yerləşməsi, eləcə də tranzit yüklərin daşınması üçün müasir infrastrukturla malik olması bu baxımdan diqqət çəkir. Belə bir əlverişli şərait səbəbindən mühüm nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Azərbaycanla əməkdaşlıq etməyə çalışan beynəlxalq maliyyə qurumlarının və dünya ölkələrinin sayı da ilbəil artır. AYİB-in respublikamızla yükdaşımalar sahəsində sıx əməkdaşlıq qurmasını da məhz bu məqam şərtləndirir. Bankla Azərbaycan İnvestisiya Holdinqi arasında razılıq əldə edilməsi–niyyət sənədi imzalanması da bu məsələdən qaynaqlanır. Belə bir əməkdaşlıq mövcud nəqliyyat dəhlizləri üzrə Azərbaycanın dəniz, avtomobil və dəmir yolu nəqliyyatının iştirakı ilə multimodal daşımaçılığın səmərəliliyini artıraraq iqtisadiyyatın şaxələndirilməsinə mühüm töhfə verəcək.

Qeyd edək ki, 2023-cü ildə ölkə ərazisindən keçən yüklərin həcmi 2019-cu illə müqayisədə 162 faiz artaraq 5,1 milyon tondan 13,4 milyon tona yüksəlib. Hesabat dövründə dəmir yolu tranzit daşımalarının həcmi 2019-cu illə müqayisədə 76 faiz artaraq 3,8 milyon tondan 6,7 milyon tona çatdırılıb. Eyni zamanda, avtomobil nəqliyyatı ilə tranzit yüklərin həcmində də nəzərəçarpacaq artım müşahidə edilib. Belə ki, 2023-cü ildə avtomobil nəqliyyatı ilə tranzit daşımalarının həcmi 2019-cu illə müqayisədə 391 faiz artaraq 1,3 milyon tondan 6,5 milyon tona yüksəlib.

Cari ilin yanvar-fevral aylarında isə respublikamızda avtomobil nəqliyyatı ilə 1,791 milyon dollar dəyərində 875 min ton idxal-ixrac yükü daşınıb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu göstəricilər ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7,1 faiz və 15,3 faiz çoxdur. Hesabat dövründə idxal olunan yükün dəyəri 6,3 faiz, həcmi 12,5 faiz, ixrac olunan yükün dəyəri 11,7 faiz, həcmi isə 20,2 faiz artıb.

AYİB-in ölkəmizlə əməkdaşlığında əsas istiqamətlərdən biri də bərpaolunan enerji layihələrinin həyata keçirilməsidir. Bank tərəfindən aparılan tədqiqatlar da bu sahəyə marağı gücləndirir. Belə ki, maliyyə qurumunun araşdırmalarında Azərbaycanda ekoloji cəhətdən təmiz hidrogen istehsalının məqsədəuyğun olması öz təsdiqini tapır. Bununla bağlı AYİB-in dəstəyi ilə Niderlandın tanınmış "Advision" şirkətinin respublikamızın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də mühüm önəm daşıyır. Başqa sözlə, adıçəkilən şirkətin hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alır.

Azərbaycan 1992-ci ildən mərkəzi ofisi Böyük Britaniyada yerləşən AYİB-in üzvüdür. Bankın layihələrinin 50 faizi enerji sahəsini əhatə edir. Maliyyə qurumunun səhm fondunda Azərbaycan Dövlət Neft Fondunun 100 milyon dollarlıq kapitalı saxlanılır.

Böyük Britaniyanın paytaxtı London şəhərində 2019-cu ildə keçirilən AYİB-in Şərq Tərəfdaşlığı İnvestisiya Sammiti çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə bu maliyyə institutu arasında ölkəmizin Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit üzrə Regional Tərəfdaşlıq Fonduna (E5P) iştirakı ilə əlaqədar ianə haqqında, həmçinin respublikamızın AYİB-in donorları icmasına qoşulması ilə bağlı sazişlər imzalanıb.

Adıçəkilən fondun əsas fəaliyyət istiqamətlərinə bərk məişət tullantılarının idarə edilməsi, küçələrin işıqlandırılması, bərpaolunan enerji mənbələrindən, o cümlədən biotullantılardan istifadə, mərkəzi istilik enerjisi sisteminin inkişafı, su təchizatı və çirkab sularının təmizlənməsi, eyni zamanda, şəhər nəqliyyatının inkişafı, ictimai və yaşayış binalarında enerji effektivliyi tədbirləri kimi layihələrə maliyyə vəsaitinin ayrılması daxildir.

AYİB ölkəmizdə ən çox krediti enerji sahəsinə yönəldib. "Cənub Qaz Dəhlizi" QSC-yə 500 milyon ABŞ dollarınadək kredit ayırıb. Bu kredit TANAP layihəsi üzrə öhdəliklərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Bank texniki yardımı ilə bərpaolunan enerji üzrə hərraciların keçirilməsinə dair dəstək layihəsinin həyata keçirilməsinə də xüsusi əhəmiyyət verib.

**V.BAYRAMOV**
**XQ**

# COP29-a "yaşıl" töhfə



**Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına töhfə vermək məqsədilə genişmiqyaslı ağacəkmə aksiyası və fləşmob keçirilib.**

COP29 Azərbaycan Əməliyyat Şirkəti Media və Kommunikasiya Departamentinin məlumatında daha sonra qeyd edilir ki, ictimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların bərpasına və artırılmasına yönəltmək, ətraf mühitin mühafizəsinə, habelə iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək məqsədilə 500-dən artıq iştirakçı Bakı şəhəri ətrafında bir araya gəlib.

İştirakçılar Bakının Müşfiqabad qəsəbəsində Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 3 min Eldar şamı və zeytun ağacı əkib.

Ağacəkmə aksiyasından sonra könüllülərin iştirakı ilə Azərbaycanın bu il evsahibliyi edəcəyi və dünyanın ən mötəbər tədbiri hesab olunan COP29-a həsr olunan fləşmob nümayiş etdirilib.

Qeyd edək ki, ağacəkmə aksiyası və fləşmob COP29 Azərbaycan Əməliyyat Şirkəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqı tərəfindən birgə təşkil olunub. Tədbirdə dövlət orqanlarının, özəl təşkilatların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, tələbələr və könüllülər iştirak edib.

**XQ**

## Mahlıc ixracı 81 faiz artıb

**Bu ilin birinci rübündə Azərbaycan 56 milyon 610 min ABŞ dolları dəyərində 37 635 ton pambıq lifi ixrac edib.**



Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 80,8 faiz və 2,2 dəfə çoxdur.

Hesabat dövründə pambıq lifi ixracı ölkənin ümumi ixracının 0,95 faizini, qeyri-neft sektoru ixracının isə 8,4 faizini təşkil edib.

## Fəal vergi ödəyiciləri –768 min

**Bu il mayın 1-nə aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 0,9 faiz artaraq 768 minə çatıb.**



Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib. Bildirilib ki, hesabat dövrünə aktiv əlavə dəyər vergisi ödəyicilərinin sayı 5,3 faiz artaraq 48,1 min təşkil edib. Aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı isə 0,6 faiz artıb və 205,7 min olub.

**XQ**

# Azərbaycan–Türkiyə biznes marşrutlarına "yaşıl işıq!"

**Xəbər verildiyi kimi, Baş nazir Əli Əsədovun qardaş Türkiyəyə səfəri çərçivəsində mayın 8-də Ankara şəhərində Azərbaycan–Türkiyə Biznes Forumu keçirilib.**



Tədbirin açılış mərasimində çıxış edən Baş nazir Əli Əsədov Azərbaycanla Türkiyənin dostluğu və qardaşlığı sayəsində birgə həyata keçirilən layihələrin regionun inkişafında və Avropa ilə Asiya arasında enerji və kommunikasiya dəhlizinin yaradılmasında böyük rol oynadığını diqqətə çatdırıb. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum boru kəmərləri, TANAP, Bakı–Tbilisi–Qars layihələrinin Türkiyə ilə Azərbaycanın birgə uğurlu fəaliyyətinin nəticəsi kimi dəyərləndirən Baş nazirin sözlərinə görə, mayın 25-də açılacaq Bakı-Tbilisi-Qars dəmir yolunda yükdaşımaların həcmi artırılacaq.

Qeyd olunub ki, ikitərəfli formatda həyata keçirilən layihələrə qarşılıqlı olaraq milyardlarla dollar həcmində sərmayələr qoyulub. "Bu gün biz münasibətlərimizə uzunmüddətli və strateji yanaşmalarla baxırıq. Həm Azərbaycan, həm də Türkiyə hökumətləri bütün sahələrdə əməkdaşlıq üçün birgə fəaliyyətlərə hazırdırlar", – deyə o əlavə edib.

Baş nazir son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dolları sərmayə qoyulduğunu, bunun da 200 milyard dollarının qeyri-neft sektronun payına düşdüyünü diqqətə çatdırıb. Azərbaycanda cəlbedici investisiya mühitinin formalaşdırıldığını bildirən Baş nazir deyib ki, ölkəmizdə xarici investorların maraqları, qoyulan vəsaitlər dövlət tərəfindən qorunur. Türkiyə şirkətlərinin də ölkəmizdə yaradılmış əlverişli biznes mühitindən faydalandığını vurğulayan Baş nazir deyib ki, hazırda Azərbaycanda 4 mindən çox Türkiyə şirkəti aktiv şəkildə fəaliyyət göstərir.

Qeyd olunub ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Türkiyə şirkətləri də yaxından iştirak edirlər. Hazırda qardaş ölkənin 20-dən çox şirkətinin həmin ərazilərdə 50-yə yaxın layihə icra etdiyini bildirən Əli Əsədovun sözlərinə görə, həmin layihələrin ümumi dəyəri 4 milyard ABŞ dolları təşkil edir. "Eyni zamanda, Türkiyədə Azərbaycan şirkətləri müxtəlif sahələrdə iş qurub və qardaş ölkənin iqtisadiyyatına öz töhfəsini verib", – deyə Baş nazir bildirib.

İki ölkə arasında qarşılıqlı investisiyaların həcminin artmaqda davam etdiyini diqqətə çatdıran hökumət rəhbəri deyib ki, Türkiyə indiyədək Azərbaycana 16 milyard ABŞ dollardan artıq sərmayə yatırıb. Öz Azərbaycanın qardaş ölkəyə qoyduğu sərmayenin həcmi isə 20 milyard ABŞ dollarından artıq olub.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz biznes forumunda çıxışı zamanı ölkələrimiz arasında sərbəst ticarətin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib. İki ölkə arasında güzəştli ticarətlə bərabər sərbəst ticarətin təmin edilməsi məqsədilə müzakirələr aparıldığını deyən C.Yılmaz hazırda Türkiyədə 3 minə yaxın Azərbaycan şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Eyni zamanda, bildirilib ki, Türkiyənin podratçı şirkətləri ölkəmizin işğaldan azad edilmiş əraziləri də daxil olmaqla indiyədək 19,3 milyard ABŞ dolları dəyərində 526 layihəni öz üzərinə götürüb. "Hansı ölkədə olmasından asılı olmayaraq podratçı şirkətlərimizin bu işlərin öhdəsindən gələcəyinə inanırıq. İşğaldan azad edilən ərazilərin yenidən qurulmasında türk özəl sektorunun kənd təsərrüfatından turizmə qədər önəmli rol oynayacağına inanırıq", – deyə vitse-prezident əlavə edib.

Yeri gəlmişkən, Azərbaycanla Türkiyə hökuməti arasında imzalanan Preferensial Ticarət Sazişinə əsasən, iki ölkə ərazisində fəaliyyət göstərən sahibkarlıq subyektləri 2021-ci ilin mart ayının 1-dən illik tarif kvotası çərçivəsində müəyyən olunmuş mallar üzrə güzəştlərdən yararlanmaq imkanı qazanıb.

Forumda, həmçinin Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasında müzakirə olunan məsələlər, qəbul edilən sənədlərin əhəmiyyəti barədə ətraflı söhbət açılıb. Türkiyənin vitse-prezidenti komissiyanın iclasında qəbul olunmuş 120 maddəlik fəaliyyət planının iki ölkənin iş adamları arasında əməkdaşlığı, ticarəti genişləndirəcəyinə ümid etdiyini vurğulayıb. Hökumətlərarası komissiyanın iclasında ölkələrimiz arasında ticarəti asanlaşdırmaqdan ötrü gömrük və logistika fəaliyyətlərini sadələşdirmək üçün razılıq əldə edildiyini diqqətə çatdıran C.Yılmaz deyib ki, ən qısa zamanda sadələşdirilmiş gömrük əlaqələri üçün səylər gücləndiriləcək.

Ölkəmizin qeyri-neft sektorunun inkişafına verdiyi önəmi təqdir edən vitse-prezident deyib ki, Azərbaycan sahib olduğu təbii sərvətləri dəyərləndirir, buradan əldə etdiyi maliyyə imkanlarını qeyri-neft sektorunun genişləndirilməsinə sərf edir. O, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində özəl sektorun müsbət rol oynayacağına, Türkiyə və Azərbaycan arasındakı qarşılıqlı əlaqələrin bölgəmizə və Türk dünyasına da nümunə olacağına, eləcə də Cənubi Qafqazda sülhün bərpasında birgə fəaliyyətin regional rifahın artacağına ümidvar olduğunu bildirib.

Tədbirdə Azərbaycanda və Türkiyədə mövcud olan biznes və investisiya mühiti barədə məlumat verilib, iki ölkənin hökumətlərinin bundan sonra da biznes dairələri arasında dialoqun təşviqinə dəstək vermək əzmində olduqları bildirilib.

Forumda Türkiyə Palatalar və Birjalar Birliyinin sədri Rifat Hisarcıklıoğlu, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov çıxış ediblər. Biznes Forum çərçivəsində, həmçinin Azərbaycan və Türkiyənin iş adamları arasında ikitərəfli görüşlər də keçirilib.

Eyni zamanda, Azərbaycan Türkiyə ilə kiçik və orta biznezin (KOB) sahəsində əməkdaşlığın genişləndirilməsinə dair 2 anlaşma memorandumu imzalanıb. Azərbaycanın İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Türkiyənin Xarici İqtisadi Əlaqələr Komitəsinin (DEİK) nəzdində Türkiyə–Azərbaycan Biznes Şurası arasında əməkdaşlığı nəzərdə tutan anlaşma memorandumu iki ölkə arasında idxal və ixracın inkişafı ilə bağlı qarşılıqlı məlumat mübadiləsi, investisiya və sənaye layihələri barədə işgüzar dairələrin məlumatlandırılması sahəsində əməkdaşlıq, birgə tədbirlərin təşkili kimi məsələləri özündə əks etdirir.

Digər sənəd isə İslam Ölkələri üzrə Statistik, İqtisadi, Sosial Araşdırmalar və Təlim Mərkəzi (SESRİC) arasında imzalanıb. Həmin sənəddə tərəflər arasında əməkdaşlığın gücləndirilməsi, hər iki ölkənin KOB sahəsində əlaqələrinin inkişafı üçün müvafiq tədbirlərin, o cümlədən məlumat və təcrübə mübadiləsinin, sahibkarlıq sahəsində təlim proqramlarının reallaşdırılması, birgə layihələrin icrası kimi məsələlər nəzərdə tutulur.

**M.YAQUBZADƏ**
**XQ**

XQ-nin müzakirə klubu

# COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin iqlim həssaslığının dəyəridir

**Dünya iqlim dəyişikliyi ilə mübarizədə mühüm addımlar atmaq və davamlı gələcək naminə həll yolları tapmaq üçün hər il müxtəlif şəhərlərdə keçirilən və bu ilin noyabrında isə Bakıda gerçəkləşəcəyi nəzərdə tutulan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına (COP29) xüsusi diqqət yetirir. Şübhəsiz ki, Azərbaycan da COP29-a evsahibliyi etməsi ilə üzərinə götürdüyü tarixi öhdəliyi, eyni zamanda, bu tədbirin ölkəmiz və beynəlxalq aləm üçün xüsusi əhəmiyyətini nəzərə alaraq sözügedən iqlim konfransına ciddi hazırlaşır.**

Yeri gəlmişkən, Azərbaycan COP29-u təkcə bir tədbir kimi yox, həm də davamlı inkişaf məqsədlərinə nail olmaq üçün fürsət kimi görür. Enerji siyasətindəki uğurları, bərpaolunan enerji resurslarına investisiya qoymaq istəyi və iqlim dəyişikliyi ilə mübarizə əzmi respublikamızın davamlı gələcək üçün atdığı addımların təzahürüdür. Aşağıda diqqətə çatdırdığımız rəylərdə də bu məqam xüsusi vurğulanır.

**Fikrət YUSİFOV, iqtisad elmləri doktoru, professor:**



– Son 20 ildə Azərbaycan yalnız yerləşdiyi Cənubi Qafqaz regionunda deyil, bütün dünyada ciddi söz sahibi olan dövlət statusuna ucala bildi. Ölkəmizin təşəbbüsü ilə reallaşdırılan nəhəng transmilli layihələr və bu layihələrin nəticəsi kimi Azərbaycanın Avropanın etibarlı yanacaq-enerji təchizatçılarından birinə çevrilməsi, şərqlə qərbi birləşdirən orta marşrutun və Şimal-Cənub Nəqliyyat Dəhlizi kimi beynəlxalq infrastrukturun fəaliyyətə başlaması dünyada ölkəmizin nüfuzunun sürətlə artmasına səbəb oldu. Belə nəhəng layihələri reallaşdırmaqla yanaşı, özünün iqtisadi və hərbi qüdrətini artıran respublikamız on illər ərzində işğal altında qalmış torpaqlarını ən qısa zaman kəsiyində düşmən əsarətindən azad etdi. Bu hadisəyə qədər Azərbaycanın sürətli iqtisadi inkişafını görənlər indi də ölkəmizin hərbi qüdrətinin hansı zirvəyə yüksəldiyinə şahidlik etməli oldular.

Ölkəmizin təşəbbüsü və rəhbərliyi ilə reallaşdırılan transmilli layihələr, şanlı Ordumuz tərəfindən dünyada analoqu olmayan hərbi ustalıqla torpaqlarımızın işğaldan azad edilməsi Azərbaycanı dünyada tutarlı söz sahibinə çevirdi.

Ötən illlər ərzində respublikamızda dünyaya səs salacaq bir çox beynəlxalq tədbirlər keçirildi. Bu gün ölkəmiz ən mühüm beynəlxalq tədbirlərin keçirilməsinin uyğun məkanı kimi hamı tərəfindən qəbul edilir.

Son 20 ildə respublikamızda keçirilmiş beynəlxalq tədbirlərin verdiyi siyasi dividentlər ölçüyə gəlməyəcək qədər böyükdür. Azərbaycan bu tədbirlər vasitəsilə özünün Qarabağ həqiqətlərini bütün dünyaya çatdırdı. Biz bu tədbirlərdən həm də təbliğat maşını kimi istifadə etdik desək, yanılmarıq. Qərbin ikili standartları müstəvisində haqlı olduğumuz halda bizi haqsız kimi qələmə verənlərə cavab haqqımızı dünyaya bu platformalardan məharətlə istifadə edərək çatdıra bildik. Görülən bu işlərin nəticəsi idi ki, 44 günlük savaşdan və bir günlük antiterror əməliyyatından sonra Azərbaycanın üzərinə Fransa kimi ermənipərəst ölkədən başqa heç kim gəlmədi.

COP29 Yer kürəsində baş verən iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və bununla bağlı danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, qeyri-hökumət təşkilatlarını və digər maraqlı tərəfləri bir araya gətirən, ölkələrin təmsilçiliyi baxımından BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq tədbirdir. Cari ilin noyabr ayında keçiriləcək bu konfrans iştirakçı sayına və miqyasına görə Azərbaycanın da indiyədək evsahibliyi etdiyi ən böyük tədbir olacaq. Bakı iki həftə ərzində dünyanın mərkəzinə çevriləcək və şəhər təqribən 70-80 min xarici qonağı qarşılayacaq.

2015-ci ilin sonlarında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 21-ci konfransında Paris Razılaşması qəbul olunub və həmin sənədi 171 ölkənin hökumətləri imzalayıb. Azərbaycan Paris razılaşmasına 2016-cı ilin aprelin ayından qoşulub. COP tədbirlərinin başlıca hədəfini Paris Sazişinin tələblərinə uyğun olaraq dünyada karbon qazının miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi, 1,5 dərəcə selsi ilə məhdudlaşdırmağa nail olmaq təşkil edir.

COP29 iqlim fəaliyyətini sürətləndirmək və Paris Sazişinin məqsədlərinə nail olmaq üçün keçirilən tarixi görüş hesab edilir.

COP29-un Azərbaycanda keçirilməsi, ilk növbədə, BMT tərəfindən Azərbaycanın iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin bir daha təsdiq edilməsi deməkdir. Bundan əlavə, belə bir mötəbər tədbirin respublikamızda keçirilməsi BMT tərəfindən ölkəmizdəki ictimai-siyasi və iqtisadi sabitliyə verilən qiymətin ifadəsidir.

Azərbaycanın BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməsi və parallel olaraq Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq bəyannaməsi imzalaması dünyada bənzəri olmayan bir nümunədir.

Son illər Azərbaycan bölgədə "yaşıl enerji"nin inkişaf etdirilməsi istiqamətində bir-birinin ardınca önəmli addımlar atır. COB29-un respublikamızda keçirilməsi, eyni zamanda, Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyin ifadəsidir.

Azərbaycan COB29-a evsahibliyi edəcəyi 2024-cü ili ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edib. Azərbaycan indi "yaşıl enerji" istehsalını artırmağa və "yaşıl enerji"ni dünya bazarlarına çıxarmağı hədəfləyir və artıq bu istiqamətdə ciddi addımlar atır. Bu, ölkəmizin enerji strategiyasında yeni eranın başlanğıcı deməkdir.

Hökumətin ölkədə "yaşıl enerji"nin inkişafına dair müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılması nəzərdə tutulur. Azərbaycanda keçiriləcək COB29 tədbiri bu potensialın reallaşdırılması məqsədilə ölkəmizə xarici investisiyaların cəlb edilməsinin ən münasib platforması olacaq.

**Azər ALLAHVERƏNOV, Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İB-nin sədri, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi Müşahidə Şurasının üzvü:**



– Bu ilin noyabrında paytaxtımız BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi edəcək. Öncə onu vurğulamaq istəyirəm ki, BMT-nin əksər üzvlərini və xüsusilə də dünyanın inkişaf etmiş ölkələrini bir araya gətirən bu mötəbər beynəlxalq tədbirin rəhbər strukturlarında növbəti sessiyanın harada keçirilməsi barədə verilən qərar həmin tədbirin keçiriləcəyi dövlətə göstərilən etimadın bariz nümunəsidir. Bu baxımdan ötən il Dubayda keçirilən iqlim konfransında COP29-un məhz Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar dünyanın əksər dövlətlərinin ölkəmizə olan böyük etimadının göstəricisi idi.

Olduqca qürurverici haldır ki, COP29-un Azərbaycanda keçirilməsi təklifi COP28-də qəbul edilmiş qərarla təsdiqlənməklə yanaşı, həm də ötən müddətdə təşkil olunmuş çoxsaylı beynəlxalq tədbirlərdə, eləcə də ölkəmizə səfərə gələn mötəbər qonaqlar tərəfindən birmənalı olaraq dəstəklənir. Eyni zamanda, qərarın verilməsi ilə bağlı mövcud prosedurlara nəzər saldıqda məlum olur ki, BMT-nin Şərqi Avropa qrupunun iştirakçısı olan 23 ölkənin COP29-la bağlı qəbul etdiyi qərar hazırda ali qurumun iqlim konfransının digər üzv ölkələri tərəfindən də təsdiqlənir.

Bununla yanaşı, dünyanın bir çox nüfuzlu təşkilatları və ixtisaslaşmış mərkəzləri də COP29-u dəstəkləyən bəyanatlar qəbul edirlər. Onlardan biri səhiyyə, ətraf mühit və iqlim dəyişikliyi məsələləri üzrə ixtisaslaşan və 106 ölkədən olan 2300 qeyri-hökumət təşkilatını (QHT) birləşdirən Səhiyyə üzrə Afrika Təşkilatlarının Assosiasiyasıdır. Bu qurumun rəhbərliyi tərəfindən Azərbaycanda COP29-un keçirilməsinə dair imzalanmış bəyanata sonradan assosiasiyanın 30 üzv ölkəsini və tərəfdaşlarını təmsil edən, ümumilikdə, 107 QHT də qoşulub. Bu proses hazırda da davam etdirməkdədir. Bu yaxınlarda Bakıda keçirilmiş "Parçalınmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun "COP29 və Azərbaycan üçün yaşıl baxış" mövzusunda beynəlxalq tədbirin, həmçinin VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun gündəliyində iqlim dəyişikliyi ilə bağlı yer alan məsələlər də məhz COP29-a olan yüksək diqqətin və marağın əyani sübutudur. Digər tərəfdən, son aylar ölkəmizə səfər edən bir sıra dövlət və hökumət başçıları ilə aparılan danışıqlar zamanı COP29-la əlaqədar məsələlər müzakirə edilib.

Yeri gəlmişkən, COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar, həm də ölkəmizin dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in fəal iştirakçılarından biri kimi tanınması ilə bağlıdır. Məlum olduğu kimi, ölkəmizin alternativ və bərpaolunan enerji potensialı olduqca yüksəkdir. Son illər həmin potensialın hərəkətə gətirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Azərbaycanda "yaşıl enerji"nin istehsalı istiqamətində həyata keçirilən tədbirlər isə həm miqyasına, həm də həcminə görə misli görünməyən hədəflərin əldə olunmasına hesablanıb.

Əslində ölkəmizin "yaşıl" gündəliyi hələ COP29-a ev sahibliyi etmək barədə verilən qərara qədər qəbul edilmişdi. Bunun nəticəsidir ki, 2023-cü ilin oktyabrında ölkəmizdə 230 meqavat gücündə ilk günəş elektrik stansiyası istifadəyə verildi. Bu il isə ümumi gücü 1300 meqavat olan əlavə dörd günəş və külək elektrik enerjisi stansiyasının təməli qoyulacaq. Bütün bunlar isə, sadəcə olaraq, başlanğıcdır. Çünki ölkəmizin həm dənizdə, həm də quruda zəngin külək və günəş elektrik enerjisi potensialı var. Bura su elektrik stansiyaları da əlavə olunsa, daha böyük nəticələr əldə etmək mümkündür. Bütövlükdə, "yaşıl" gündəliklə müəyyən olunmuş planlara görə, 2027-ci ilə qədər ölkəmizdə 2 qiqavatlıq günəş və külək enerjisi stansiyaları işə düşəcək. 2030-cu ilə qədər isə əlavə 5 qiqavatlıq güclər də istismara daxil ediləcək.




"Yaşıl enerji"nin istehsalı barədə danışarkən Qarabağda bu istiqamətdə həyata keçirilən genişmiqyaslı tədbirlər barədə danışmamaq mümkün deyil. Belə ki, 30 ilə yaxın işğal dövründə Ermənistan həmin ərazilərdə "boz zona" yaratmışdı. Düşmənin işğalçılıq siyasəti nəticəsində həmin ərazilərin flora və faunası məhv edilmişdi. Eyni zamanda, Azərbaycanın mədəni irsi, mədəni abidələri, şəhər, qəsəbə, kəndləri dağıdılmış, kənd təsərrüfatı ziyan görmüşdü. 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimiz "boz zona"nın "yaşıl zona"ya çevrilməsinə imkan yaradıb.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizin "yaşıl" gündəliyi ilə bağlı müəyyən olunmuş hədəflərə doğru aparan addımlardan biridir. Bununla bağlı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən imzalanmış sərəncamda Azərbaycanın energetika sahəsində, xüsusilə də sosial-iqtisadi inkişafın beş milli prioritetlərdən biri hesab olunan təmiz ətraf mühit və yaşıllıqların artırılmasına dair fəaliyyətlərə nəzər salınır. Xüsusilə də həmin innovativ yanaşmalarla bağlı olan məsələlərə işğaldan azad olunmuş ərazilərdə "Ağıllı şəhər", "Ağıllı kənd" və digər layihələr aiddir. COP29-un "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilməsi isə ölkəmizin bu sahədə əldə etdiyi müsbət təcrübəni və yeni hədəflərini dünyaya çatdıra biləcək.

**İlham ŞABAN, Neft Araşdırmaları Mərkəzinin rəhbəri:**



– Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ölkəmizin ətraf mühitin mühafizəsi və iqlim fəaliyyətlərinə sadiqliyini nümayiş etdirir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi üçün növbəti məkan olaraq məhz Azərbaycanın seçilməsi də ölkəmizə olan yüksək etimaddan irəli gəlir. COP29-un Bakıda keçirilməsi ilə bağlı qərar beynəlxalq aləmin hər bir üzvünün razılığı əsasında mümkün olub. Bu da təsadüfi deyil. Çünki dünyada sabitlik məkanı, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı kimi tanınan Azərbaycan ötən illərdə bir sıra mötəbər beynəlxalq tədbirlərə də uğurla ev sahibliyi edib. Bu mənada hazırda dünya ölkələri, eləcə də bir sıra tanınmış enerji mərkəzləri Bakını COP29-un keçirilməsi üçün ən əlverişli məkan kimi qiymətləndirirlər.

Bərpaolunan eneji potensalı ilə zəngin olan Azərbaycan artıq bu sərvətlərdən istifadə sahəsində mühüm addımlar atır. Məlum olduğu kimi, ötən il oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin istifadəyə verdiyi "Qaradağ" Günəş Elektrik Stansiyası tədricən işə düşür. Bir qədər sonra burada artan həcmlər özünü göstərəcək. Bunun da hesabına 2024-cü ildə ölkəmizdə günəş enerjisinin istehsalı ötənilki səviyyəni 5-6 dəfə üstələyə bilər. Düşünürəm ki, 2025-ci ildən biz artıq ilk dəfə olaraq alternativ və bərpaolunan enerji mənbələrindən istehsalın hiss ediləcək səviyyəyə gəlib çatmasının şahidi olacağıq. Bəs, bu nəyin hesabına baş verəcək? "Qaradağ" Günəş Elektrik Stansiyasının maksimal istehsal gücünə çatması ilə yanaşı, tam 2025-ci ilin birinci rübündə Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkəti də 240 meqavatlıq "Xızı-Abşeron" Külək Elektrik Stansiyasını işə salacaq. Ümumilikdə isə, mənə elə gəlir ki, 2025-ci ildə Azərbaycan bərpaolunan enerji mənbələrindən ilk milyard kilovat-saat elektrik enerjisinin alınmasını qeyd edə bilər.

Sonrakı illərdə bu həcmlər yeni-yeni günəş və külək elektrik stansiyalarının istismara verilməsi hesabına getdikcə artacaq. Düşünürəm ki, 2026-2027-ci illərdə ölkəmizdə "yaşıl enerji"nin istehsalında böyük sıçrayışlar baş verəcək. Artıq cari ildən başlayraq bu sahədə iri miqyaslı layihələrin həyata keçirilməsinə start veriləcək. Daha doğrusu, bu il ölkəmizdə "yaşıl enerji" istehsalını həyata keçirəcək 5 stansiyanın təməli qoyulacaq. Bunlardan ən mühümü BP şirkətinin Cəbrayıl rayonunda tikintisinə başlayacağı 240 meqavatlıq "Şəfəq" Günəş Elektrik Stansiyasıdır. Cari ildə, həmçinin "Nobel Energy" şirkəti bu rayonda günəş elektrik stansiyasının inşasını planlaşdırır. Regionun "yaşıl enerji" zonasına çevrilməsi məqsədlərinə xidmət edəcək layihə çərçivəsində inşa olunacaq 100 meqavatlıq günəş elektrik stansiyasında ildə 180 milyon kilovat-saat enerji istehsalı nəzərdə tutulur. Bu da orta hesabla 58 minə yaxın evi elektrik enerjisi ilə təmin etməyə imkan yaradacaq.

Eyni zamanda, bu il Naxçıvanda 50 meqavatlıq "yaşıl" güclərin yaradılmasına da başlanacaq. "Masdar" şirkəti tərəfindən isə Biləsuvarda, Neftçalanın Bankə qəsəbəsində və Bakı ətrafında, Abşeronda 1000 meqavatlıq günəş elektrik stansiyalarının tikintisinə başlanılacaq. Bununla yanaşı, cari ildə 100 meqavatlıq külək elektrik stansiyasının təməlinin qoyulması da planlaşdırılır. Sadaladığım bu stansiyaların isə 18-23 ay ərzində istifadəyə verilməsi nəzərdə tutulur. Beləliklə də, 2024-cü ilin ikinci yarısından etibarən tikintisinə başlanacaq stansiyalarda 2026-cı ilin əvvəllərində elektrik enerjisi istehsal etmək mümkün olacaq. 2027-ci ildə isə həmin stansiyalar layihə gücünə çatdırılacaq.

Yeri gəlmişkən, Azərbaycanın iqtisadiyyat və energetika nazirliklərinin qeyd etdiyi kimi, bizim başlıca hədəfimiz ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2030-cu ildə 30 faizə çatdırılmasından ibarətdir. Bu da onu göstəririr ki, Azərbaycan yaxın gələcəkdə karbon emissiyalarının azaldılmasına mühüm töhfələr verməyə tam qadirdir. Amma düşünürəm ki, işlərin belə sürətlə davam edəcəyi halda biz bu hədəfə daha tez, yəni 2028-ci ildə çata biləcəyik. Azərbaycanın bununla bağlı planları, həyata keçirdiyi ardıcıl tədbirləri onu deməyə əsas verir ki, bütün bunlar əfsanə deyil, əsl reallıq, enerji tariximizin yeni bir "yaşıl" səhifəsidir.

**Samir HEYDƏROV, iqtisadçı-ekspert**



Bu il ölkəmizdə keçiriləcək COP29-a ciddi hazırlıq işləri görülür. Bu, təkcə beynəlxalq ictimaiyyətin respublikamıza etimad göstəricisi ilə bağlı deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli dəyişikliklərin reallaşdırılması məqsədindən irəli gəlir. Belə bir yanaşmanın əsasını isə inklüzivlik prinsip şərtləndirir. Çünki COP29-da əsas müzakirə mövzusu olacaq iqlim dəyişikliyi bütün beynəlxalq aləmi narahat edən prioritet istiqamətdir. Cəmiyyətin müxtəlif qruplardan olan şəxslərin fikirlərinin və imkanlar barədə təkliflərinin dinlənilməsi bu məsələdə daha güclü tərəfdaşlığın qurulması, iqlim dəyişikliyi ilə mübarizənin beynəlxalq müstəvidə aparılması deməkdir.

Ümumiyyətlə, ölkəmizin COP29-a evsahibliyi etməsi Azərbaycanın ətraf mühitin qorunmasına və müxtəlif səviyyələrdə iqlim dəyişikliyinin qarşısının alınmasına verdiyi töhfənin mühüm göstəricisidir. COP bu gün Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC), Kioto Protokolunun (KP) və Paris Sazişinin (PA) müddəalarının həyata keçirilməsi üçün ölkələr arasında danışıqlar prosesinin ən yüksək orqanıdır.

Qeyd edim ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası iqlim sisteminə insan tərəfindən təhlükəli təsirlərin qarşısının alınması məqsədi ilə 1994-cü il martın 21-də qüvvəyə minib. İndiyədək mühüm önəm daşıyan bu beynəlxalq sənəd 198 ölkə tərəfindən ratifikasiya olunub. Konvensiyaya əlavə sənəd olan Kioto Protokolu qlobal istiləşmənin qarşısını almaq üçün Yer atmosferinə buraxılan istixana qazları emissiyalarını azaltmaq məqsədi ilə bağlanıb. Protokol 1997-ci il dekabrın 11-də qəbul edilib və 2005-ci il fevralın 16-da qüvvəyə minib. Azərbaycan ona 2000-ci ildə qoşulub. 2015-ci ildə qəbul edilən Paris sazişi də konvensiyanın davamı olub. Belə ki, 2016-cı ildə Paris Sazişinin müvafiq qanunla təsdiqindən sonra Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını 35 faiz azaltmaq barədə könüllü öhdəlik götürüb.

Yeri gəlmişkən, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün ilk addımlarından biri 2016-cı ildə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması olub. 2021-ci ildə Azərbaycan Prezidenti "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədini təsdiq edib. Milli prioritetlərə uyğun olaraq növbəti onillik üçün hədəf kimi ölkənin sosial-iqtisadi inkişafının 5 əsas prioriteti təsdiq edilib. Həmin prioritetlərdən biri isə Azərbaycanın "təmiz ətraf mühitə və yaşıl inkişafa malik ölkə" kimi müəyyənləşdirilib.

Artıq sözügedən prioriteti istiqamətə uyğun olaraq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlərə başlanılıb. 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını baza ili (1990-cı il) ilə müqayisədə 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaq qarşıya əsas məqsəd kimi qoyulub. İşğaldan azad edilmiş ərazilərin genişmiqyaslı bərpası və yenidən qurulması prosesində ətraf mühitin mühafizəsi də diqqətdə saxlanılıb.Bu ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiqinə üstünlük verilib, ekosistemin bərpası ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirilib. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritet istiqaməti kimi qəbul edilib. Azərbaycan 2030-cu ilə qədər quraşdırılmış elektrik enerjisi istehsal güclərində bərpaolunan enerji mənbələrinin payınının 30 faizə çatdırmağı hədəfləyib.

Yeri gəlmişkən, Azərbaycan ətraf mühitin qorunmasına və müxtəlif səviyyələrdə iqlim dəyişikliyinin qarşısının alınmasına mühüm töhfə vermək üçün zəngin "yaşıl enerji" potensialına malikdir. Məsələn, günəş enerjisini bütün ölkə ərazisində əldə etmək mümkündür və külək enerjisindən istifadə baxımından ən perspektivli sahələr isə Xızı, Xəzər, Abşeron, Qobustan rayonları, eləcə də Bakıdır. Xəzər dənizində dəniz və külək stansiyalarının yaradılması da nəzərdə tutulur. Külək və günəş elektrik stansiyaları, emissiyaların azaldılması, meşələrin bərpası, elektrik və hidrogen nəqliyyatının inkişafı – bütün bunlar mühüm önəm daşıyır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları da "yaşıl enerji" ehtiyatının zənginliyi ilə diqqət çəkir. Bu ərazilərin "təmiz enerji zonası" elan edilməsi də məhz bu amillə bağlıdır. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa olunan təbii mənbələrdən elektrik enerjisi istehsalı üçün böyük potensial mövcuddur. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları günəş enerjisi ilə zəngindir. Kəlbəcər və Laçın güclü külələri ilə tanınır. Təbii ki, dağ çaylarının – Tərtərçay, Bazarçay, həmçinin Həkərinin enerji yaradan potensialı isə adları çəkilən iqtisadi rayonların "təmiz enerji zonası"na çevrilməsinə əlverişli şərait yaradır.

Naxçıvan Muxtar Respublikası da əlverişli günəş radiasiyasına və yüksək bərpaolunan enerji potensialına malikdir. Qədim diyarda ümumi gücü 39 MVt olan günəş elektrik stansiyaları fəaliyyət göstərir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023–2024-cü illər üzrə Tədbirlər Planına əsasən, burada "Yaşıl enerji zonası"nın yaradılması nəzərdə tutulur, eyni zamanda, külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin xarici investisiya hesabına işə salınması və onun ən azı 1000 MVt-nın Türkiyə və Avropa istiqamətində ixrac olunması qarşıda əsas vəzifə kimi qoyulur.

***Hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Məişət zorakılığı qadın ləyaqətinə vurulan ağır zərbədir

## Bu ictimai bəlaya qarşı mübarizə davamlı və məqsədyönlü olmalıdır

**Ölkəmizdə məişət zorakılığı hallarının mövcudluğu hüquqi müstəvidə bütün cəmiyyətlərdə olduqca mürəkkəb problem olan bu məsələ ilə mübarizəni gündəmə gətirir. Ona görə də, məişət zorakılığı və ya ailədə zorakılıq halları yalnız bir ailə üçün deyil, bütövlükdə cəmiyyət üçün təhlükəlidir. Bunun qarşısının alınması hüquqi, sosial və qabaqlayıcı tədbirlər görülməsini zəruri edir. Ölkəmizdə bu missiyanı yerli icra hakimiyyəti orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Təhsil Nazirliyi həyata keçirir. Çətin şəraitdə yaşayan, risk qrupuna daxil olan qadınlarımız üçün Heydər Əliyev Fondu, BMT-nin İnkişaf Proqramı, Əhali Fondu ilə sıx əməkdaşlıq çərçivəsində müxtəlif tədbirlər, təlimlər, dəyirmi masalar təşkil edilir.**

Qadınların iqtisadi cəhətdən gücləndirilməsi, onların zorakılığa məruzqalma səviyyəsinə də təsir edir. İqtisadi cəhətdən asılı olmayan qadın özünə inamlı olur, özünü daha rahat ifadə edə bilir. Buna görə, xüsusilə nisbətən daha aztəminatlı, sağlamlıq imkanları məhdud, qaçqın və məcburi köçkün qadınların kiçik və orta sahibkarlığa cəlb edilməsi, müxtəlif peşələrə sahib olması çox vacibdir.

Məişət zorakılığı qurbanlarının, eləcə də zorakılığı törətmiş insanların şəxsiyyətlərinin öyrənilməsi problemin səbəblərinin araşdırılması imkanlarını artırır. Bu baxımdan zorakılığa məruz qalanların sosial-demoqrafik vəziyyətinin, zorakılıq qurbanı ilə onu törətmiş şəxs arasında qarşılıqlı əlaqənin, eyni zamanda, zorakılığın müddətinin və regional xüsusiyyətlərin öyrənilməsi zəruridir. Nazirlər Kabinetinin Qərarına əsasən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Məişət zorakılığı ilə bağlı məlumat bankı yaradılmışdır. Məlumat bankında baş vermiş məişət zorakılığı halları, bu hallarla bağlı dövlət orqanlarına müraciət etmiş şəxslər, aparılmış araşdırmalar və nəticələri, zorakılıq halları ilə əlaqədar məsuliyyətə cəlb edilənlər, məhkəmə qərarları, o cümlədən valideynlik hüquqlarından məhrum edilmiş və ya hüquqları məhdudlaşdırılmış şəxslər, eləcə də valideynlik hüquqları bərpa edilmiş və ya hüquqlarının məhdudlaşdırılması ləğv edilmiş şəxslər, akkreditə edilmiş yardım mərkəzləri, onların fəaliyyəti barədə və digər məlumatlar toplanır və təhlil olunur. Bu təhlillərin nəticəsində isə maarifləndirmə təlimlərinin hədəfləri müəyyən edilir.

Məişət zorakılığı probleminin həlli hərtərəfli yanaşma və məqsədli tədbirlərin həyata keçirilməsini tələb edir. Bu məsələdə yalnız dövlət qurumları və təşkilatlarla deyil, həm də vətəndaşlarla əməkdaşlıq şəklində iş aparılır. Sosial şəbəkələrdə zorakılıq hadisələri ilə bağlı paylaşımlar onu göstərir ki, cəmiyyətimiz də artıq bu problemlə bağlı öz mövqeyini göstərməyə hazırdır. Bugünkü müzakirənin iştirakçıları bu mövzuda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə təqdim etdikləri layihələrlə bağlı fikir bildirirlər.

**Səidə QOCAMANLI,**
**"İnsan Hüquqları və Qanunçuluğum Müdafiəsi" İctimai Birliyinin sədri**



– 2005-ci ildə dövlət qeydiyyatına alınan təşkilatımız qeyri-rəsmi 2000-ci ildə yaradılıb. Əsas məqsədi insan hüquqlarının müdafiəsi və maarifləndirilməsi olan ictimai birliyimiz öz fəaliyyətində insan hüquqları sahəsində müdafiəni təşkil edib, monitorinqlər aparıb, insan hüquqları üzrə hesabatlar hazırlayıb və bu hüquqlara dair maarifçilik proqramları həyata keçirib. Bu işləri Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, Avropa İttifaqı, Finlandiyanın Xarici İşlər Nazirliyi və digər qurumlarla əməkdaşlıq çərçivəsində reallaşdırmışıq.

Ötən illərdə maarifçilik sahəsində insan hüquqlarının müxtəlif aspektlərinə dair layihələr həyata keçirmiş, bu hüquqlara aid vəsaitləri azərbaycan dilinə tərcümə etmişik. Bunların arasında uşaq bağçalarında, ibtidai və orta məktəblərdə istifadə edilən "İlk addımlar", hüquq müdafiəçiləri üçün nəzərdə tutulmuş "İnsan hüquqlarının monitorinqi" vəsaitlərini qeyd edə bilərəm.

Qadın hüquqlarına dair bir sıra layihələri ölkənin regionlarında icra etmişik. Belə ki, 2019-cu ildə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının dəstəyilə "CEDAW Komitəsinə 2015-ci ilin beşinci dövr hesabatının nəzərdən keçirilməsi zamanı Azərbaycan üçün qəbul edilmiş qeyd və tövsiyələrin icra vəziyyəti barədə Alternativ hesabat" adlı, 2019–2020-ci illərdə Finlandiya Xarici İşlər Nazirliyinin yardımı ilə Bakıda, Xaçmaz, Qax, Balakən, Cəlilabad, Masallı və Şamaxı rayonlarında "Bələdiyyələrdə gender bərabərliyinin monitorinqi və bələdiyyələr üçün qadınların təşviqatı" adlı, 2021-ci ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyilə Zaqatala, Balakən, Astara və Masallı rayonlarında "Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır" adlı layihələr icra etmişik.

Bundan başqa, 2022-ci ildə agentliyin dəstəyilə Masallı, Astara və Şamaxıda "Erkən və qohumlar arasında nikahların qarşısının alınması istiqamətində təşəbbüslər" adlı, 2023-cü ildə isə 2 – BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının donorluğu ilə Zaqatala, Balakən, Astara, Masallı və Şamaxıda "Əhalinin həssas qruplarının iqtisadi, sosial və mədəni hüquqları haqqında maarifləndirilməsi və bu hüquqların həyata keçirilməsi şəraitinin monitorinqi" adlı və digəri agentliyin dəstəyilə "Regionlarda qadın sahibkarlığının inkişafına təşəbbüs" adlı layihəni Astara və Masallıda icra etmişik.

2024-cü ildə həyata keçirilməsini planlaşdırdığımız layihənin adı "Məişət zorakılığına qarşı mübarizə məqsədilə ictimai müzakirələrin keçirilməsi"dir. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirəcəyimiz layihənin məqsədi regionlarda məişət zorakılığına qarşı mübarizəyə dair təşəbbüslərin irəli sürülməsi, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun təbliği və işləmə mexanizmlərinin tapılması, məişət zorakılığı probleminin ictimailəşdirilməsidir. Layihə regionlarda məişət zorakılığı probleminin müxtəlif strukturların birgə fəaliyyət göstərərək tənzimlənməsi vasitəsi ilə həllində məsul olanların məsuliyyətinin artırılmasından bəhs edir.

Layihə çərçivəsində sakinlər, yerli icra hakimiyyəti, bələdiyyələr, QHT, KİV və dini icma nümayəndələri məlumatlandırılacaq və problemin həlli yollarının tapılması ilə bağlı əldə edilən bilgiləri gələcək fəaliyyətlərində tətbiq edəcəklər. Əminik ki, zorakılığa məruz qalan qadınlar və onların yaxınları, bələdiyyə, rayonda fəaliyyət göstərən vətəndaş cəmiyyətinin nümayəndələri layihədən faydalanacaqlar. Problemin həlli yollarından biri də bələdiyyələrin zorakılıq hallarına daha məsuliyyətlə yanaşmasını tələb edir və bələdiyyələrin nəzdində "qadın otaqları"nın təşkil edilməsini zəruri hesab edir. Bu otaqlar qadınların güvənc yeri, onların müdafiə qalası olmalıdır.

Gələcəkdə yerli icra hakimiyyətləri, bələdiyyələr, QHT-lər, digər müvafiq qurumlar və əhalinin fəal təbəqəsinin iştirakı ilə yerlərdə problemlərin daha asan həll olunacağını düşünürük. Əhali məişət zorkılığı ilə bağlı məlumatlı olduğundan müvafiq qurumların bu sahə ilə bağlı işlərinin aparılmasına ictimaiyyətin nəzarəti artacaq, zorakılığa məruz qalan şəxslərlə təşkilatımızın əlaqəsi qurulacaq və onları nəzarətdə saxlaya biləcəyik.

**Zenfira MUSTAFAYEVA,**
**"Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım" İctimai Birliyinin sədri**

– 2003-cü ildə qeydiyyatdan keçən təşkilatımızın məqsədi qadınların hüquqlarının müdafiəsi, onların sosial rifahının yaxşılaşdırılması, təhsil və mədəni səviyyələrinin yüksəldilməsi, qanunvericiliyin qadınların manafeyinə uyğunlaşdırılması, gender bərabərliyinin təşviqi, aztəminatlı və kimsəsiz olan şəxslərə müxtəlif yardımların göstərilməsidir.

Bu günə kimi məişət zorakılığı və insan alverinə qarşı mübarizə mövzusunda çox sayda layihələr həyata keçirmişik. Bunların içərisində Qadın Krizis Mərkəzinin yaradılması, gender bərabərliyinin təmin olunması sahəsində maarifləndirmə, qadın hüquqlarının müdafiəsi sahəsində təşkilatı tədbirlərin gücləndirilməsi, Məktəb Psixoloqu Resurs Mərkəzinin yaradılması, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yay düşərgələrinin təşkil edilməsi, insan alveri və məişət zorakılığı



qurbanları üçün xidmətlərin göstərilməsi və digərlərini deyə bilərəm.

Agentliyə təqdim etdiyimiz hazırki layihə "Məişət zorakılığına qarşı mübarizə təşəbbüsləri" adlanır. Layihə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə həyata keçiriləcək. Əsas məqsədimiz təşkilatın nəzdində yaradılmış Regional İlkin Dəstək Reabilitasiya Mərkəzi vasitəsi ilə bölgələrdə məişət zorakılığı və insan alverinə qarşı mübarizənin güclənməsində dövlətə yardım göstərməkdir. Layihənin predmeti qismində məişət zorakılığı və insan alverinin birgə götürülməsi ona görə zəruri olmuşdur ki, bu amillərdən birinin mövcudluğu digərinin baş verməsi üçün əlverişli şərait yaradır. Mərkəzdə layihənin hədəf qruplarına göstərilən ilkin dəstək xidmətləri qabaqlayıcı və reabilitasiya xarakerli olacaq. Məişət zorakılığı və insan alverinin qurbanına çevrilmək riski olan şəxslər qabaqlayıcı (dəstək) xidmətlərdən faydalandıqdan sonra onlara münasibətdə bu təhlükə ciddi sürətdə azalacaq.

Rəsmi statistikaya görə, məişət zorakılığı və insan alveri qurbanlarının əsasən qadınlardan ibarət olması nəzərə alınaraq, layihə fəaliyyəti ilk növbədə onların və ailə üzvlərinin müdafiəsinə, sosial rebilitasiyalarına yönəlmişdir. Layihə çərçivəsində hədəf qruplarına göstəriləcək sosial, hüquqi və psixoloji xidmətlər risk qrupuna daxil olan şəxslərin məişət zorakılığı və insan alveri qurbanına çevrilməsinin qarşısının alınmasına kömək edəcək. İcra edəcəyimiz reabilitasiya proqramları isə, artıq bu əməllərin qurbanı olmuş şəxslərin hüquqi və psixoloji durumunun yaxşılaşdırılması, onların cəmiyyətə yenidən inteqrasiyası üçün şəraitin yaradılması ilə nəticələnəcək.

Hazırkı layihənin icra dairəsi Sumqayıt şəhəri və Sumqayıt Apellyasiya Məhkəməsinin ərazi yurisdiksiyasına daxil olan 12 rayon və şəhəri əhatə edəcəkdir. Qeyd etmək lazımdır ki, bir sıra regional (inzibati, kommersiya, ağır cinayətlər) mərkəzlər Sumqayıt şəhərində yerləşir. Məişət zorakılığı və insan alverinə qarşı mübarizə praktikası, habelə rəsmi statistikaya görə göstərilən regionda insan alveri, məişət zorakılığı qurbanlarının və risk qrupunda daxil olan şəxslərin sayı digər bölgələrə nisbətdə çoxluq təşkil edir. Eyni zamanda, bu regionda məişət zorakılığı və insan alverinə qarşı mübarizə aparmaq üçün zəruri olan vasitə və mexanizmlər (yerli telekanallar, digər kütləvi informasiya vasitələri, vətəndaş cəmiyyəti qurumları və sair) mövcuddur. Biz hesab edirik ki, həmin mexanizmlər vasitəsi ilə regionda məişət zorakılığı və insan alveri qurbanlarının sayının artmasının qarşısını almaq mümkün olacaq.

Layihə çərçivəsində göstərilmiş xidmətlərdən hədəf qruplarına daxil olan 150 nəfər şəxs faydalanacaq. Mərkəz tərəfindən həyata keçirilən hüquq maarifçiliyi, maarifləndirmə kompaniyası hesabına insan alveri, məişət zorakılığı onlardan müdafiə mexanizmləri barədə biliklər əldə etmiş əhali sayı 320 min – 480 min nəfər nəzərdə tutulur.

**Xanım ƏHMƏDZADƏ,**
**"Hüquqşünas Qadınlar Assosiasiyası" İctimai Birliyinin sədri**



– Uzun illərdir ki, ictimaiyyətin maariflənməsi, vətəndaşların hüquqlarının müdafiəsi, məişət zorakılığına qarşı mübarizə ilə bağlı bir çox layihələr icra etmişik. İctimai birliyimiz 2007-ci ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş qeyri-hökumət təşkilatıdır. Müxtəlif qanun pozuntuları ilə qaşılaşmış vətəndaşlara hüquqi yardım göstərmiş, məsləhət vermiş, məhkəmə çəkişmələrində hüquqi nümayəndə kimi iştirak etmişik. Təşkilatımız vətəndaşlarla müxtəlif mövzularda ictimai müzakirələr keçirib, iqtisadi-sosial hüquqlarının pozulmasından ziyan çəkmiş vətəndaşlara hüquqi məsləhət verib, problemlərinin həll olunmasında dəstək olub. İcra etdiyimiz layihələrdə cəmiyyətin müxtəlif sosial qrupları və təbəqələri fəal iştirak edib, ictimai fəaliyyətimizdən məmnun qalıblar.

Ötən müddətdə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının (hazırda agentliyi) maliyyə yardımı ilə "Hasilat Sənayesində Şəffaflıq" prosesləri və hesabatlarının ictimai müzakirəsinin keçirilməsi", "Pandemiya dövründə ehtiyacı olan ailələrə sosial dəstək", "Qadın hüquqlarının təbliği və müdafiəsi ilə bağlı fəaliyyətin dəstəklənməsi", "Məişət zorakılığı ilə mübarizə sahəsində ictimai müzakirələrin təşkili", "Qadınlar özünüməşğulluq proqramında–öyrənək və öyrədək" adlı tədbirlərin təşkili layihələrini icra etmişik.

Bu il icrası nəzərdə tutulan "Məişət zorakılığına məruz qalmış ailələrə hüquqi xidmət" adlı layihə zərərçəkmiş ailələrə həm hüquqi, həm də psixoloji dəstək olmaq məqsədi ilə maarifləndirmə tədbirlərinin keçirilməsindən və münaqişəli ailələrlə fərdi görüşlərin təşkil edilməsindən bəhs edir. Məqsədimiz 25–30 benefisiar üçün təlim keçib layihəni bitirmək və nəticə gözləmək deyil. Biz onların problemlərini özlərindən öyrənmək, tədbirlərdən bir canlı mikrofon kimi istifadə edib onları eşitmək, dərdlərinə kömək olmaq üçün icazələri ilə ailələrlə görüşmək istəyirik. Təcrübə göstərir ki, ailələrə ayaq açmadan, ailədə təsir gücünə malik olanlarla ünsiyyət qurmadan məişət zorakılığının və ailədaxili münaqişələrin qaqrşısını almaq mümkün deyil.

Layihənin həyata keçiriləcəyi çoğrafi ərazi əsasən, ölkəmizin cənub rayonları və Bakı ətrafı kəndlərdir. Qeyd olunan ərazilərdə məişət zorakılığı ilə bağlı şikayətlərin çoxluğunu nəzərə alaraq, layihənin bu yerlərdə keçirilməsini qərara almışıq. Layihəmizdə əsasən Neftçala, Lənkəran, Masallı, Cəlilabad, Lerik rayonlarının və Bakının Suraxanı rayonunun sakinlərinin iştirakı nəzərdə tutulub. Tədbirlərin ünvanlandığı əhali qrupunun əksəriyyətini cəmiyyətin müxtəlif fəaliyyət sahələrini təmsil edən qadınlar olmaqla, gənclər, məktəblilər və məişət zorakılığına məruz qalmış vətəndaşlar təşkil edir. Onu da qeyd edim ki, yeniyetmələrlə işləmək daha maraqlıdır. Bizə edilən müraciətlərdəki faktlara görə, etiraf etməliyəm ki, məişət zorakılığına məruz qalmış kişilər də az deyil.

Layihənin əsas tərəfdaşları Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Daxili İşlər Nazirliyidir. Layihənin icrasına iyunun 1-dən başlayacağıq.

**Ziba QULİYEVA,**
**"İnkişaf Təşəbbüsləri" İctimai Birliyinin sədri**



– Təşkilatımız 2009-cu ildə Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınıb. Məqsədimiz cəmiyyətə baş verən neqativ halların aradan qaldırılması, qadın və qızların sosiallaşması, onların cəmiyyətə fayda verə biləcək işlərlə məşğul olması, təhsilə davam etməsi kimi məsələlərin həllinə çalışmaqdır. Bu mənada indiyədək həyata keçirdiyimiz layihələrin müsbət nəticələri bizi daha yeni layihələrə imza atmağa ruhlandırıb. 2010-cu ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Motivasiya edici metodlardan istifadə etməklə və maarifləndirmə yolu ilə qızların məktəbə davamiyyətinin artırılması və təhsil səviyyəsinin yüksəldilməsi" layihəsini icra etmişik. 2012–2013-cü illərdə BMT-nin Uşaq Fondunun maliyyə dəstəyi ilə Lənkəran və Masallı rayonlarında "Uşaq evliliyinə yox deyək!" layihəsini həyata keçirmişik. 2016-cı ildə isə yenə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Bakıda yerləşən məcburi köçkün icmalarında "Erkən nikahların qarşısının alınması" layihəsini reallaşdırmışıq. Tədbirlərimizdə iştirakçıları erkən nikahın fəsadları, qızlarımızın erkən aiə qurmasının onların fiziki sağlamlığına təsiri, ana olmağa hələ hazır olmamaları, belə ailələrdə doğulan uşaqlarda baş verən xəstəliklər barədə məlumatlandırmışıq.

Hazırda agentliyə təqdim etdiyimiz layihə "Bərdə və Göygöl rayonlarında məişət zorakılığı ilə mübarizə" adlanır. Layihəni bu il iyunun 1-dən avqustun 31-dək həyata keçirməyi nəzərdə tutmuşuq. Layihənin əsas məqsədi məişət zorakılığı haqqında qadın və qızların, icma üzvlərinin məlumatlılığını artırmaq və bu cür halların qarşısının alınmasına dəstək verməkdir. Layihənin nəticəsi olaraq, məişət zorakılığının qarşısının alınmasında qadınların və icma üzvlərinin məlumatlılığının artması, bu problemin aradan qaldırılması istiqamətində insanların davranış və təcrübələrində dəyişikliklərin olması nəzərdə tutulur.

Bərdə və Göygöl rayonlarında yaşayan kənd qadınları və qızlar, o cümlədən məcburi köçkünlər, az təhsilli qadınlar, ailə qurmuş gənc qadınlar, aztəminatlı ailələrdən olan qadınlar, eləcə də, kişilər maarifləndirmə tədbirlərində iştirak edəcəklər.

Layihənin icrası müddətində məişət zorakılığı mövzusunda "dəyirmi masa"ların keçirilməsini nəzərdə tutmuşuq. "Dəyirmi masa"lardakı maarifləndirmə tədbirlərində məişət zorakılığının növləri və qabaqlayıcı tədbirlər, eləcə də mövcud xidmətlər və problemlərin həlli yolları haqqında məlumat veriləcək, iştirakçıları maraqlandıran suallar cavablandırılacaq.

**Mehriban MƏMMƏDOVA,**
**"Humanitar Tədqiqatlar" İctimai Birliyinin sədri**



– Təşkilatımız 2000-ci ildə rəsmi qeydiyyatdan keçsə də 1997-ci ildən fəaliyyət göstəririk. Ötən müddətə Bakıda, cəbhəyanı bölgələrdə və həmçinin ölkə xaricində yerli və xarici təşkilatlarla bir çox layihələr həyata keçirmişik. İctimai birliyimiz qaçqınların, məcburi köçkünlərin, qadınların və gənclərin qarşılaşdığı bir çox problemlərin həlli ilə bağlı layihələr, sorğular və təlimlər təşkil etmişdir. O cümlədən, ölkədə yaşayan etnik azlıqlara, qaçqın və məcburi köçkünlərə həsr olunmuş sənədli filmlər də ərsəyə gətirmişik.

Son illərdə icra etdiyimiz layihələrimizdən danışsaq, deyə bilərəm ki, 2022-ci ildə Ağdam, Tərtər, Qazax və Tovuz rayonlarında icra etdiyimiz "Cəbhəyanı regionda məişət zorakılığının azaldılmasına dəstək tədbirlərinin təşkili" və Tovuz, Qazax, Gəncə, Goranboy, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Füzuli və Cəbrayıl rayonlarında reallaşdırdığımız "Müharibənin təsirlərinin öyrənilməsi və hesabatın hazırlanması", 2023-cü ildə Ağdam, Tərtər, Bərdə və Qazax rayonlarında keçirdiyimiz "Regionlarda sülh quruculuğu və birgə yaşayış sayəsində müzakirələrin təşkili" layihələrini çox böyük uğurla təşkil etmişik. Belə ki, reallaşdırdığımız hər layihə ilə bağlı təşkil etdiyimiz tədbirlərdən sonra ünvanımıza razılıq dolu mesajlar almışıq. Regionda sülh quruculuğunun və birgəyaşayışın mümkünlüyü ilə bağlı fikirlərimiz müsbət qarşılanıb. Cəbhəyanı rayonlardan aldığımız mesajlarda məişət zorakılığı hallarının azaldılmasını bildiriblər. Bunlar bizi bu sahədə fəaliyyətimizi daha da genişləndirməyə ruhlandırıb.

İyun ayında "Humanitar Tədqiqatlar" İctimai Birliyi yeni – "Məişət zorakılığına qarşı mübarizə ilə bağlı hüquqi maarifləndirmə" adlı layihənin icrasına başlayacaq. 3 ay müddətində icra edəcəyimiz layihəni Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirəcəyik. Layihənin Ağdam, Bərdə və Mingəçevirdə reallaşdırmasını nəzərdə tuturuq.

Qeyd edim ki, layihənin hədəf qrupu məişət zorakılığından əziyyət çəkən və risk qrupuna aid şəxslər olacaq. Bu mənada düşünürəm ki, məişət zorakılığının qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən gənc, orta yaşlı şəxslərlə yanaşı, yaşlılar da faydalanacaq. 3 rayonda keçirəcəyimiz məlumatlandırma sessiyaları vasitəsilə 60 nəfər region sakininin məişət zorakılığından aktiv müdafiə mexanizmləri ilə bağlı maarifləndirilməsini nəzərdə tuturuq. Bundan başqa, əlavə olaraq, 30 nəfər qadına hüquqi məsləhət xidməti göstərəcəyik.

Layihənin icrası zamanı tərəfdaş qurum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olacaq. Keçirilən tədbirlər zamanı Ağdam, Bərdə və Mingəçevir rayon icra hakimiyyətləri, həmin bölgələrdəki Qadın Resurs Mərkəzləri və digər yerli qeyri-hökumət təşkilatları ilə də əməkdaşlıq edəcəyik. Qadın Resurs Mərkəzləri vasitəsi ilə həmin rayonlarda da hüquqi məsləhət xidmətinə ehtiyacı olanlar cəlb olunacaq. Əminik ki, bu layihəmiz də əvvəllər həyata keçirdiyimiz layihələr kimi uğurlu olacaq.

**Cavid HÜSEYNLİ,**
**"Gənc Hüquqşünaslar" İctimai Birliyinin sədri**



– Təşkilatımız 1999-cu ildə təsis olunmuşdur. İctimai birliyin əsas məqsədi gənclərin sağlam mühitdə yetişməsi, mental, fiziki və əqli inkişaflarının dəstəklənməsi istiqamətində layihələrin həyata keçirilməsidir. Fəaliyyətimiz dövründə təşkilatımız gənc ailələrdə son zamanlar yaşanan neqativ halların, o cümlədən məişət zorakılığının qarşısının alınması üzrə maarifləndirici tədbirlərin, seminarların həyata keçirilməsində yaxından iştirak etmişik.

Qeyd edək ki, 2020-ci ildən etibarən ictimai birliyimiz məişət zorakılığının qarşısının alınması və gender bərabərliyi ilə bağlı bir sıra qrant müsabiqələrinin qalibi olmuşdur.

2022-ci ildə təşkilatımız "Gender bərabərliyi sağlam həyat tərzidir" adlı layihə reallaşdırıb. Həmin layihəni Bakı, Gəncə, Tovuz, Yevlax, Sumqayıt, Qazax şəhərlərində icra etmişik. Layihəni həyata keçirərkən tədbirlərimizdə iştirak edən 240 nəfəri sağlam həyat tərzi ilə bağlı məlumatlandırmışıq. 2023-cü ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin keçirdiyi müsabiqə üzrə qalib gələn layihəmiz isə "Gender bərabərliyi və məişət zorakılığı ilə mübarizə" mövzusuna həsr olunub. Layihəni həyata keçirmək məqsədilə tədbirlərin təşkili, məlumat xarakterli nəşrlərin hazırlanması adı altında Bakıda 2, Sumqayıt, Lənkəran, Qazax, Tovuz və Mingəçevir şəhərlərinin hər birində isə 1 dəfə seminarlar təşkil edib iştirakçıları maarifləndirmişik.

Qeyd edək ki, "Gənc Hüquqşünaslar" İctimai Birliyi bu il də agentlik tərəfindən elan olunmuş kiçik qrant müsabiqəsinin qalibləri sırasında yer alıb. "Məişət zorakılığına qarşı hüquqi mübarizə" layihəsini Bakı, Sumqayıt, Tovuz, Qazax, Lənkəran, Gəncə, Yevlaxda reallaşdırmağı nəzərdə tuturuq. Layihənin əsas hədəfi 18 yaşdan yuxarı gənclər (qadın və kişi), eyni zamanda, yeni ailə həyat qurmuş insanlar olacaq.

Layihənin icra müddəti ərzində "Gənc Hüquqşünaslar" İctimai Birliyinin əməkdaşlıq etdiyi donorlar, təşkilatlar və o cümlədən vətəndaş cəmiyyəti institutları, əsas etibarilə, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Mediasiya Şurası, Gənclər Fondu, Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsi, Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsi, BMT-nin Əhali Fondu, Avrasiya Hüquqşünaslar Assosiasiyası, "Təmiz Dünya" Qadınlara yardım İctimai Birliyi olacaqdır.

Layihəni iyun ayında başlamağı və 4 ay müddətində tamamlamağı nəzərdə tuturuq. Önümüzdəki həftələrdən başlayaraq, məişət zorakılığı və gender bərabərliyi istiqamətində tədbirlərin təşkilini həyata keçirəcəyik.

*Hazırladı:*
***Zərifə HÜSEYNOVA***
***XQ***

# Şuşanın növbəti “Xarıbülbül” təntənəsi

**Bu gün “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı yenidən iştirakçıları mədəniyyət paytaxtımız Şuşaya – Cıdır düzünə toplayıb. Özü də budəfəki festivalın səsi-sədası əvvəlkilərdən fərqli olaraq həm Şuşadan, həm də Laçından gəlir.**




Zəngin proqramlı “Xarıbülbül” Azərbaycan mədəniyyəti tarixinə qızıl hərflərlə yazılan səhifədir. Bu festivalın təməli hələ 1989-cu ildə, məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi zamanı qoyulub, Qarabağın işğalına qədər hər il keçirilib. 44 günlük Zəfər yürüşündən sonra, 2021-ci ilin mayında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xarıbülbül” yenidən bərpa olunub. Açılışlarda Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak ediblər. Dövlət başçısı ürək sözlərini söyləyib.

Bu il 35 yaşını qeyd edən, sayca 7-ci olan festival da Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutur. Xatırladaq ki, Şuşa şəhəri 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunub. Azərbaycan Prezidenti ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Öz növbəsində “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı da islam dünyası ölkələri arasında mədəni əlaqələrin inkişafına töhfələr verəcək. Builki festival iştirakçıları arasında həm də İSESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər dəvət olunublar.

Festival proqramı iştirak edəcək ifaçıların zənginliyi ilə yanaşı, həm də repertuar və fərqli təqdimatlarla yadda qalacaq. Bu gün Cıdır düzündə “Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024” ilinin və “Xarıbülbül” VII Beynəlxalq Musiqi Festivalının açılış konserti keçiriləcək.

Mayın 13-də isə Laçında, Həkəri çayının sahilindəki bulvarda davam edəcək. Orada qonaqlar üçün fərqli ölkələrdən gələn ifaçıların təqdimatında əlvan proqramlı konsert veriləcək.

***Ə.ƏLİYEV***
***XQ***

# İki Məhəmməd dühasının ədəbi-estetik görüşü

## Füzuli poeziyası Rəsulzadə poetikasında

### I yazı



**Müsəlman Şərqində ilk Cümhuriyyətin qurucularından olmuş, ədəbi-içtimai fikir tariximizə layiqli töhfələr vermiş, 140 illiyini qeyd etdiyimiz görkəmli içtimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadə həm də ədəbiyyatşünas idi. Onun 530 yaşı tamam olan adaşı – dahi şairimiz Məhəmməd Füzuli ilə bağlı görüşləri klassik irsə təəssübkeş münasibətin nümunəsidir.**

Ədəbiyyatşünaslıq elminə dəyərli töhfələr vermiş Məhəmməd Əminin ədəbi-nəzəri yaradıcılığının mühüm bir qolunu da klassik irslə bağlı araşdırmaları təşkil edir. Gənc yaşlarından ədəbiyyat və incəsənətlə ciddi məşğul olaraq, klassikaya, XX əsr Azərbaycan ədəbiyyatına, bədii prosesə dərindən bələdliyi ilə seçilib.

“Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarı, anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmiş” Məhəmməd Füzulinin uca sənətindən daha ardıcıl söz açan və dəyərli fikirlər söyləyən də M.Ə.Rəsulzadə olub.

Onun bu yönümdəki fəaliyyəti ardıcıl, sistemli araşdırmalarla müşayiət olunur. Maraqlıdır ki, M.Ə.Rəsulzadə Füzuli haqqında fikir söyləyərkən onun yaradıcılığını geniş təhlil etməyə ehtiyac duymamış, daha çox xarakterik cizgiləri qabartmağa çalışmış, klassik şerimizin iftixarının dilimizin və ədəbiyyatımızın inkişafındakı xidmətləri barədə tamamilə fərqli və obyektiv fikirlər söyləmişdir.

M.Ə.Rəsulzadə “bütün türklüyün dahi şairi” hesab etdiyi Füzuli haqqında 1923-cü ildə İstanbulda nəşr edilmiş “Azərbaycan Cümhuriyyəti” əsərində belə yazırdı: “Füzuli Azərbaycanda hər yerdən ziyadə mərufdur. Azərbaycanlıların ən çox oxuduğu və ən çox sevdiyi şair Füzulidir…. Füzuli divanı hər yerdən ziyadə Təbrizdə basılmışdır. Hafiz divanı farslar üçün nə isə, Azərbaycan türkləri üçün də Füzuli divanı odur”. Bu, əslində, “qəlb şairi”nin milli ədəbiyyat tariximizdəki yerinin və mövqeyinin konkrek olaraq müəyyən edilməsi deməkdir.

Ana dilli ədəbiyyatın yaranması və formalaşması məsələlərinə həssaslıqla yanaşan M.Ə.Rəsulzadə 1949-cu ildə çap etdirdiyi “Azərbaycan kültür gələnəkləri” əsərində göstərir ki, 3 dildə yazıb-yaradan dahi şairin türkcə şerləri anadilli Azərbaycan ədəbiyyatının inkişafına əhəmiyyətli təsir göstərmişdir. O, bunu dövlət quruculuğunun (“Şah İsmayılın sarayı azəri türk ədəbiyyatının yaradıcı ocağı və bir akademiyası idi… Səfəvi sarayının rəsmi dili də türkcə idi” (M.Əmin) təbii yekunu, şairin istiqlal məfkurəsi fikrinə xidməti kimi qiymətləndirirdi.

M.Ə.Rəsulzadə 1936-cı ildə Parisdə nəşr etdirdiyi “Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində yazırdı: “Əgər diqqət edilsə, ona qədər və ondan sonra bir çox böyük klassiklər – Fələki və Xaqani Şirvanilər, eləcə də Nizami Gəncəvi həqiqi Azərbaycan şairi olsalar da, fars dilində yazırdılar, onda aydın olar ki, sözün milli mənasında Füzuli hansı ədəbi inqilabı etmişdir”. Bu inqilabın mahiyyətindən bəhs edən müəllif göstərirdi ki, “Bir millətin həyatında maddətən və mənən bu qədər bir əhəmiyyətə malik olan dili biz Azərbaycan türkləri vaxtilə unutmaq üzrə idik... Sonra Füzuli əleyhirrəhmənin təsiri-fəyyazı təxtində yetişən bir çox azərbaycanlı türk şairləri bu təhlükəli nisyanın önünü aldılar, “yaman-yaxşı” bir ədəbiyyat vücudə gətirdilər”.

Görkəmli ictimai xadim “Nəzmi-nazik türk ləfzilə ikən düşvar olur,” – deyən və “türk ləfziylə” yazmağın çətin olduğunu bildirən böyük şairin ana dilində yazmasını, mümkün olmayanı – “dikəndən bərgi-gül izhar” etdiyini milli təəssübkeşlik kimi qiymətləndirərək yazırdı ki, ana dilində yazıb-yaratmış “Atəşli hürufi Nəsimi ilə Şərqin ən böyük liriki Füzuli yalnız Azərbaycan deyil, türkcə oxuyan bütün dünyanı həyəcanlandırır...”

Füzulinin türkcə “Divan” yaratması, “Leyli və Məcnun”u, məhərrəmlik təziyədarlığının ana dilində icrası üçün zəmin yaratmaqdan ötrü “Hədiqətüssüəda”nı yazması, Ə.Caminin “Hədisiərbəin” əsərini türkcəyə çevirməsi türk ədəbi dilinin və ədəbiyyatının tarixində misilsiz hadisə idi. Bu, ədibin türk dili qarşısında övlad və şair kimi ən böyük xidməti idi. O, bütün çətinliklərə qatlanaraq, ərəb və fars şeir dilləri ilə yarışa girə bilən Azərbaycan ədəbi dilinin nəzmi-nazik klassik şeir zirvəsini yaratmış, “türk ruhlu – fars dilli” ədəbiyyatın “hökmranlığına” son qoymuşdur. Beləliklə, müsəlman şərqində ədəbiyyatda vahid “türk dili məkanı” formalaşdırmış və bu məkanın “şəriksiz sahibi” olmuşdur.

Həqiqətən, dilə münasibətdə Füzuli şüurlu şəkildə türk milliyyətçisi kimi hərəkət etmişdir. Bu mənada M.Ə.Rəsulzadənin azəri şerinin dahi ustadı Füzulinin ədəbi fəaliyyətində onun milliyyətçiliyini xüsusilə qabartması təbii idi. O, Ə.Qaraxanın “Füzuli: mühiti, həyatı və şəxsiyyəti” kitabına həsr etdiyi resenziyada şairin milliyyətinin mübahisə obyektinə çevrilməsini lüzumsuz sayaraq qeyd edirdi: “Füzuli – türklüyü isbat edilmək üçün yalnız əsərləri kafi ikən – mənşə və geneoloji etibarilə muhakkak ki, türkdür. Fəqət bir türkün Füzuli Türkdür – deyə isbata qalxması bir almanın fərəza (fərz edək) Göte və ya Şiller almandır, bir ingilisin Şekspir ingilisdir və bir italyanın Bokkaçio ilə Petrarka və ya Virgilli italyandır deyə monoqrafi yazmasına bənzəməzmi?!. Fəqət klassik bir türk şairinin milliyyətini münaqişə konusu yapmaq hər halda müsbət bir məşğuliyyət sayılamaz. …Füzulinin, bizcə, bəlirdiləcək və isbat olunacaq tərəfi onun türklüyü deyil, türkçülüyüdür: müəllif, şairin milliyyətindən ziyadə milliyyətçiliyi üzərində dursa idi, daha yerində hərəkət etmiş olurdu”. Bu məqsədlə M.Ə.Rəsulzadə resenziyada Füzulinin ədəbi fəaliyyətində onun milliyyətçiliyini xüsusilə əks etdirən məqamları xatırladır və belə bir fikir söyləyir ki, “irqən türk olmasa idi belə, türkə xitab üçün can atan şair, bu sifətilə, böyük bir türk şairi olmaqdan yenə məhrum qalmazdı”.

Böyük demokratın qəlbi “fars millətçiliyindən uzaq olub, türk sevgisi ilə dolu” (M.Əmin) olan dahi N.Gəncəvi ilə könüllər sultanı M.Füzulinin “Leyli və Məcnun” poemalarının bənzərliliyi və fərqliliyi barədə fikirləri də maraqlıdır. O, özünün çox qiymətli “Azərbaycan şairi N.Gəncəvi” adlı monoqrafiyasında həmin poemaları qarşılaşdırmış və mükəmməl təhlil aparmışdır. Bu barədə bir başqa yazıda bəhs edəcəyik.

***İmran VERDİYEV,***
***Əməkdar müəllim***

Şamil Qurbanov – 90

**İllərdən bəri görüb tanıdığım professor Şamil Qurbanov bu gün həyatda olmasa da, nurlu siması hələ də gözlərim önündən getməyib. Bilirəm, onun haqqında düşüncələrimi kiçik bir qəzet məqaləsinə sığışdırmaq mümkünsüzdür. Amma çətin olsa da, 90 illik yubileyində haqqında yazmaq qərarına gəldim.**

# “Açılmamış səhifələr”i açan ədəbiyyatşünas



Şamil Qurbanov Bakı Dövlət Universitetində müəllimimiz olub. Jurnalistika fakültəsində oxuyanda Şamil Qurbanovun mühazirələrini dinləmişik. Tələbələrin qəlbini fəth etməyi bacaran pedaqoq idi. Biz sevimli Şamil müəllimin sözündə bütövlük və dəqiqlik gördük. Çünki o, əxlaqi və mənəvi təmizliyi müəllim üçün ən ali dəyər sayırdı. Hər dəfə əl-ələ görüşdüyüm, parta arxasında oturub mühazirələrini, söhbətlərini dinlədiyim Şamil müəllimin xatirəsi unudulmazdır.

Şamil Qurbanov özünə və başqalarına qarşı tələbkar və prinsipial idi. Pedaqoji fəaliyyəti nümunəviliyi, elmi araşdırmaları dərinliyi ilə diqqət çəkib. Onun elmi fəaliyyətinin əsas istiqamətləri klassik Azərbaycan ədəbiyyatı, ədəbi əlaqələr, mühacirət ədəbiyyatı, repressiya qurbanları kimi tanınan ədiblərin yaradıcılıq problemlərinin tədqiqinə aid olub. O, 20-dən çox kitabın, 300-dək sanballı məqalənin müəllifidir. Azərbaycan publisistikasının görkəmli nümayəndələrindən Hüseyn Minasazovun, Ömər Faiq Nemanzadənin və Rəhim bəy Məlikovun “Seçilmiş əsərləri”ni tərtib edib və nəşr etdirib. Şamil Qurbanovun “Açılmamış səhifələr”, “Ədəbi dostluq”, “Klassik rus poeziyası Azərbaycanda”, “Ömrün fikir dünyası”, “Cəmaləddin Əfqani və türk dünyası”, “Nəriman Nərimanov dünyası” kimi əsərləri böyük maraqla qarşılanıb. Bu əsərlər İran, Türkiyə, İraq və başqa ölkələrdə də çap olunub, yayılıb.

Şamil Dünyamalı oğlu Qurbanov 1934-cü il mayın 10-da Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində doğulub. Kənd orta məktəbini 1955-ci ildə bitirib. Elə həmin ildə ADU-nun (indiki BDU-nun) jurnalistika şöbəsinə daxil olub. Universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra “Azərbaycan məktəbi” jurnalında ədəbi işçi kimi fəaliyyətə başlayıb. 1962-ci ildə Azərbaycan ədəbiyyatı tarixi kafedrası üzrə aspiranturaya qəbul olub. “Zaqafqaziya rusdilli mətbuatında Azərbaycan ədəbiyyatı (1905–1917)” mövzusunda dissertasiya işini vaxtından əvvəl müdafiə edərək, filologiya elmləri namizədi elmi dərəcəsi alıb.

Bir müddət “Bakı” və “Baku” axşam qəzetlərində ədəbiyyat və mədəniyyət şöbəsinin müdiri işlədikdən sonra yenidən universitetə qayıdıb. “Azərbaycan dili və onun tədrisi metodikası” kafedrasında dosent kimi çalışıb. 1973-cü ildən Türk və Şərqi slavyan xalqları ədəbiyyatı kafedrasına keçib. Şamil Qurbanov 1975-ci ildə “XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan-rus ədəbi əlaqələri” mövzusunda doktorluq dissertasiyası müdafiə edib və filologiya elmləri doktoru elmi dərəcəsi alıb. Rus ədəbiyyatından mühazirələr oxuyub. 1989-cu ildən həmin kafedranın müdiri işləyib.

Professor Şamil Qurbanov o dövrlərdə oxuculara az məlum olan maraqlı şəxsiyyətlərlə bağlı araya-ərsəyə gətirdiyi tədqiqat əsərlərini geniş oxucu kütləsinə təqdim edib. Həmin şəxsiyyətlər Rəhimbəy Məlikov, Məmməd Qarayev, Həmzətbəy Qəbulov, Şirvanski, Sona xanım Axundova, Kərim Yaycılı və başqalarıdır. O, həmçinin, Əlibəy Hüseynzadə, Əhmədbəy Ağaoğlu, M.Ə.Rəsulzadə kimi görkəmli şəxsiyyətlər haqqında da dərin məzmunlu tədqiqat əsərləri yazıb. Ən böyük xidmətlərindən biri də Ömər Faiq Nemanzadə və Şeyx Cəmaləddin Əfqani haqqında olan tədqiqatlarıdır. Bu parlaq şəxsiyyətlərin həyat yolundan böyük məhəbbətlə söhbət açıb.

Onun adı Azərbaycanın elmi, pedaqoji və siyasi ictimaiyyəti arasında hörmətlə çəkilir. Çünki nüfuzlu söz sahibi, ehtiram sahibi idi. Milli Məclisin I və II çağırış deputatı, parlamentin Elm və təhsil məsələləri daimi komissiyasının üzvü kimi, müstəqil Azərbaycan Respublikasında qanunvericilik aktlarının hazırlanıb qəbul edilməsində yaxından iştirak edib. Azərbaycan–Gürcüstan parlamentlərarası əlaqələrin möhkəmləndirilməsi və inkişafı üçün də yorulmaz səylər göstərib.

Ümumiyyətlə, Şamil Qurbanov üzərinə düşən vəzifələrə həmişə dərin məsuliyyətlə yanaşıb, hər işin öhdəsindən ləyaqətlə gəlib. Dəfələrlə beynəlxalq simpozium və konfranslarda (Ankara, Bursa, Tehran, Bağdad, İsfahan, Moskva, Tbilisi, Daşkənd və Düşənbə) iştirak edib. Məhz bunlar onun ömür kitabına yazılan səhifələr və həyatda qoyduğu silinməz izlərdir.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# “Qobustan”ın poeziya aləmi

**Bu günlərdə “Qanun” nəşriyyatında rüblük incəsənət toplusu olan “Qobustan” dərgisinin poeziya əlavəsi – Türk şairi Furkan Çalışqanın “Mezzo Morte” adlı şeir kitabı işıq üzü görüb.**




Səhifələrində bütün sənət sahələrini əhatə edən araşdırmalara, nəzəri-tənqidi yazılara, klassik irslə bağlı materiallara geniş yer ayıran “Qobustan” çağdaş dünya sənətçilərinin yaradıcılığını da diqqətdə saxlayır. Müasir türk modernist şairlərindən olan Furkan Çalışqanın kitabının nəşri də bu amala xidmət edir. Furkan bəy orijinal üslub və intonasiyaya malik qələm adamıdır. Onun şeirlərini Azərbaycan dilinə uyğunlaşdıran Aysel Xanlarqızı türk şairin yaradıcılığının fərqli məziyyətləri olduğunu vurğulayıb: “Mən Türkiyədə olanda Furkan bəylə görüşüb, şeirləri ətrafında müzakirələr etdik. O özü də etiraf etdi ki, əsərləri daha çox intellektual, hazırlıqlı oxucu üçündür. Amma, bununla belə, hesab edirəm ki, çağdaş oxucu üçün bu şeirlər bir çox düşüncə və duyğuların tərcümanı, ifadəsi ola bilər”.

Kitabın ön söz müəllifi, “Qobustan” dərgisinin baş redaktoru Pərvin isə bu əsərləri “Yeni əsrin şeirlər”i adlandırıb: “Qəribə bir assosiativ ifadə tərzi var bu şeirlərdə. Mən özüm dönə-dönə oxudum və zövqlə yazdım haqqında. Ümumiyyətlə, dərgimizin əlavələrini çap etməyi çoxdan planlaşdırırdıq. Bu, bir ilk oldu. Bildiyiniz kimi, bu yaxınlarda “Türkiyədə özəl sayı”mız çapdan çıxdı və elə bu şeirləri də həmin nömrənin poeziya əlavəsi kimi oxucularımıza təqdim edirik. Gələcəkdə fərqli mövzularda belə əlavə kitablar çap etməyi düşünürük”.

Qeyd edək ki, Furkan Çalışqan Türkiyənin nüfuzlu nəşriyyatlarından biri olan “Ketebe” Yayın Evinin baş redaktorudur və yaxın vaxtlarda onun Bakıda oxucularla görüşü nəzərdə tutulub.

***XQ***

Bir şəklin tarixçəsi

# Şeiriyyətdən boylanan heykəl

**Azərbaycan poeziyasının ünlü nümayəndələrindən biri də sufi şair, dilçi alim, əməkdar mədəniyyət işçisi, “Şöhrət” ordenli Məmməd Aslan... Onunla neçə il dövlət televiziyasında iş, Bakı-Sumqayıt arasında isə yol yoldaşı olmuşam.**





...Söhbətimiz tuturdu deyə, məni özünün gənc dostlarından sayırdı. İmkanı daxilində verilişlərimə baxırdı. Təvazökarlıqdan uzaq olsa da, deyim ki, mənə “Nəcəfxanlı” yox, “Nəcibxanlı” deyirdi. Onda vardı belə şeylər. Bir də görürdün ki, yolboyu qafiyə deyə-deyə gedib mənzil başına çatdıq.

Yaddaşı da güclü idi. Əzbərdən çoxlu şeirlər bilirdi. Yeri gəldikcə həmən tutuzdururdu. Bir dəfə də həsrəti ilə yanıb qovrulduğu Kəlbəcərdən danışırdıq. Dedi ki, heyif, Kəlbəcərdən uzaqlarda öləcəyəm. Ardınca da bu şeir parçasını söylədi:

*Torpağa bilmirəm, daşa bilmirəm –*
*Ömrümüz harasa yazılı qalar.*
*Mənim məzarımdan palıd göyərər, –*
*Qolları havadan asılı qalar...*

Məmməd müəllim baş redaktoru olduğu və Azərbaycanda ən oxunaqlı qəzet səviyyəsinə qaldırdı “Ekran-efir”də yazılarımı verərək, məni şeirlə daha ciddi məşğul olmağa da çağırıb, sonra isə “Ürəyimi döyən həvəs” adlı ilk şeirlər kitabıma ön söz də yazıb.

Bir gün işdən Sumqayıta qayıdıb, onun yaşadığı binanın yaxınlığında çay süfrəsi arxasında söhbət edirdik. Fotoaparatı çıxarıb əli çənəsində oturmuş halda bir şəklini çəkdim. Fotolara qarşı çox tələbkar olan şairə sonra o şəkli təqdim edəndə baxıb bəyəndi. Nə biləydim ki...

Bir neçə ay sonra şair dünyasını dəyişdi. Məzarüstü abidəsini görəndə ağlamaya bilmədim: heykəl mən çəkdiyim həmin fotonun əsasında hazırlanmışdı – eyni poza, eyni kompozisiya. Heykəli də çəkdim və indi hər iki şəkli bir yerdə oxuculara təqdim edirəm.

Heykəldən də, fotodan da bir Məmməd Aslan kədəri boylanır. O, varlığı ilə bütöv bir Azərbaycan idi. Kəlbəcərdə doğulmuş, Bakıda və sonra Sumqayıtda yaşamışdı, 9 il əvvəl 75 yaşında Zaqatalada, qızı Təbrizəgildə dünyasını dəyişən şair Bakı ətrafında Kəlbəcər köçkünlərinin qəbiristanlığında torpağa tapşırıldı.

Onun Aşıq Qurbaniyə yazdığı bir şeirində belə misralar var:

***Qurbani, qəbrindən, ey kaş, dikələ!***
***Məzarı üstündə dönə heykələ!***

İndi Məmməd Aslan özü heykələ dönüb. Mənim çəkdiyim şəkildən, bir də ürəklərimizdən, xatirələrimizdən boylanan heykələ...

Ruhu şad olsun!

***Əli NƏCƏFXANLI***
***XQ***

Dünya və maraq dünyamız

# “Avtocərrahiyyə” qəhrəmanlığı

**Bəzən tale insan iradəsini sınağa çəkmək üçün onu bir müddət qorxulu uçurumda, ip ucunda, silah qarşısında həyat və ölüm seçimi arasında qoyur. İradəsi güclü olanlar belə imtahandan qalib çıxa bilirlər. Bu cür qaliblərin sonradan rəvan həyat sürənləri də, dərhal şan-şöhrətə sahib olub xoşbəxtlik tapanları da olur.**



Taleyin ən ağır sınağı ilə üz-üzə qalanlardan biri də cərrah Leonid Roqozovdur. O, 27 yaşda olarkən məcburiyyət qarşısında öz üzərində cərrahiyyə əməliyyatı keçirərək dünya ictimaiyyətini mat qoymuşdu. Bu qeyri-adi əməliyyatdan sonra gənc cərrah dünyanın ən iradəli insanları sırasına düşmüşdü.

Leonid 1934-cü il, martın 14-də Çita vilayətinin Borzinski rayonunda anadan olub. Onun atası adi sovet sürücüsü, anası isə sağıcı idi. Əsgəri xidməti başa çatdırdıqdan sonra hazırlaşaraq 1953-cü ildə Sankt Peterburqda Tibb İnstitutunun müalicə-pediatriya fakültəsinə qəbul olur. Həyatını tamamilə tibbə həsr etmək qərarına gələn Leonid, 1959-cu ildə xirurqiyanın ordinatura dərəcəsinə yiyələnir.

Gənc xirurq 1961-ci ildə sovet Antarktidasına ekspedisiyaya göndərilən on iki nəfərdən ibarət heyət üzvündən biri təyin olunur. Heyət həmin ilin 18 fevralında yenicə fəaliyyətə başlayan Novolazarovski stansiyasına gəmi ilə gəlib çatır. Onlar gəmini geri yola saldıqdan sonra sular tamam donur və qışlamağa gəldikləri stansiyada öz işlərinə başlayırlar.

Uzun müddət bu ekspedisiyanın tərkibində olmağa can atmış Leonid öz arzusuna çatdığı üçün yoldaşlarına təkcə həkim kimi yox, həm də sıravi ekspedisiya üzvü kimi yardımçı olur. Sakit həyat şəraitini ağır iş rejiminə dəyişən gənc həkim iki aydan sonra özündə kəskin kor bağırsaq ağrıları hiss edir. O, əvvəlcə ağrıların ötüb keçəcəyini düşündüyünə görə dostlarına bu haqda heç nə demədən özünü konservativ aclıq üsulu ilə müalicə etmək istəyir. Ağrıların getdikcə kəskinləşməsini hiss edən Leonid yataq rejiminə keçərək qarnına buz qoymaqla sakitləşməyə çalışır. Harayları heç bir tibb məntəqəsinə çatmayan ekspedisiya üzvləri çarəsizlikdən yatağının ətrafına yığılaraq onun başını qatmağa çalışırlar. Dəstədə yeganə həkim olan 27 yaşlı gənc cərrah Roqozov özü özünü əməliyyat etməyə qərar verir. Sonralar doktor həmin günü mətbuat üçün belə xatırlayır:

“Sabah 1 May bayramı olduğuna görə uşaqların qanını qaraltmaq istəmir, yalandan gülümsəyib bayramı ötürənə qədər dözmək istəyirdim, lakin qızdırmam göz açmağa imkan vermirdi. Əlimi bağırsağımın üstünə toxunduranda hiss etdim ki, cərrahiyə əməliyyatı qaçılmazdı. 1961-ci ilin 30 apreli idi, dostlardan mənim üçün cərrahiyə otağı hazırlamalarını xahiş etdim”.

Leonid üç nəfər ekspedisiya üzvünü özünə assistent təyin edir. Biri stolüstü lampanı onun üstünə tutur, digəri əməliyyatı uzanıqlı şəkildə həyata keçirmək üçün prosesi güzgüdə ona göstərir, üçüncü yoldaşı isə hər ehtimala qarşı ehtiyatda gözləyir.

Novokain məhlulu ilə ağrı nahiyəsini keyidən cərrah əlcəksiz işə başlayaraq öz qarnından on iki santimetr kəsik açır. Sol böyrü üstə uzanıb güzgüyə baxaraq sağ tərəfində əməliyyat aparan cərrah, yarım saat ərzində iltibaha uğramış appendisiti kəsib çıxarmağa və yara yerinə antibiotik yeritməyə nail olur. Normadan artıq qanaxmadan əmələ gələn zəiflik və başgicəllənməsinə görə həkim hər beş dəqiqədən bir yarım dəqiqə fasilə verməli olur.



Normal şəraitdə yarım saata başa gələn appendisit əməliyyatı burada 1 saat 45 dəqiqə davam edir. Nəhayət, Leonid skalpellə yardığı yeri tikə bilir və beləliklə əməliyyatı başa çatdırır. Əməliyyatdan bir həftə sonra cərrah tikişlərini sökərək normal həyata qayıdır.

“Əməliyyata başlayarkən soyuqqanlılıq etməyi, yalnız əməliyyat haqda düşünməyi özümə şərt qoydum. İynəni hazırlayıb əvvəlcədən Saşa Artyomova vermişdim, huşumu itirəsi olsam onu mənə necə vurmağını da öyrətmişdim. Həyacandan yazıq “assistentlərin” rəngi əyinlərindəki xalatdan da ağ idi. Güzgü tutsalar da, uzanıqlı vəziyyətdə appendiksi tapmaqda çətinlik çəkirdim.

Nəhayət, mən onu əlhavasına tapıb götürdüm. Onda hiss etdim ki, ürəyim getdikcə zəifləyir, əllərim rezin kimi əyilərək sözümə baxmır. Buna görə hər beş dəqiqədən bir iyirmi-otuz saniyə fasilə verməyi qərara aldım. Və nəhayət, ən sonda yaraya tikiş vurarkən xilas olduğumu düşündüm”.

Leonid Roqozovun bu cəsurluğu sovet mətbuatında ildırım kimi çaxır. Sovet İttifaqı Qəhrəmanı, kosmonavt German Titov onu qəhrəman adlandırır. Məşhur dissident şair, bard Vladimir Vısotski bu gənc cərrahın şəninə mahnı bəstələyib oxuyur. Bundan sonra Avropa mətbuatı uzun müddət cərrah Roqozovdan və onun bu qeyri-adi əməliyytından yazır.

Leonid Anjelina adlı rus qadınla ailə qurur və bu evlilikdən Vasili adlı oğlu dünyaya gəlir. O, bir müddət öz ailəsi ilə normal həyat yaşayır. Sonralar özünü alkoqoldan qoruya bilməyən cərrah ailədə tez-tez skandal qaldırır, həyat yoldaşına qarşı kobudluq edir. Xarakterinin dözülməz hal aldığına görə arvadı ondan ayrılası olur. Bu ayrılıqdan sarsılan həkim içkini uzun müddət dayandırsa da, Anjelina bir daha onun yanına qayıtmır.

Dünyaca məşhur olan cərraha günlərin bir günü Çexoslavakiyadan bir məktub gəlir. Praqada yaşayan Marsel adlı gənc həkim Leonidin cəsurluğuna heyran olduğunu və onunla şəxsən tanış olmaq istədiyini yazır. Çex xanımla məktublaşan Roqozov Çexoslavakiyada həkim kimi fəaliyyət göstərmək üçün yerli hakimiyyətə müraciət edir. Müsbət cavab alan həkim birbaşa Praqaya, Marsellə görüşə gedir. Elə ilk görüşdən biri-birinə vurulan cütlük birgə yaşamağı qərara alır və 6 aydan sonra Sankt-Peterburqa dönürlər.

Bir neçə il sevgi içərisində yaşayan həkimlərin bir oğlu və bir qızı dünyaya gəlir. Lakin Leonyanın alkaqol xəstəliyi getdikcə yenidən dözülməz hal alır. Cərrahın kobud davranışlarına dözə bilməyən Marsel 6 il birgə yaşayışdan sonra uşaqları da götürüb Praqaya qaçası olur.

Ziddiyyətli həyat yaşayan cəsur cərrah Leonid Roqozov 2000-ci ildə, 66 yaşında dünyasını dəyişib.

**Murad KÖHNƏQALA**

## Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi

## “Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu” publik hüquqi şəxs

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 mart 2024-cü il tarixli 163s nömrəli Sərəncamına uyğun olaraq 2024-cü il üçün fəlsəfə doktoru üzrə aşağıdakı ixtisaslara qəbul elan edir:

| İxtisasların şifrləri | İxtisasların adları | Qəbul planı | |
|---|---|---|---|
| | | Fəlsəfə doktoru proqramı üzrə doktorantura | Fəlsəfə doktoru proqramı üzrə dissertantura |
| 3103.02 | Meliorasiya, rekultivasiya və torpaqların mühafizəsi | 1 (qiyabi) | |
| 3305.08 | Hidrotexniki tikinti | 1 (qiyabi) | |
| 2518.01 | Hidrogeologiya | 1 (qiyabi) | |
| 3305.10 | Hidravlika və mühəndis hidrologiyası | 1 (qiyabi) | |
| 3308.01 | Ətraf mühitin texnologiyası və mühəndisliyi | 1 (qiyabi) | 1 |
| | | | |
| 5406.01 | Hidrologiya | 1 (qiyabi) | |
| 5312.01 | Sahə iqtisadiyyatı | 1 (qiyabi) | |

**Qəbul qaydaları:**

1. **<u>Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya</u>** ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

2. Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:
- ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);
- kadrların şəxsi uçot vərəqəsi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil sənədlərinin tanınması barədə şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

3. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna edilməklə, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanlarını verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə fənni üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

4. Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir. Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar. Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (İELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad edilirlər. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və Nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

5. Doktoranturaya sənədlərin qəbulu elan dərc olunan gündən 2024-cü il mayın 15-dək aparılacaqdır.

Ünvan – Az-1130, Bakı şəhəri, İ.Dadaşov küçəsi 324, 603-cü otaq.

**Müdiriyyət**

## “Azərelektrikşəbəkətikinti” ASC-nin 2023-cü il dekabrın 31-nə mənfəət və zərərlər haqqında hesabatı

**(manatla)**

| AKTİVLƏR | 2023-cü il | 2022-ci il |
|---|---|---|
| Əsas əməliyyat gəliri | 112.542,40 | 116.120,41 |
| Satışın maya dəyəri | | |
| Ümumi mənfəət (zərər) | 112542,4 | 116120,41 |
| Sair əməliyyat xərcləri | | -853.860,00 |
| Kommersiya xərcləri | | |
| İnzibati xərclər | -383409,45 | -720944,58 |
| Əməliyyat mənfəəti (zərəri) | -270.867,05 | -1.458.684,17 |
| Maliyyə gəlirləri (müsbət məzənnə fərqi) | | |
| Maliyyə xərcləri (mənfi məzənnə fərqi) | | |

| | | |
|---|---|---|
| Fövqəladə gəlirlər | | |
| Fövqəladə xərclər | | |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | -270.867,05 | -1.458.684,17 |
| Mənfəət vergisi | 0,00 | 0,00 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | -270.867,05 | -1.458.684,17 |
| Mənfəətdə iştirak payı: | | |
| Səhmdarların payı | | |
| Səhmdarların payına düşən bir səhmin məfəəti: | | |
| Bir səhmin əsas mənfəəti | - | |

## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

Bakı şəhəri və regionlarda yerləşən hava limanlarına cari və növbəti il ərzində quraşdırılmalı olan kondisionerlərin satın alınması məqsədilə

**MÜSABİQƏ ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər hasanova.aydan@azal.az mail ünvanına müraciət edib şirkət haqqında məlumatlarını təqdim edərək müraciətlərini yönləndirə bilərlər. Müraciət üçün son müddət 15 may 2024-cü il saat 17.00-dəkdir.

Göstərilən vaxtdan gec təqdim olunan müraciətlər qəbul edilməyəcəkdir.

Əlaqə nömrəsi – (012) 497 26 00, daxili 80-91.

## “Dərnəgülsənayetikinti” ASC səhmdarlarının nəzərinə!

25 iyun 2024-cü il saat 11.00-da “Dərnəgülsənayetikinti” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin idarə heyətinin 2023-cü ilin yekunları ilə bağlı maliyyə-təsərrüfat fəaliyyətinin hesabatının müzakirəsi və təsdiqi.
2. Səhmdar cəmiyyətin idarə heyətinin sədrinin və üzvlərinin seçilməsi.
3. Müşahidə şurasının üzvlərinin seçilməsi.
4. Cəmiyyətin təftiş komissiyası üzvlərinin seçilməsi.
5. Cəmiyyətin nizamnaməsinin yeni redaksiyasının təsdiqi.
6. Sair məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştiraki vacibdir.

Əlaqə telefonu – (012)514-35-85.

Ünvan – Bakı şəhəri, Z. Bünyadov prospekti, 20/61 E-118-ci məhəllə.

***İdarə heyəti***

## “Gəncə Mexanizasiya-5” ASC səhmdarlarının nəzərinə!

25 iyun 2024-cü il saat 10.00-da “Gəncə Mexanizasiya-5” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.Səhmdar cəmiyyətin 2023-cü ilə aid fəaliyyətinin müzakirəsi.

2. Səhmdar cəmiyyətin gələcək fəaliyyət planlarının müzakirəsi.

Bütün səhmdarların iştirakı vacibdir.

Əlaqə telefonu – (050) 335-35-25, (050) 567-52-54.

Ünvan – Gəncə şəhəri, N. Nərimanov prospekti 38.

## “Bakı Ofset Kombinatı” ASC səhmdarlarının nəzərinə!

27 iyun 2024-cü il saat 10.00-da Bakı şəhəri, Nəsimi rayonu, A.Məhərrəmov küçəsi 4 nömrəli ünvanda “Bakı Ofset Kombinatı” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Əlaqə telefonu – (050-209-29-15 ).

## “Kürdəmir Taxıl” ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da Kürdəmir şəhəri, Bakı prospekti 6 nömrəli ünvanda “Kürdəmir Taxıl” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi
2. Digər məsələlər.

Əlaqə telefonu – (070) 313-99-62.

## “Astara Çay–1” ASC səhmdarlarının nəzərinə!

“Astara Çay–1” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 28 iyun 2024-cü il saat 10.00-da cəmiyyətin yerləşdiyi inzibati binada keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin maliyyə balansının təsdiq edilməsi.
2. Seçkili orqanların yenidən seçilməsi.
3. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək cəmiyyətə gəlməklə tanış ola bilərlər.

Telefon – 050-319-25-89.

Ünvan – Astara rayonu, Kijəbə qəsəbəsi.

***İdarə heyəti***

## “Loğman” ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da “Loğman” ASC səhmdarlarının növbəti ümumi yığıncağı Bakı şəhə¬ri, Nizami rayonu, Keşlə qəsəbəsi, Davud Aslan küçəsi 2F nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2023-cü il üçün maliyyə hesabatı.
2. Cari məsələlər.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 97 (30501) 11 may 2024-cü il, şənbə

İDMAN

## “Böyük dəbilqə”də bürünc medal

**Azərbaycan cüdo komandası Qazaxıstanın paytaxtı Astanada keçirilən “Böyük dəbilqə” turnirinin birinci günündə 1 mükafat qazanıb.**



Belə ki, Azərbaycan cüdoçusu Kamran Süleymanov (66 kq) komanda yoldaşı Ruslan Paşayevə qalib gələrək bürünc medala sahib olub.

Qeyd edək ki, mayın 12-dək davam edəcək “Böyük Dəbilqə” turnirində Azərbaycan 15 cüdoçu ilə təmsil olunur..

## Bakıda dünya rekordu yenilənib

**Bakıda keçirilən atıcılıq üzrə Dünya Kubokunda qadınlar arasında 25 metr məsafəyə tapançadan atəş açma növündə qaliblər müəyyənləşib.**



Bu növ üzrə qızıl və gümüş medalları Koreyanı təmsil edən atletlər qazanıblar. Fəxri kürsünün ən yüksək pilləsinə qalxan Yeji Kim, həmçinin 42 dəfə dəqiq atəş açmaqla bu növdə dünya rekordunu yeniləyib. Cin Yanq ikinci yerlə kifayətlənib. Almaniyalı Cozefin Eder isə bu turnirdə ardıcıl ikinci dəfə bürünc medal sevinci yaşayıb.

Qeyd edək ki, Dünya Kubokunda 80-dən çox ölkənin 400-dən artıq idmançısı mübarizə aparır. Yarış mayın 12-dək davam edəcək.

## Samboçumuz Avropa çempionu olub

**Serbiyanın Novi Sad şəhərində keçirilən sambo üzrə Avropa çempionatında Azərbaycan komandası 3 medal qazanıb.**



2022-ci ilin dünya mükafatçısı Elvin Bağırov (64 kq) finalda Narek Dallakyana (Ermənistan) 5:0 hesabı ilə qalib gələrək ilk dəfə böyüklər arasında Avropa çempionu olub. Sonuncu dəfə böyüklər arasında bu titula 8 il öncə Amil Qasımov yiyələnmişdi. O, 2016-cı ildə Rusiyanın Kazan şəhərində keçirilən yarışda qitənin ən güclüsü olmuşdu.

Komandamızın digər üzvləri Rəsul Aydəmirov (98 kq) və Nicat Məmmədli (58 kq) 3-cülük uğrunda görüşdə qalib gələrək bürünc medala sahib olublar.

Qeyd edək ki, yarış 11-12 mayda gənclər və yeniyetmələrin Avropa çempionatı ilə davam edəcək.

***L.QURBANOVA***
***XQ***

# Trabzondan gələn “Tərəfsiz bölgə” Bakıda “Qonaq teatr”da





**Sərhəd keçid məntəqəsində, neytral zonada fors-major bir hal yaşanır – vətəndaş pasportunu itirir. Həngamə də bundan sonra başlayır. Tragikomik situasiya yaranır. Neytral zonada qalmış biçarə Vasifin buradan xilas olması müşkülə dönür. İnsan haqlarının müdafiəçiləri işə cəlb olunur, beynəlxalq təşkilatların müdaxiləsi lazım gəlir. Məlum olur ki, qəhrəmanın hər iki ölkədə ailəsi varmış; iki qadın bir əri xilas etməyə çalışır.**

Söhbət görkəmli yazıçı-dramaturq, Əməkdar İncəsənət Xadimi Firuz Mustafanın “Tərəfsiz bölgə” tamaşasından gedir. Pyes indiyə qədər Azərbaycanda, daha sonra Ukrayna, Rusiya teatrlarında tamaşaya qoyulub. Bu dəfə isə Türkiyənin Trabzon Sənət Teatrı bu pyesə müraciət edib. Bir müddət bundan əvvəl tamaşa Trabzonda nümayiş etdirildi. Bu dəfə isə Trabzon Sənət Teatrı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə həyata keçirilən “Qonaq teatr” layihəsi çərçivəsində tamaşanı Bakıda göstərdi.

1993-cü ildən fəaliyyət göstərən sənət ocağının yaradıcısı və bədii rəhbəri Necati Zengindir. Necati bəy otuz ildən çoxdur ki, özünün yaratdığı teatrın yaşaması üçün fədakarlıqlar göstərməkdədir. İndiyə qədər saysız-hesabsız tamaşalar qurub, “Osmanlıdan günümüzə qədər Trabzon teatrının tarixi” adlı kitab yazıb. O, Qaradəniz Texniki Universitetini bitirib. Amma o, mühəndis olmaq üçün doğulmamışdı. Bir gün taleyinə düzəliş etmək qərarına gəlir. Mühəndislik təhsili almış bir gəncin teatr sevgisi bütün maneələri dəf edir, o, Trabzonda o vaxta qədər olmayan yeni tipli bir teatr yaradır. Trabzon Sənət Teatrı fədakar bir insan sənət eşqindən yaranıb.



Abbas Mirzə Şərifzadə adına Aktyor Evində böyük bir canlanma var. Mədəniyyət və incəsənət xadimləri gözə dəyir. Zal azğınacan dolur. Tamaşanın müəllifi Firuz Mustafaya yaxınlaşıb təbrik edirəm. Firuz müəllim məni bu əfsanəvi insanla, Necati Zenginlə tanış edir. İri cüssəli, boyuna, çəkisinə rəğmən son dərəcə çevik, teatral bir insandır. Onunla beş-on dəqiqəlik ünsiyyət qarşısındakı insanda dərin təəssürat yaratmağa kifayət edir. İki daş arasında fotomuzu da çəkirlər. Zahiri görünüşü sözün əsl mənasında pəhləvanı xatırladır. Bəli, o, pəhləvandır, sənətin, teatrın pəhləvanı! Trabzon Sənət Teatrı onun çiyinləri üzərində dayanır. Bu yükü tək daşımır, teatrın rejissor və aktyor heyəti də onunla çiyin-çiyinədir.

Trabzon teatrı Bakının yağışlı bir günündə Aktyor Evində gözəl bir performans sərgilədilər. Əvvəlcə pyesi türk dilinə uyğunlaşdıran Abdulkadir Özkanı yada salaq. Azərbaycanı ürəkdən sevən, Azərbaycan yazıçılarının əsərlərini Türkiyə türkcəsinə uyğunlaşdıran peşəkar tərcüməçi Abdulkadir Özkan. Gənc yaşında Kahramanmaraşda baş verən zəlzələ nəticəsində ailə üzvləri ilə birgə həlak olan gənc yazıçı dostumuz... “Tərəfsiz bölgə”də onun da əməyi var. Tamaşanın quruluşçu rejissoru Cemre Can Avcıdır. Rolları Süleyman Sırtkaya, Lalə İsgəndəroğlu, Haktan Özkan, Ayşe Natır, Serkan Serbest, Kevser Nur Yılmaz, Murat Aslan, Mete Aslan, Seymen Ali Pervanoğlu canlandırırlar.

Süleyman Sırtkaya tamaşada əsas qəhrəmanı – sənədi itmiş Vasifi oynayır. Aktyor obrazın hiss və həyəcanlarını göstərə bilir, tamaşanın lokomotivinə çevrilməyi bacarır. Tamaşada komizm ilə ciddi dramatik səhnələr bir-birini əvəz edir və üzvi surətdə birləşir. Bu uyarlığı obrazların tərkibində, ayrı-ayrı xarakterlərdə də görmək olar. Tərəfsiz bölgədə iki arvadın arasında qalıb döyülən Vasif gülüş doğurur, dramaturqun subliminal mesajı səhnə təcəssümündə son dərəcə effektiv görünür. Tamaşaçı intizarla gözləyir ki, görən bu Qordi düyünü nə zaman açılacaq? Gərginlik ictimai, sosial münasibətlər fonunda davam edir, qadınlar ərlərinin azadlığı tələbi ilə şüarlar səsləndirir, plakatlarla etiraz piketi keçirsələr də, nəticə ürəkaçan olmur. Sonda qəhrəman atrofiyaya məruz qalır; böyümək əvəzinə kiçilir, elə çamadanının üstündəcə büzüşüb yatır – taleyinə boyun əymək məcburiyyətində qalır. Bürokratiya divarını aşmaqda aciz qalan personajın aqibəti təəssüf hissi doğurur.

“Tərəfsiz bölgə” yazıçı-dramaturq Firuz Mustafanın dramaturji yaradıcılığında ekstravaqant situasiyalarla zəngin olan ən maraqlı tamaşalardan biridir. Biz Firuz müəllimlə mütəmadi olaraq görüşür, sənət söhbətləri edirik. Ümid edirəm ki, Vasifin tamaşadan sonrakı aqibətini bir gün mənə danışacaq.

**Kənan HACI**

## “Qara dəlik” animasiya filmində

**NASA qara dəliklərin sirli dünyasını göstərmək üçün yeni animasiya filmini təqdim edib. Burada əsas personaj Günəşin kütləsindən 4,3 milyon dəfə böyük olan nəhəng qara dəlikdir. Animasiyanın yaradıcısı NASA Kosmik Uçuş Mərkəzinin astrofiziki Ceremi Şnittmandır.**



O qeyd edib ki, bu cür vizual təsvirlər qara dəliklərin sirlərini açmaq istəyən elm adamları və həvəskar araşdırmaçılar üçün böyük maraq doğurur. Filmdə 360 dərəcə boyunca çəkilən kadrlar izləyicilərə virtual səyahət zamanı ətrafa baxmağa imkan verir. Burada 400 milyon mil (640 milyon kilometr) uzaqlıqda yerləşən qara dəliyin getdikcə daha da sürətlə böyüyən mənzərəsini görmək mümkündür. Ekran boyunca qara dəliyin diski, foton halqaları daha aydın görünür və onların işığı getdikcə çoxlu təsvirlər əmələ gətirir.

Qara dəliklərin daxilində zamanın yavaş irəlilədiyi və ya ümumiyyətlə irəliləmədiyi təxmin edilir. Onlar dahi alim Albert Eynşteynin ümumi nisbilik nəzəriyyəsi ilə təsvir edilir.

***FİDAN***
***XQ***

## Aranda yağmursuz və dumanlı, dağlarda yağıntılı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata əsasən, mayın 11-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək.**



Gecə və səhər arabir duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, səhər cənub küləyi ilə əvəz olunacaq. Gecə 12-16°, gündüz 19-24° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əksər rayonlarda əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-15°, gündüz 20-25°, dağlarda gecə 4-9°, gündüz 13-18° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# Nə işim var, nə macalım

## (yaşantı)

**Üç gündür ki, Bakıdayam. Necə deyərlər, “nə işim var, nə macalım”. Eləcə şəhəri gəzib dolanıram. Sanki bir ərəb turistiyəm, hər şeyə ilk dəfə görürmüş kimi maraqla baxıram. Halbuki, Bakı taleyimin şəhəridir. Bu məkanın, belə demək olarsa, çox küçəsi, məhəlləsi, bağ-parkı gözlərim önündə dəyişib, böyüyüb.**

Elə buna görə də 45-50 il əvvəlki Bakının panoramı içimdə solğunlaşmış, ağ-qara film kimi yaşayır. İndi hansı ünvana üz tuturamsa, o yerin əski halı gözlərimdə canlanır. Təhsil aldığım 1 saylı fizika-riyaziyyat, kimya-biologiya təmayüllü məktəb, onun qonşuluğunda yerləşən universitet (BDU şəhərciyi), yarı sökülmüş 3 saylı yataqxana binası mə-



nim üçün əziz ünvanlardandır. Bəzi avtobus dayanacaqları, yaxud iki küçənin kəsişdiyi yerlər də mənə gəncliyimin ən qaynar çağlarını xatırladır. Çünki mən Onu çox vaxt bu yerlərdə gözləyərdim...

Görkəmcə o dayanacaqlar, o küçələr dəyişib, yeniləşib, ancaq mən oraların əvvəlki görkəmini unuda bilmirəm. Sonralar ailəmlə yaşadığım məhəllələri gəzirəm. Bir vaxtlar biri-birimizin süfrəsində oturduğumuz, dərdimizi, sevincimizi bölüşdüyümüz insanları axtarıram. Bir çoxu dünyasını dəyişib. Onların övladları məni görən kimi qucaqlayır, evinə dəvət edir, sonra gümüşü dumanlar arxasında qalmış illərdə olmuş olayları dilə gətirirlər: “Yadındadırmı, Səməd əmi, atamla futbola getmişdiz, eee...”, yaxud “Yaqubun oğlunun toyunda ...”, “Bu həyətimizdəki ağacların çoxunu siz əkib-becərmisiz, çoxları elə bilirdi ki, siz bağbansız. Hamı sizə hörmət edirdi... Heyif o günlərdən!”

Onların bu sözləri məni sevindirsə də, elə bil içimdə nəsə qırılır... Öz-özümə deyirəm, demək, insan geridə qoyduğu illəri harada yaşayıbsa, işləyibsə, o məkanlarla bağlı daha xoş xatirələri varsa, o yer üçün qəribsəyir, oralara can atır. Bax, məni də illərlə şəhərlə kənd arasında körpüyə çevirən, tez-tez Bakıya çəkib gətirən o xatirələr, o illərin insanları, onların ruhlarıdı. Gəlməsəm, görməsəm ürəyim rahatlıq tapmır, “yarama” su çilənmir... Ancaq heç vaxt mən özümü şəhərli saymamışam. Ürəyimdə daim kənd sevgisi yaşayıb. Şəhərdə gecələr rəngli yuxularım kəndimizlə bağlı olub. İndi isə kəndimdə məni şəhər adamı sayırlar. Amma nə geyim-kecimimdən, nə də oturub-duruşumdan şəhərliyə bənzəyirəm. Əslində bu, mənə pis təsir edir. Sanki, bir qərib quşam, buralara təzə yuva bağlamağa gəlmişəm...

Gözəl aprel səhəridir. Dünəndən fərqli olaraq Günəş gülümsəyir, ılıq telləri Bakını daha cilvəli, gözəl göstərir. Yaxınlıqda bağban ağacları suvarır. Yadıma kənddə əkib-becərdiyim nar, əncir, tut, gavalı ağacları, tərəvəz ləkləri düşür. Yaddaşıma yazmaq istəyirəm ki, gərək bir azdan kiçik qardaşıma zəng edib, deyim ki, gedib onları suvarsın. Qəfil gözüm ayaqlarımdakı ev şəpiklərinə sataşır. İşə bax, ha! Necə olub ayaqqabı geyməyi unutmuşam? Hələ yaxşı ki, metroya girməmişəm. Demək, qocalırıq, yaddaş zəifləyir, gözlərimizdə dünyanın işığı azalır...

Telefon zəng çalır. Baxıram ki, tələbə yoldaşım Elçindir (yazıçı-publisist, filologiya elmləri doktoru Elçin Mehrəliyev). Deyirəm, xeyir ola, hələ saat səkkiz olmayıb, noolub? Deyir ki, bilirəm, çoxdan oyanmısan, gəl bizə. Gedək dağlara, mərəcöyüt (qulançar, quşqonmaz) yığmağa. Dünənki yazını da axşam tamamlayıb qurtarmışam. Oralarda bir süfrə açaq, söhbətləşək... Deyirəm ki, axır bir gün bizi o qaratikanlıqlarda ilan vuracaq... Gülür. Sonra əlavə edirəm ki, mən Bakını gəzməyə gəlmişəm, qoy doyunca gəzib-dolaşım.

Bilirəm ki, qulançar bəhanədir, istəyir ki, təbiətin qoynuna çıxsın, bir az nəfəsini dərsin. Axı Elçin də kənddə böyüyüb. Müəllim ailəsində böyüsə də, evin böyük oğlu kimi hər çətinliyə qatlaşıb - ot biçib, yer belləyib, ağac əkib-becərib. Buna görə indi şəhərdən kənara tez-tez çıxmayanda darıxır. Arabir deyir ki, evi satıb çıxacam şəhərdən, bu, həyat deyil biz yaşayırıq.

Dedim, qoy evə qayıdıb başmaqları dəyişim, zəng edərəm...

**Səməd MƏLİKZADƏ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3937
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00